RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 286 (9453) 29 DEKABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# İlham Əliyevin quruculuq Zəfəri

## Qarabağ və Şərqi Zəngəzur geniş abadlıq məkanına çevrilir

Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən üç il müddətində dövlət büdcəmizin əsas prioritetlərindən biri də milli hədəfimiz olan Böyük qayıdışa nail olunması istiqamətindədir.

2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat, gələn ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

→ 9

## Dünyada sülhün təminatçısı kimi qəbul edilən Lider

Prezident İlham Əliyevin yürütdüyü siyasətə həm ölkə daxilində, həm də xaricdə böyük inam var. Bu bir daha sübut edir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında ilk yerlərdən birini tutur. Burada Çin liderinin məktubunu xüsusi qeyd etmək lazımdır. Həmin məktubda bir çox vacib məqamlara və məsələlərə geniş şəkildə yer verilib.

Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi, eləcə də 19-20 sentyabrda həyata keçirilən antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyimizin təmin olunması ölkədə sülhün və sabitliyin əsaslarını möhkəmləndirib. Bu faktor da beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Şübhəsiz ki, Prezident İlham Əliyev tarix yazmış, eyni zamanda öz adını tarixə qızıl hərflərlə yazdırmış böyük sərkərdə, dahi şəxsiyyətdir.

→ 11

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib.

→ 8

## Dünyanın "yaşıl"laşmağa ehtiyacı var

### 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bundan irəli gəlir

Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli rayonları Naxçıvan MR-dən sonra ikinci yerdədir. Azərbaycanın ən günəşli rayonlarından biri də Ağdamdır. Burada günəşli günlərin çox olması günəş enerjisindən istifadəni aktuallaşdırır. Gələcəkdə burada da günəş enerjisindən və digər bərpaolunan enerji mənbələrindən istifadə nəzərdə tutulur.

→ 15

## Xarici İşlər Nazirliyində 2023-cü ilin yekunlarına dair mətbuat konfransı keçirilib

Tədbirdə 2023-cü il ərzində xarici ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq, ölkəmizin iqtisadi, humanitar diplomatiya və beynəlxalq yardım fəaliyyətləri, postmünaqişə dövründə göstərilən diplomatik səylər, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər, xarici siyasətin informasiya təminatı ilə bağlı təşkil olunan tədbirlər, analitik iş və kadr məsələləri ilə bağlı geniş məlumat verilib.

→ 8

## Fransaya Cənubi Qafqazda yer yoxdur

Fransa gec-tez belə vəziyyətlə üz-üzə qalmalıydı. Gizlində, qaranlıqda aparılan işlərin üstünə həqiqətin işığı düşməliydi. Neçə illər idi ki, Fransa Azərbaycana qarşı məkrli siyasət yürüdürdü. Bu siyasəti həyata keçirmək üçün bütün çirkin vasitələrə əl atırdı. Paris o qədər yolunu azıb, özünü arxayın hiss edirdi ki, hətta ölkəmizdə casus şəbəkəsi də yaratmağa cəhd göstərmişdir. Amma işində həmişə ayıqsayıq olan Azərbaycanın xüsusi xidmət orqanları bu cəhdin qarşısını vaxtında ala bilmişdir. Azərbaycan DTX-nin bu əməliyyatı Fransa dövlətinə, xüsusilə Prezident Emmanuel Makronun komandasına ciddi sarsıntı yaşadıb. Qərb mediası gizlətmədən yazır ki, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin bu uğurlu əməliyyatı Fransa xüsusi xidmət orqanlarının son 50 ildəki ən böyük iflası və biabırçılığıdır.

Bəziləri Fransanın bu addımını təəccüblə qarşılayır. Amma, əslində, burada təəccüblü heç nə yoxdur. Çünki illərdən bəri Bakıya qarşı açıq şəkildə düşmənçilik siyasəti yürüdən Makron hakimiyyətindən bütün bunlar gözlənilən idi. Fransa ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini, Qarabağda separatizmə son qoymasını, güclənməsini, regionun liderinə çevrilməsini, dünyada nüfuza sahibi olmasını həzm edə bilmir.

Lakin Fransanın indiyə qədər Azərbaycan əleyhinə hazırladığı bütün xain planları uğursuzluğa düçar olub. Bu planların bir neçəsini xatırlayaq: Fransa İkinci Qarabağ müharibəsinin ilk günlərindən ermənilərin maraqlarından çıxış edərək, işğalçılığa, separatizmə dəstək verdi, bacardığı qədər Ermənistanı silahlandırdı, beynəlxalq platformalarda ölkəmiz əleyhinə iş apardı.

→ 11

## Serbiyada "rəngli inqilab" cəhdi uğursuzluğa düçar oldu

Vuçiç etirazçıların hakimiyyət orqanları seçkilərində saxtakarlıq ittihamlarını rədd edib və həmin ittihamları yalan olduğunu bildirib. Xaricdən göndərilən "quldurlar"ın sabitliyi pozmağa çalışdıqlarını deyən Vuçiç vurğulayıb ki, onların cəhdləri uğursuzluğa düçar olub. Serbiya liderinin fikrincə, bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasına israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışır, lakin Serbiya müstəqil siyasət yürütməyə davam edəcək.

→ 16

## Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib



→ 10

## Qərb Paşinyandan yeni seçkilər keçirilməsini tələb edir

Hayastan mediasının verdiyi məlumata görə, N.Paşinyan və "Vətəndaş müqaviləsi" partiyası növbədənkənar seçki məsələsini ən azından 2024-cü ilin yayına qədər qaldırmamağa qərar verib. "4rd.am" nəşri yazır ki, Paşinyan növbədənkənar seçkilərdə qələbəsini tam təmin edə biləcək xüsusi müvafiq ciddi strukturlara və resurslara malik olmadığını anlamağa başlayıb. Qeyd olunub ki, regional strukturlarda vəziyyət xüsusilə ağırdır və ona görə də ən azı bayramdan sonra hakimiyyət orqanları regional fəaliyyətlərini gücləndirəcəklər. Hər bir nazirə hər hansı bir vilayətin koordinasiyası tapşırılacaq və ümumi koordinasiyanı müdafiə naziri Suren Papikyan həyata keçirəcək.

→ 16

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Respublikasının vətəndaşları üçün əlamətdar olan doğum gününüz münasibətilə Sizi "Doveriya" Prezident Klubunun üzvləri adından və şəxsən öz adımızdan təbrik edirik.

Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Sizi nüfuzlu, müdrik və uzaqgörən siyasi xadim, mükəmməl strateq, dərin təfəkkürə malik parlaq peşəkar dövlət başçısı kimi tanıyırlar. Siz ölkənizi onun maraqları ilə hamının hesablaşmalı olduğu böyük, güclü, qüdrətli dövlətə çevirmisiniz. Bu gün Azərbaycanda bütün nailiyyətlər Sizin adınızla bağlıdır və bu nailiyyətlər çox prinsipial, məsuliyyətli mövqeyiniz sayəsində əldə edilib.

Xahiş edirik, Azərbaycanın rifahı naminə ən xoş arzularımızı qəbul edin. Sizə uzun ömür, əmin-amanlıq, xoşbəxtlik, ölkənizin maraqlarının qorunmasında və vətəndaşlarınızın mənafelərinin təmin edilməsində uğurlar diləyirik.

*Dərin hörmətlə,*

***Nikolay TARAKANOV,***
***Rusiyanın "Doveriya" Prezident Klubunun Əlaqələndirmə Şurasının sədri, texniki elmlər doktoru, Rusiya Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin üzvü, Rusiya Yazıçılar İttifaqının üzvü,***
***Viktoriya LAZİÇ,***
***"Doveriya" Prezident Klubunun İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq. Sizin rəhbərliyinizlə son 20 ildə Azərbaycanda gedən inkişaf prosesləri, ordu quruculuğu, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa olunması, Vətənin bütün ərazilərində üçrəngli bayrağımızın dalğalanması hər bir azərbaycanlıya qürur hissi yaşadıb. Qədirbilən Azərbaycan xalqı Sizə, rəşadətli Ordumuza minnətdardır və bunu heç zaman unutmayacaq. Siz bu il anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz. Bundan böyük xoşbəxtlik ola bilməz. Biz Türkiyədə yaşayan və fəaliyyət göstərən azərbaycanlı elm adamları olaraq Sizinlə nə qədər qürur duysaq, azdır. Sizin adınız Azərbaycanımızın tarixinə qızıl hərflərlə həkk olunub.

Bu günlərdə Siz 2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə sərəncam imzaladınız. Hesab edirik ki, tarixi Zəfərdən və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasından sonra yeni prezident seçkilərinin keçirilməsi zərurət idi. Təbii ki, Siz peşəkar siyasətçi olaraq zamanın bu çağırışını doğru qiymətləndirdiniz və cəsarətli addım atdınız. Dünyanın hər yerində yaşayan Azərbaycan vətəndaşları kimi, Türkiyədə yaşayan azərbaycanlı elm adamları da hər zaman olduğu kimi, bu seçkilərdə də iştirak edərək Sizə - Müzəffər Ali Baş Komandanımıza səs verəcəklər. İnanırıq ki, bu seçkilərdə də zəfər Sizin olacaq. Azərbaycanın Sizin kimi müdrik liderə ehtiyacı var.

Cənab Prezident, biz elm adamları hər zaman Vətənimiz Azərbaycanın adını uca tutmaq üçün səy göstərəcəyimizə söz veririk.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Ədalət TURAN,***
***Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının İdarə Heyətinin sədri,***
***Əmirulla MƏMMƏDOV,***
***Azərbaycanın Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Yəhudi ənənəsinə əsasən doğum günü çox mühüm tarixdir, belə ki, məhz həmin məqamda Uca Yaradanın dünyanın yeni doğulan insansız daha mövcud ola bilməyəcəyi barədə qərar verdiyinə inanılır. Bu iddia tamamilə Sizə uyğundur: Sizin gündəlik fəaliyyətiniz, enerjiniz, müdrik qərarlarınız açıq şəkildə tarixin gedişatına təsir edir. Sizin rəhbərliyiniz və yorulmaz fəaliyyətiniz sayəsində bütün tarixi torpaqlar Zəfərlə azad olunub, Azərbaycan ildən-ilə yeni zirvələr fəth edir, inkişaf edir və haqlı olaraq dünya arenasında öz layiqli yerini tutur.

Azərbaycanda yaşayan bütün xalqlar arasında əsl tolerant, mehriban münasibətlərin təşəkkül tapmasına Sizin töhfəniz misilsizdir. Sirr deyil ki, günümüzdə dünyada antisemitizmin yeni dalğası yüksəlir. Belə vəziyyət ölkəmizə xas deyil: yəhudilər əsrlərdən bəri Azərbaycanda dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün sakinləri ilə sülh və dostluq şəraitində yaşayıblar. Sizin böyük xidmətiniz sayəsində belə vəziyyət bu gün də davam edir, ölkəmizin bütün yəhudiləri buna görə Sizə sonsuz minnətdardırlar. Dünyanın çox az yerində yəhudi icmalarının tərəqqisi və təhlükəsizliyi üçün belə şərait yaradılıb.

Bu əlamətdar gündə böyük məmnunluq hissi ilə Sizə minnətdarlığımı və ehtiramımı çatdırır, səmimi-qəlbdən yeni-yeni uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq, övladlarınıza və nəvələrinizə bol-bol sevinc arzulayıram. Yəhudi ənənələrində olduğu kimi, 120 ilədək xoş ömrünüz olsun!

*Hörmətlə,*

***Şneor SEQAL,***
***Azərbaycandakı Avropa Yəhudiləri İcmasının baş ravvini***

❖ ❖ ❖

Cənab Prezident.

Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimi, ən xoş arzularımı çatdırıram. Azərbaycanda bayramlar bir-birini əvəz edir. Sizin rəhbərliyinizlə şanlı Ordumuz Zəfər tarixi yazdı, bütün dünya azərbaycanlılarına Qələbə sevinci yaşatdı. Bu gün Azərbaycan xalqı xoş əhvali-ruhiyyə ilə gözəl günlər yaşayır. Əldə olunan bütün uğurlar Sizin düşünülmüş siyasətinizin nəticəsidir.

Hörmətli Prezident, Azərbaycan diasporunun ABŞ-də fəalı olaraq "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunduğuma, fəaliyyətimə göstərilən diqqətə görə minnətdarlığımı bildirirəm. Bu diqqət Azərbaycanla bağlı həqiqətlərin ABŞ-də təbliğ edilməsi yolunda məni daha da ruhlandırır və məsuliyyətimi artırır.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, Vətən, xalq naminə görəcəyiniz işlərdə uğurlar, həmçinin qarşıdan gələn prezident seçkilərində qələbə arzulayıram.

*Dərin hörmətlə,*

***Rəna ABBASOVA,***
***Amerika Azərbaycan Cəmiyyətinin üzvü,***
***Nyu York şəhər meriyasında protokol departamentinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə Kanadanın Monreal şəhərinin azərbaycanlı icması adından ürəkdən təbrik edim. Keçən illər ərzində Azərbaycanın əldə etdiyi bütün nailiyyətlər, tarixi qələbələr məhz Sizin adınızla bağlıdır. Siz həm də xalqımızın gələcək uğurlarının qarantısınız. Hər bir azərbaycanlı Sizin ölkəmizin rəhbəri kimi fəaliyyətinizdən razıdır və gördüyünüz işləri yüksək qiymətləndirir. Əminik ki, Azərbaycan vətəndaşları gələn il fevralın 7-də keçiriləcək prezident seçkilərində yenidən Sizi dəstəkləyəcəklər.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. Sizə və ailənizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Məsud ƏLİYEV,***
***Kanadada fəaliyyət göstərən Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Beynəlxalq Azərbaycanlı Qadınlar Birliyi adından doğum gününüz münasibətilə Sizə olan səmimi təbriklərimizi və ən xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası böyük inkişaf yolu keçmiş, ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmişdir.

2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə müvəffəqiyyətlər diləyirik. Biz, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı qadınlar Sizin siyasətinizi dəstəkləyirik.

Sizə cansağlığı, Azərbaycanın daha da inkişafı, xalqın daha xoşbəxt gələcəyi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirik.

*Hörmətlə,*

***Kəmalə CƏLİLOVA,***
***Niderlandda fəaliyyət göstərən Beynəlxalq Azərbaycanlı Qadınlar Birliyinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Doğum gününüz münasibətilə Sizi "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti adından təbrik edirəm. Alicənablıq, insanpərvərlik, mərdlik kimi ali insani dəyərləri özündə birləşdirən şərəfli və məsuliyyətli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Sizin uzaqgörənliyiniz və humanizminiz, milli və bəşəri dəyərlərə söykənən müdrikliyiniz, yüksək təşkilatçılıq və idarəetmə bacarığınız dünya liderləri üçün örnəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Vətən və xalq naminə gördüyünüz işlərdə yeni-yeni nailiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Rəşid MƏMMƏDOV,***
***"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Moskvada yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Fəxr edirik ki, Sizin kimi dünyanın ən nüfuzlu liderlərindən biri olan Prezidentimiz var. Sizin və rəşadətli Ordumuzun böyük uğurları sayəsində biz azərbaycanlılar indi qürurla, alnıaçıq yaşayır və çalışırıq. Siz layiqli övlad kimi Ümummilli Lider Heydər Əliyevin arzularını həyata keçirdiniz, vəsiyyətini yerinə yetirdiniz, adınızı tarixə qızıl hərflərlə yazdınız. Siz öz fəaliyyətinizlə Azərbaycana sevginizi nümayiş etdirərək onun müstəqilliyini möhkəmləndirdiniz, ərazi bütövlüyünü tam təmin etdiniz, təhlükəsizliyini, hərtərəfli siyasi və iqtisadi inkişafını təmin etdiniz, xalqın rifahı naminə böyük işlər gördünüz. Sizə bütün təşəbbüslərinizdə uğurlar diləyirik.

Fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2024-cü il münasibətilə də təbrik edirik. Gələn il keçiriləcək prezident seçkilərində Sizə inamlı qələbə arzulayırıq.

*Hörmətlə,*

***Bəxtiyar HƏSƏNOV,***
***"Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" Regional İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə Rusiyanın Samara Vilayəti Azərbaycanlıları Liqasının çoxsaylı üzvləri adından və şəxsən öz adımdan ürəkdən təbrik edim, ən səmimi arzularımızı çatdırım. Sizin doğum gününüzü olduqca xoş əhvali-ruhiyyə ilə qeyd edən vətənpərvər dünya azərbaycanlıları xalq, dövlət qarşısındakı böyük xidmətlərinizi alqışlayırlar.

Bu günü əlamətdar tarix edən ən başlıca amil Sizin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilində cəsarətli, qətiyyətli addımlarınız, müdrik siyasi qərarlarınızla ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam bərpa edərək ata vəsiyyətini yerinə yetirməyiniz oldu.

Möhtərəm Prezident, Azərbaycan xalqı Sizin kimi Prezidenti, Ali Baş Komandanı olduğu üçün çox şanslıdır. Bunu ölkənin inkişafı, xalqın rifahı, əmin-amanlığı istiqamətində gördüyünüz böyük işlər bir daha təsdiq edir.

Bu gün Azərbaycan Respublikasının adı dünya ölkələri sırasında qürurla çəkilir. Hər birimiz azərbaycanlı olduğumuz üçün fəxr edirik. Bu qüruru bizə yaşatdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti arzulayır, Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik. Dünyanın harasında yaşamağımızdan asılı olmayaraq hər zaman Sizin yanınızdayıq.

*Dərin hörmətlə,*

***Şirvan KƏRİMOV,***
***Rusiyanın Samara Vilayəti Azərbaycanlıları Liqasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, İvanovo vilayətinin çoxsaylı Azərbaycan diasporu adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edim.

Böyük liderlik keyfiyyətləriniz, idarəçilik istedadınız, fədakar fəaliyyətiniz sayəsində Siz ölkəmizin inkişaf strategiyasını müəyyən etmisiniz və uğurla həyata keçirirsiniz. Bu strategiya Azərbaycana mühüm nailiyyətlər qazandırıb. Əminik ki, respublikanın daha böyük tərəqqisi naminə bütün planlarınızın yerinə yetirilməsi üçün Sizin böyük potensialınız var.

Sizi bütün dünyada görkəmli dövlət xadimi, dahi atanızın siyasətinin cəsarətli, müdrik və layiqli davamçısı kimi qiymətləndirirlər.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, hər zaman xoş əhvali-ruhiyyə və Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Asif MƏMMƏDOV,***
***Rusiyanın İvanovo Vilayəti Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti Regional İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Sizi "Birlik" Azərbaycan Mədəniyyət Mərkəzi adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizin uzaqgörən siyasətiniz sayəsində sürətlə inkişaf edən Azərbaycan yüksək nüfuz və hörmət qazanaraq beynəlxalq aləmdə layiqli yer tutub. Ali Baş Komandan olaraq Sizin rəhbərliyinizlə şanlı Ordumuz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı və ətraf rayonları işğaldan azad etməklə möhtəşəm Zəfər əldə edib. Son 200 ildə Azərbaycanın itirilən, işğal olunan torpaqlarını geri qaytaran sərkərdə kimi adınız tariximizə qızıl hərflərlə yazılıb. Dünya azərbaycanlıları Sizin dəmir yumruğunuz ətrafında birləşib. İnanırıq ki, 2024-cü il fevralın 7-də keçiriləcək seçkilərdə Siz yüksək səs çoxluğu ilə yenidən Azərbaycanın Prezidenti seçiləcəksiniz. Kirov vilayətindəki diaspor olaraq hər zaman Sizi və yürütdüyünüz siyasəti dəstəkləyirik. Biz Vətəndən kənarda yaşamağımıza baxmayaraq, daim azərbaycançılığı təbliğ edirik.

Cənab Prezident, Siz Dünya Azərbaycanlılarının V Qurultayında xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, onların tarixi Vətənlə əlaqələrinin daha da inkişaf etdirilməsi, soydaşlarımızın yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha fəal iştirakı məsələlərini qeyd etdiniz və bu istiqamətdə tövsiyələrinizi verdiniz. Böyük fəxarət hissi ilə öz fəaliyyətimizdə Sizin tapşırıq və tövsiyələrinizi yerinə yetiririk.

Sizə cansağlığı, uğurlar, əvvəlki seçkilərdə olduğu kimi, növbəti prezident seçkilərində də böyük qələbə arzulayırıq.

Yaşasın Azərbaycan!

Eşq olsun Ali Baş Komandana!

*Hörmətlə,*

***Osman ALIYEV,***
***Rusiyanın Kirov vilayətində fəaliyyət göstərən "Birlik" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi Arxangelsk vilayətinin Azərbaycan diasporu regional ictimai təşkilatı adından təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan dinamik inkişaf nümayiş etdirir, ölkədə iqtisadi, sosial, mədəni və digər sahələrdə böyük nailiyyətlər qazanılmışdır. Respublika daxilindəki millətlərarası və dinlərarası həmrəylik digər dövlətlər üçün nümunədir. Azərbaycanın inkişafı, dünya miqyasında nüfuzunun artması, mövqeyinin möhkəmlənməsi istiqamətində gördüyünüz işlərə, həmçinin Rusiyada fəaliyyət göstərən diaspor təşkilatlarına və ölkələrimiz arasında münasibətlərin inkişafına göstərdiyiniz diqqətə görə Sizə təşəkkürümüzü bildiririk. Sizə ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzu edirik.

Biz, Arxangelsk vilayətində yaşayan azərbaycanlılar qarşıdan gələn prezident seçkilərində Sizi dəstəkləyəcəyik. Hər zaman Sizinləyik, cənab Prezident.

Əminik ki, Sizin peşəkarlığınız, məqsədyönlülüyünüz və qətiyyətiniz gələcəkdə də Azərbaycan Respublikasının inkişaf etməsinə, qüdrətlənməsinə, nüfuzunun durmadan yüksəlməsinə kömək olacaq.

*Hörmətlə,*

***Tərlan QASIMOV,***
***Rusiyanın Arxangelsk vilayətinin Azərbaycan diasporu regional ictimai təşkilatının idarə heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi "Birlik" Azərbaycanlıların İctimai Birliyi adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Biz, Qırğızıstanda yaşayan azərbaycanlılar tarixi Vətənimizə böyük sevgi hissi bəsləyir, öz adət-ənənələrimizi, mədəniyyətimizi hər zaman əziz tuturuq.

Sizin komandanlığınızla 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edildiyi 2020-ci il və antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edildiyi 2023-cü il bizim üçün müstəsna illər oldu. Bu möhtəşəm qələbələr Sizin - Müzəffər Ali Baş Komandanımızın parlaq strategiyası sayəsində əldə edildi. Bu gün Sizin düşünülmüş siyasətiniz sayəsində Azərbaycan güclü iqtisadiyyata və orduya malikdir. Qürur hissi ilə bildiririk ki, Sizin prezidentliyiniz dövründə Azərbaycan möhtəşəm qələbələr qazanıb.

Cənab Prezident, biz Sizin siyasətinizi dəstəkləyirik. İnanırıq ki, Azərbaycan Sizin rəhbərliyinizlə bundan sonra da sürətlə inkişaf edəcək, dünya siyasi arenasında öz mövqeyini daha da gücləndirəcək, yeni-yeni zəfərlər qazanacaq.

Fürsətdən istifadə edib Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, gələn ilin fevralında keçiriləcək prezident seçkilərində dəstəyimizi ifadə edirik.

*Hörmətlə,*

***Xansıvar BAXŞƏLİYEV,***
***Qırğızıstandakı "Birlik" Azərbaycanlıların İctimai Birliyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə ən xoş arzularla səmimi-qəlbdən təbrik edim. Sizə müstəqil Azərbaycanımızın tərəqqisi, firavanlığı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir müstəqil Azərbaycanın böyük inkişaf yolu, qüdrətlənməsi, eyni zamanda dünyada etibarlı tərəfdaş kimi qəbul olunması Sizin adınızla bağlıdır.

Gürcüstanda yaşayan minlərlə azərbaycanlı gənc Sizin dəstəyinizlə bu ölkənin ali təhsil müəssisələrində təhsil alır və müasir gürcü cəmiyyətinə inteqrasiya edir. Gürcüstan ilə Azərbaycan arasındakı dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətləri biz Gürcüstan azərbaycanlılarını, eləcə də gürcü ictimaiyyətini çox sevindirir.

Hörmətli Prezident, bu il dünya azərbaycanlılarının əbədiyaşar Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar bütün dünyada olduğu kimi, Gürcüstanda da silsilə tədbirlər keçirilib. Bu əlamətdar tədbirlərdə bizimlə yanaşı, dost və qardaş gürcü xalqının nümayəndələri də Gürcüstanın əsl dostu olmuş Ulu Öndər Heydər Əliyevi böyük hörmətlə yad edib, sonsuz ehtiramlarını bildiriblər.

Möhtərəm cənab Prezident, bu gün dünyada və Gürcüstanda yaşayan azərbaycanlılar Sizin yürütdüyünüz müdrik siyasət nəticəsində əldə edilən uğurları qürur və sevinc hissi ilə yaşayır və fəaliyyət göstərirlər. Otuzillik həsrətdən sonra Siz Müzəffər Lider olaraq Azərbaycanın əzəli torpaqlarını düşməndən azad etdiniz və ölkənin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Biz azərbaycanlılar harada yaşamağımızdan asılı olmayaraq, hər zaman Sizin siyasətinizi dəstəkləyirik. Gürcüstanda yaşayan yüz minlərlə azərbaycanlı gələn ilin fevralında keçiriləcək növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyir və qələbənizlə bağlı sevinci səbirsizliklə gözləyir.

Hörmətli cənab Prezident, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edir, Sizə, ailənizə və bütün Azərbaycan xalqına xoşbəxt və firavan həyat arzu edir, Qarabağımızda görülən bərpa-quruculuq işlərində uğurlar diləyirəm. Biz birlikdə güclüyük!

*Dərin hörmətlə,*

***Məhəbbət İMANOV,***
***Gürcüstandakı "Azərbaycan Evi"nin direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə mərkəzimizin kollektivi adından səmimi-qəlbdən təbrik edirik. Qürurla qeyd edirik ki, "Alyans" Gənclər Mərkəzinin açılışı Sizin doğum günününüzlə eyni tarixə təsadüf edib. Bu əlamətdar tarixin məsuliyyəti və şərəfi bizi fəaliyyətimizdə daha da ruhlandırır.

Cənab Prezident, Sizin ölkə rəhbəri kimi fəaliyyət göstərdiyiniz ötən 20 il ərzində Azərbaycan dövləti və xalqı qarşısında böyük xidmətləriniz olub. Siz Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrinə hər zaman sadiq olaraq Azərbaycanı yüksək zirvələrə qaldırmısınız. Sizinlə fəxr edirik. Siz Gürcüstan azərbaycanlılarının əziz dostusunuz. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq. Gürcüstanda yaşayan Azərbaycan vətəndaşları 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində sevinc və fərəh hissi ilə iştirak edərək Sizi dəstəkləyəcək, xalqımızın işıqlı gələcəyinə səs verəcəklər.

Sizə və ailənizə qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

*Hörmətlə,*

***Rəna HÜSEYNOVA və Leyla ƏMRAHOVA,***
***Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin İdarə Heyətinin üzvləri***

# Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur və Əmircan qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 600,0 (altı yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# Qusar rayonunun Qusar-Xudat (18 km)-Langi-Caqarqışlaq-Urvaoba-Atlıxan-Kuzunqışlaq-Zindanmuruqqışlaq-Avaranqışlaq avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Qusar-Xudat (18 km)-Langi-Caqarqışlaq-Urvaoba-Atlıxan-Kuzunqışlaq-Zindanmuruqqışlaq-Avaranqışlaq avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,2 milyon (bir milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# Bir qrup vəkilin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, "Vəkil Günü" peşə bayramı münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikasında vəkilliyin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Hüseynov Əli Meybulla oğlu
Hüseynov Turqay İmamqulu oğlu
Hüseynova Esmira Hüseyn qızı
Qasımov Telman Abiəli oğlu
Quliyev Azər Şahbala oğlu
Məmmədova Leyla Polad qızı
Mustafayev Muxtar Nağı oğlu
Nəhmətov Fazil İldır oğlu
Rəsulov Arif Əmrulla oğlu
Rüstəmova Natəvan Famil qızı
Usub Elçin Arif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli, "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli, "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 11 sentyabr tarixli 829 nömrəli fərmanlarında və "Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələrin və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısının təsdiq edilməsi barədə" 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170, № 11, maddə 2249; 2019, № 1, maddə 75, № 8, maddə 1403; 2020, № 1, maddə 7, № 7, maddə 871, № 11, maddə 1348, № 12 (I kitab), maddə 1480; 2021, № 7, maddə 732, № 8, maddə 911, № 9, maddə 982; 2022, № 4, maddə 303; 2023, № 1, maddələr 50, 67, № 4, maddə 480) 3.5-ci bəndinə "bölmə" sözündən əvvəl "müavinə və" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; 2023, № 1, maddə 50, № 4, maddə 480, № 6, maddə 784, № 9, maddə 1292) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 1.9.14-1-ci yarımbənd əlavə edilsin:

"1.9.14-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini;";

2.2. 2.1.2-ci yarımbəndin 9-1-ci abzasına "Azərbaycan" sözündən əvvəl "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini və" sözləri əlavə edilsin;

2.3. 2.1.6-cı yarımbəndin 8-ci abzasından, 2.1.7-ci yarımbəndin 2-ci abzasından və 2.3.3-cü yarımbəndin 1-ci abzasından "Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və" sözləri çıxarılsın.

3. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116, № 4, maddə 305, № 8, maddə 848, № 12, maddə 1436; 2023, № 3, maddə 374, № 4, maddə 479, № 7, maddə 947, № 8 (I kitab), maddə 1147) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 5-ci hissəsinə "Xidməti rəisinin müavinləri," sözlərindən sonra "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini," sözləri əlavə edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" üzrə:

3.2.1. 9.4-cü bənddən ", Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru" sözləri çıxarılsın;

3.2.2. 11.5-ci bənddə "və Sumqayıt" sözləri ", Sumqayıt hərbi prokuroru və Naxçıvan" sözləri ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 - "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 5-ci hissəsinə "Xidməti rəisinin müavinləri" sözlərindən sonra ", Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 sentyabr tarixli 829 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1488) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

"4.3-1. Təhlükəsizlik Şurası katibinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Təhlükəsizlik Şurası katibinin müavini Təhlükəsizlik Şurası katibinin ona həvalə etdiyi vəzifələri yerinə yetirir və buna görə şəxsən məsuliyyət daşıyır.".

5. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 208; 2009, № 2, maddə 66; 2016, № 6, maddə 1090; 2017, № 9, maddə 1699; 2018, № 7 (II kitab), maddə 1516; 2019, № 6, maddə 1125; 2020, № 1, maddə 58; 2021, № 2, maddə 150;2022, № 8, maddə 926) ilə təsdiq edilmiş "Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissəyə "Prezidentinin köməkçisi," sözlərindən sonra "xüsusi tapşırıqlar üzrə nümayəndəsi," sözləri əlavə edilsin;

5.2. 3-cü hissəyə"Xüsusi Tibb Xidməti rəisinin I müavini və müavinləri," sözlərindən sonra "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# Milli Məclisdə "Qanunvericilik lüğəti" kitabının təqdimat mərasimi keçirilib



Dekabrın 28-də Milli Məclisin Kitabxanasında parlamentin Aparatında hazırlanmış "Qanunvericilik lüğəti" adlı ikicildlik kitabın təqdimat mərasimi keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, kitabın ideya müəllifi Milli Məclisin Sədri, professor Sahibə Qafarova, layihə rəhbəri Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, elmi redaktoru Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov, redaktoru isə parlament Aparatının Redaksiya və nəşr işləri şöbəsinin müdiri Hafiz Babayevdir.

Tədbiri giriş sözü ilə açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu kitabın hazırlanmasına görə Milli Məclisin Sədrinə təşəkkürünü ifadə edib. O qeyd edib ki, qürurla deyə bilərik ki, Milli Məclis ilk dəfə olaraq belə bir lüğət tərtib edib. Banisi Ümummilli Lider Heydər Əliyev olan milli qanunvericiliyimizə böyük töhfə olan bu lüğət həm deputatlar, həm ictimaiyyət, həm də müəllim və tələbələr üçün çox əhəmiyyətli bir vəsait olacaq.

Sonra çıxış edən kitabın elmi redaktoru, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov bildirib ki, əvvəllər dərc olunmuş lüğətlərdən fərqli olaraq bu lüğətdə qanunlarda istifadə olunmuş terminlərin və anlayışların dəqiq izahı verilir. Lüğətdən istifadə edən hər bir şəxs anlayışın qanunda olduğu kimi izahını görə biləcək. Təxminən iki ilə yaxın müddətə başa gələn bu kitabda 2023-cü il aprelin 1-dək qəbul olunmuş qanunlarda istifadə olunmuş termin və anlayışlar öz əksini tapıb. Ümummilli Lider Heydər Əliyev Ali Sovetin Sədri seçildikdən sonra əsasını qoyduğu qanunvericilik sistemimizdə istifadə olunmuş anlayışların böyük əksəriyyətinin bir kitabda toplanması çox mütərəqqi haldır. Ziyafət Əsgərov Milli Məclisin Kitabxanasında kitab təqdimatlarının keçirilməsi ənənəsinin yaranmasına görə spiker Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Təqdimat mərasimində Milli Məclisin hüquqşünas deputatları adından çıxış edən Elşən Musayev bu kitabı hüquq ictimaiyyəti üçün böyük töhfə kimi dəyərləndirib. O bildirib ki, bu lüğət hüquq sahəsində bir sıra suallara aydınlıq gətirir.

Tədbirdə çıxış edən kitabın rəyçiləri - BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev, Cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova bu lüğətin Hüquq fakültəsinin müəllimləri və tələbələri üçün də dəyərli vəsait olduğunu qeyd ediblər. Təqdimat mərasimində çıxış edən kitabın tərtibçisi, Milli Məclis Aparatı rəhbərinin xidmətinin Kodifikasiya sektorunun müdiri Lalə Ramazanzadə lüğət barədə ətraflı məlumat verib. O bildirib ki, bu lüğətin məqsədi qüvvədə olan qanunvericiliyin terminoloji tərkibi haqqında tam şəkildə məlumat vermək və qanunvericiliyin sistemləşdirilməsi istiqamətində aparılacaq işlər üçün təməl qoymaqdır. Kitab kifayət qədər geniş normativ hüquqi bazaya malikdir və demək olar ki, əksər qanunvericilik aktlarını əhatə edir.

Təqdimat mərasiminə yekun vuran Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu kitabın ərsəyə gəlməsinə əmək sərf etmiş hər kəsə təşəkkürünü bildirib.

Tədbirdə Milli Məclisin deputatları Nizami Səfərov, Bəhruz Məhərrəmov, Əminə Ağazadə, Kamal Cəfərov, Nurlan Həsənov, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov, parlament Aparatının şöbə müdirləri, BDU-nun Hüquq fakültəsinin müəllimləri və digər rəsmi şəxslər iştirak ediblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Milli Məclisdə bir qrup tələbə gənclə görüş olub



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev dekabrın 28-də Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin bir qrup tələbəsi ilə görüşüb.

Qonaqları spiker Sahibə Qafarovanın adından salamlayan Aparat rəhbəri tələbələrə Milli Məclisin fəaliyyəti barədə məlumat verib. O vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasında söylədiyi proqram xarakterli nitqində parlamentə verdiyi tövsiyələr Azərbaycan parlamentinin bütün fəaliyyət istiqamətlərində rəhbər tutulub. Qeyd olunub ki, bugünkü Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması parlamentin beynəlxalq fəaliyyətində, o cümlədən Milli Məclisin Sədri Sahibə Qafarovanın fəal iştirakı ilə həyata keçirilən parlament diplomatiyasında əsas yer tutur.

Sonra Fərid Hacıyev xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin yüksək liderlik keyfiyyətləri, uzaqgörən siyasəti, müasir Azərbaycanın formalaşmasında müstəsna xidmətləri barədə slaydlarla müşayiət olunan geniş məruzə ilə çıxış edib. Parlament Aparatının rəhbəri Ulu Öndərin Azərbaycan dilinin, dövlətçiliyinin, müstəqilliyinin qorunub saxlanmasında, beynəlxalq səviyyədə tanınmasında, nüfuzunun möhkəmlənməsində, konstitusion quruluşunun bərqərar olunmasında, iqtisadi inkişafında və hərbi qüdrətinin artırılmasında müstəsna xidmətlərindən danışıb.

Azərbaycanın bugünkü qələbələrinin və uğurlarının cənab Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən Heydər Əliyev ideyalarının bəhrəsi olduğunu vurğulayan Fərid Hacıyev Ulu Öndərin ideyalarının sönməz nurunun bundan sonra da Azərbaycan xalqını yeni-yeni zəfərlərə doğru aparacağını bildirib.

Azərbaycan parlamentinin də Ulu Öndərin xatirəsini dərin hörmət və sevgi ilə yaşatdığını deyən Fərid Hacıyev Ümummilli Liderin 100 illik yubileyi münasibətilə Milli Məclis tərəfindən keçirilən tədbirlərdən danışıb.

Görüşdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev, Bakı Dövlət Universitetinin kafedra müdiri Şəhla Səmədova və tələbələr çıxış edərək Milli Məclislə tanışlıq üçün yaradılan şəraitə görə parlamentin spikeri Sahibə Qafarovaya təşəkkür ediblər, gələcək əməkdaşlıq imkanları ilə bağlı fikirlərini səsləndiriblər.

Tədbirdə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində hazırlanmış "Heydər Əliyev - zamanın fövqündə" adlı sənədli film nümayiş etdirilib.

Filmin nümayişindən əvvəl Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibov bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın ideya müəllifliyi ilə Milli Məclisin arxiv materialları əsasında hazırlanan bu film Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərini, o cümlədən parlament quruculuğu sahəsində gördüyü möhtəşəm işləri işıqlandırır.

Sonra parlament Aparatının rəhbəri Fərid Hacıyev spiker Sahibə Qafarovanın məsul redaktorluğu ilə Milli Məclisdə hazırlanmış "Heydər Əliyev və Azərbaycan parlamenti" adlı 3 cildlik kitabın nüsxələrini Bakı Dövlət Universitetinin nümayəndələrinə təqdim edib. Milli Məclisin bu nəşrində Ulu Öndərin parlamentin sədri olduğu dövrdə keçirilmiş Milli Məclis iclaslarının stenoqramları öz əksini tapıb.

Görüşün sonunda tələbələrlə xatirə şəkli çəkdirilib.

Tədbirdə Milli Məclis Aparatının məsul əməkdaşları iştirak ediblər.

***

Tədbir çərçivəsində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri parlamentin inzibati binası ilə də tanış olublar.

Bina ilə tanışlıq zamanı tələbələr Heydər Əliyevin adını daşıyan xatirə zalını ziyarət edərək, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Parlamentin plenar iclas zalı ilə tanışlıq zamanı tələbələrə burada yaradılmış iş şəraiti, Milli Məclisin fəaliyyəti haqqında məlumat verilib. Milli Məclisin foyesində isə onlar spiker Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış və Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsi ilə tanış olublar.

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, №11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832, № 12, maddələr 1376, 1385, 1400; 2023, № 1, maddələr 1, 10, 14, 23, 36, № 2, maddə 158,№ 3, maddə 336, № 4, maddələr 445, 467, № 7, maddə 902, № 8 (I kitab), maddələr 1095,1123,1136) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu maddənin mətninə "Azərbaycan Respublikasının ərazisində" sözlərindən əvvəl "Bu Məcəllənin 169.8-ci və 211.1.1-ci maddələri üzrə vergilərin ödənilməsi istisna olmaqla," sözləri əlavə edilsin;

1.2. 13.2-ci maddə üzrə:

1.2.1. 13.2.24-cü maddədə "hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən" sözləri "aparılan pul hesablaşmaları barədə məlumatların toplanması, emal edilməsi, saxlanması və internet vasitəsilə ötürülməsi imkanına malik olan" sözləri ilə əvəz edilsin;

1.2.2. 13.2.81-ci maddəyə birinci halda "məqsədilə" sözündən sonra "və ya bu cür məqsəd olmadan" sözləri, "mənfəət" sözündən sonra "(gəlir)" sözü əlavə edilsin;

1.2.3. 13.2.82-ci maddə üzrə:

1.2.3.1. birinci cümlədə "meyarlara" sözü "risk meyarlarına" sözləri ilə əvəz edilsin və həmin cümlədən ", o cümlədən əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan" sözləri çıxarılsın;

1.2.3.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir. Vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir;";

1.3. 14-cü maddə üzrə:

1.3.1. 14.3.6-cı maddədən "(alınmasına)" sözü çıxarılsın;

1.3.2. 14.6.5-ci maddədə "aşağıdakı hallarda" sözləri "alınmış malların (işlərin, xidmətlərin) faktiki alış dəyərinin əsassız artırılması aşkar edildiyi halda" sözləri ilə əvəz edilsin və həmin maddənin sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

1.3.3. 14.6.5.1-ci və 14.6.5.2-ci maddələr ləğv edilsin;

1.4. 15.1-ci maddə üzrə:

1.4.1. 15.1.14-cü maddədə "qeydiyyatdan keçirilməsi" sözləri "uçota alınması" sözləri ilə əvəz edilsin;

1.4.2. aşağıdakı məzmunda 15.1.15-4-cü maddə əlavə edilsin:

"15.1.15-4. bu Məcəllənin 16.1.11-14-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada, bu Məcəllənin 30.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla həmin vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etmək;";

1.5. 16.1-ci maddə üzrə:

1.5.1. 16.1.6-cı maddədə "habelə mühasibat uçotu elektron formatda aparıldığı halda," sözləri "mühasibat uçotu elektron formatda aparıldığı halda, vergi ödəyicisinin" sözləri ilə əvəz edilsin və həmin maddəyə "bazalarına" sözündən sonra ", habelə kommunal və rabitə xidmətləri göstərən vergi ödəyiciləri tərəfindən abunəçilər üzrə göstərilən və vergilərin hesablanmasına əsas verən xidmətlərin müddəti, həcmi, dəyəri, ödənişləri və digər iqtisadi göstəricilərini hesablayan və özündə əks etdirən, digər xidmət təminatçıları ilə qarşılıqlı hesablaşmaların aparılması üçün məlumatları saxlayan sistemlərə" sözləri əlavə edilsin;

1.5.2. aşağıdakı məzmunda 16.1.11-13-cü və 16.1.11-14-cü maddələr əlavə edilsin:

"16.1.11-13. taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi aylıq məlumatları hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə ötürmək;

16.1.11-14. təsərrüfat əməliyyatları aparılan zaman malları (işləri, xidmətləri) ona təqdim edən vergi ödəyicilərinin işgüzar nüfuzunun, maliyyə vəziyyətinin, qanuni sahibliyində müvafiq malların mövcudluğunun, habelə iş və xidmətlərin təqdim edilməsi üçün müvafiq işçi və digər resurslara, bilik və bacarığa malik olmasının yoxlanılması məqsədilə həmin vergi ödəyicilərindən müvafiq təsdiqedici sənədlər əldə etmək;";

1.6. 23.1.2-ci maddəyə "məlumatlara" sözündən sonra ", habelə kommunal və rabitə xidmətləri göstərən vergi ödəyiciləri tərəfindən abunəçilər üzrə göstərilən və vergilərin hesablanmasına əsas verən xidmətlərin müddəti, həcmi, dəyəri, ödənişləri və digər iqtisadi göstəricilərini hesablayan və özündə əks etdirən, digər xidmət təminatçıları ilə qarşılıqlı hesablaşmaların aparılması üçün məlumatları saxlayan sistemlərə" sözləri əlavə edilsin;

1.7. 30.2.9-cu maddəyə "olub-olmaması" sözlərindən sonra ", habelə bu hallarla bağlı vergi orqanının qəbul etdiyi qərarlar" sözləri əlavə edilsin;

1.8. 33.8-1-ci maddəyə"çıxarılması" sözündən sonra ", ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi" sözləri əlavə edilsin;

1.9. 36.3-1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 36.3-1.4-cü maddə əlavə edilsin:

"36.3-1.4. mənfəət, gəlir, əmlak və torpaq vergilərinin biri və ya bir neçəsi üzrə vergi hesabatının təqdim edilməsi müddəti səyyar vergi yoxlamasının davam etdiyi müddətdə başa çatdıqda.";

1.10. 43.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"43.11. Vergi ödəyicisi bu Məcəllənin 43-cü maddəsində nəzərdə tutulmuş qaydada sənədləri və əşyaları təqdim etmədiyi, bu Məcəllənin 16.1.6-cı maddəsində göstərilən elektron daşıyıcıda, uçot bazalarında və sistemlərində olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmadığı və ya həmin sistemlərdə olan məlumatlar vergi orqanının tələbi ilə təqdim edilmədiyi halda həmin sənədlərin və nümunə kimi əşyaların götürülməsi və ya həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasının təmin edilməsi səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qərarı ilə həyata keçirilir.";

1.11. 50-ci maddə üzrə:

1.11.1. aşağıdakı məzmunda 50.4-1-ci maddə əlavə edilsin:

"50.4-1. Bu Məcəllənin 50.1-ci maddəsi üzrə operativ vergi nəzarəti bu Məcəllənin 56.1-ci və 85.4-cü maddələrində nəzərdə tutulan dövr üzrə həyata keçirilir.";

1.11.2. 50.6-cı maddənin ikinci cümləsində "39-43-cü və 46-49-cu" sözləri "39 - 49-cu" sözləri ilə əvəz edilsin;

1.12. aşağıdakı məzmunda 57.8-ci maddə əlavə edilsin:

"57.8. Bu Məcəllənin 16.1.11-13-cü maddəsində göstərilən məlumatları müəyyən edilən müddətdə təqdim etməyən və ya təhrif olunmuş məlumatları təqdim edən taksi sifarişi operatorlarına 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.13. 58-ci maddə üzrə:

1.13.1. 58.6-cı maddəyə "görə" sözündən sonra "(bu Məcəllənin 177.5-ci maddəsində nəzərdə tutulan halda ƏDV məbləğinin 1 iş günü müddətində ödənilməməsi istisna olmaqla)" sözləri əlavə edilsin;

1.13.2. 58.7-ci maddənin birinci abzasının birinci cümləsində "qeydiyyatdan keçirilməmiş" sözləri "uçota alınmamış" sözləri ilə əvəz edilsin;

1.13.3. 58.8-ci maddənin birinci abzasından ", bu Məcəllədə nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda" sözləri çıxarılsın;

1.13.4. 58.8.3-cü maddə ləğv edilsin;

1.13.5. aşağıdakı məzmunda 58.15-1-ci maddə əlavə edilsin:

"58.15-1. Vergi nəzarəti tədbirləri ilə əmtəəsiz əməliyyatlar çərçivəsində riskli vergi ödəyicisi olması barədə qərar qəbul edilmiş vergi ödəyicilərinə aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

58.15-1.1. təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin 10 faizi miqdarında;

58.15-1.2. təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin 20 faizi miqdarında;

58.15-1.3. təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin 40 faizi miqdarında.";

1.13.6. 58.16-cı maddənin birinci cümləsində "58.8-ci" sözləri "58.8.2-ci" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

1.14. 60.3.3-cü maddədə "əməliyyat" sözü "mədaxil əməliyyatı" sözləri ilə əvəz edilsin;

1.15. 63.1-ci maddədə "gün" sözü "iş günü" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Şikayət üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün 30 iş günündən artıq müddət tələb olunduğu hallarda şikayətə baxılması müddəti vergi orqanı tərəfindən bir dəfə 30 iş günü müddətində uzadıla bilər. Müddətin uzadılması barədə şikayət vermiş şəxsə 3 iş günü ərzində məlumat verilir.";

1.16. 65-ci maddə üzrə:

1.16.1. 65.6-cı maddədə "Vergi" sözü "Bu Məcəllənin 79.3-cü maddəsinin müddəaları nəzərə alınmaqla, vergi" sözləri ilə əvəz edilsin;

1.16.2. aşağıdakı məzmunda 65.7-2-ci və 65.7-3-cü maddələr əlavə edilsin:

"65.7-2. Vergi orqanının vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vergilər, faizlər və ya maliyyə sanksiyaları üzrə borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncamı vergi ödəyicisinin bir neçə kredit və ya elektron pul təşkilatında olan hesablarına verildikdə və bu zaman borc məbləği vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından hər hansı biri üzrə dondurulduqda, həmin vəsaitin dondurulmasını təmin edən kredit və ya elektron pul təşkilatı vergi ödəyicisinin müraciəti əsasında bu barədə məlumatı vergi orqanına elektron qaydada təqdim edir. Vergi orqanı təqdim olunan məlumat əsasında digər kredit və ya elektron pul təşkilatlarına verilən sərəncamların 1 iş günü müddətində geri qaytarılmasını təmin edir.

65.7-3. Vergi orqanının vergi ödəyicisinin eyni kredit və ya elektron pul təşkilatında olan bir neçə hesablarına verilmiş vergilər, faizlər və ya maliyyə sanksiyaları üzrə borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncamları olduqda və bu zaman borc məbləği vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından hər hansı biri üzrə dondurulduqda, vergi orqanı həmin kredit və ya elektron pul təşkilatının elektron müraciəti əsasında digər hesablar üzrə sərəncamların 1 iş günü müddətində geri qaytarılmasını təmin edir.";

1.17. 67-ci maddə üzrə:

1.17.1. 67.2-ci maddəyə "verginin" sözündən sonra "(mənfəət və gəlir vergisi istisna olmaqla)" sözləri əlavə edilsin;

1.17.2. 67.3-cü və 67.14-cü maddələr ləğv edilsin;

1.17.3. aşağıdakı məzmunda 67.3-1-ci maddə əlavə edilsin:

"67.3-1. Vergi ödəyicisi tərəfindən vergiyə cəlb edilən gəlirlər rəsmiləşdirilmədikdə, lakin gəlirdən çıxılan xərclərə dair əlaqəli məlumatlar mövcud olduqda vergi tutulan mənfəət (gəlir) 50 faiz həcmində rentabellik nəzərə alınmaqla hesablanır.";

1.18. aşağıdakı məzmunda 70.2-4-cü maddə əlavə edilsin:

"70.2-4. Vergi ödəyicilərinin müraciətlərinə vergi orqanının cavabları elektron üsulla vergi ödəyicisinin elektron kabinetinə göndərilir. Vergi ödəyicisinin müraciəti əsasında həmin cavabların kağız daşıyıcıda olan surəti ona verilir.";

1.19. 71-1-ci maddə üzrə:

1.19.1. 71-1.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda 71-1.1.5-ci maddə əlavə edilsin:

"71-1.1.5. bu Məcəllənin 71-1.5.12-ci maddəsində nəzərdə tutulmuş haldaavansın alındığı gün.";

1.19.2. 71-1.5.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda 71-1.5.12-ci maddə əlavə edilsin:

"71-1.5.12. alınmış avans ödənişləri barədə.";

1.20. 79.3-cü maddənin ikinci cümləsində "vergi öhdəlikləri "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri "və sığorta (təkrarsığorta) təşkilatlarının vergi öhdəlikləri müvafiq olaraq "Banklar haqqında"və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında" sözləri ilə əvəz edilsin;

1.21. 83.9-cu maddə ləğv edilsin;

1.22. 85-ci maddə üzrə:

1.22.1. 85.5-1-ci maddəyə "haqlarına" sözündən sonra "(bu sığorta haqları ilə bağlı tətbiq edilmiş maliyyə sanksiyaları və hesablanmış faizlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.22.2. 85.5-2-ci maddəyə"38.7.4-cü" sözlərindən sonra ", 38.7.4-1-ci" sözləri əlavə edilsin;

1.22.3. 85.6.2-ci maddəyə "olduqda" sözündən sonra "və ya vergi ödəyicisinin vergi borcunu birdəfəyə ödəmə qabiliyyəti olmadıqda" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir;";

1.22.4. 85.8.4-cü və 85.9-1-ci maddələrdən "sahibkarlıq subyektlərinin kateqoriyası üzrə müvafiq olaraq" sözləri çıxarılsın;

1.22.5. 85.8.5-ci maddədə "3" rəqəmi "2" rəqəmi ilə əvəz edilsin;

1.22.6. 85.8.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 85.8.6-cı və 85.8.7-ci maddələr əlavə edilsin:

"85.8.6. vergi ödəyicisi tərəfindən son bir il ərzində müddəti uzadılmış vergi öhdəliyi vaxtında yerinə yetirilmədikdə;

85.8.7. vergi ödəyicisi bu Məcəllənin 85.9-3-cü maddəsində nəzərdə tutulan ödənişi etmədikdə.";

1.22.7. 85.9-cu maddənin birinci abzasının ikinci cümləsində "Mikro və kiçik sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 2 000 manatdan 20 000 manatadək, orta sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 20 000 manatdan 100 000 manatadək və iri sahibkarlıq subyektinin borcu 100 000" sözləri "Vergi ödəyicisinin borcu 500" sözləri ilə əvəz edilsin;

1.22.8. 85.9-1.2-ci maddənin ikinci cümləsində "dövlət büdcəsinə" sözləri "vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə" sözləri ilə əvəz edilsin;

1.22.9. aşağıdakı məzmunda 85.9-3-cü maddə əlavə edilsin:

"85.9-3. Bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi ödəyicisi vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması məqsədilə müraciətdə göstərilən vergi borcunun 10 faizini ödəməlidir.";

1.22.10. 85.10-2-ci maddədə "və" sözü "etibarən" sözü ilə əvəz edilsin və həmin maddəyə "ərzində" sözündən sonra "bu Məcəllənin 85.9-1.4-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, borcun alınması ilə bağlı tədbirlər həyata keçirilmir və" sözləri əlavə edilsin;

1.22.11. 85.10-3-cü maddədən "dövlət büdcəsinə" sözləri çıxarılsın;

1.22.12. 85.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"85.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciətin və digər sənədlərin daxil olduğu tarixdən 30 iş günü müddətində vergi ödəyicisinin müraciətinə baxır və bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərar qəbul edir. Qərarın qəbul edilməsi məqsədilə vergi orqanı bu Məcəllənin 85.9-3-cü maddəsində nəzərdə tutulan ödənişin edilməsi vəzifəsi barədə vergi ödəyicisinə yazılı məlumat verir. Qərarın qəbul edilməsi üçün müvafiq ödəniş vergi orqanının verdiyi məlumat alındığı tarixdən 3 iş günü ərzində vergi ödəyicisi tərəfindən həyata keçirilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında müddətin uzadılması səbəbi, vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmə müddəti və qaydası, habelə girov, bank zəmanəti, vergi ödəyicisinin mülkiyyətində olan siyahıya alınmış daşınar və daşınmaz əmlaklar və zamin haqqında qeydlər göstərilməlidir.

Bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olmadığı halda vergi orqanı öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilməsi barədə qərar qəbul edir və həmin qərarda imtinanın səbəbləri göstərilir.";

1.23. 88-ci maddə üzrə:

1.23.1. 88.1-ci maddənin birinci abzasında "Vergilər" sözü "Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri istisna olmaqla, vergilər" sözləri ilə əvəz edilsin;

1.23.2. 88.2-ci maddənin birinci abzasında "Məcburi" sözü "Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri istisna olmaqla, məcburi" sözləri ilə əvəz edilsin;

1.23.3. aşağıdakı məzmunda 88.2-1-ci maddə əlavə edilsin:

"88.2-1. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təmin edilmiş borc məbləğləri bu Məcəllənin 88.1-ci və 88.2-ci maddələrində göstərilən sıra qaydasından asılı olmayaraq, hər bir qətnamə üzrə ayrılıqda ödənilir.";

1.24. 89-cu maddə üzrə:

1.24.1. aşağıdakı məzmunda 89.8-1-ci maddə əlavə edilsin:

"89.8-1. Dövlət reyestri aparılan daşınmaz və daşınar əmlakı mövcud olan borclu vergi ödəyicisinin həmin əmlakının siyahıya alınmaya təqdim edilməsi məqsədilə, vergi orqanı tərəfindən əmlakın siyahıya alınması haqqında çıxarılmış qərarla birlikdə vergi ödəyicisinə müvafiq yazılı xəbərdarlıq da göndərilir.

Vergi ödəyicisi dövlət reyestri aparılan daşınmaz və daşınar əmlakı vergi orqanı tərəfindən müvafiq yazılı xəbərdarlıq edildikdən sonra da həmin xəbərdarlıqda müəyyən edilmiş müddətdə və yerdə siyahıya alınmaya təqdim etməkdən yayınarsa, həmin əmlak reyestr məlumatlarına əsasən vergi ödəyicisinin (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinin) və müşahidəçilərin iştirakı olmadan vergi orqanı tərəfindən siyahıya alınır.

Əmlakın siyahıya alınmasının vaxtı və yeri barədə yazılı qaydada xəbərdar edilmiş vergi ödəyicisi (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsi) əmlakın siyahıya alınması prosesində iştirak etmədiyi halda, əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri 1 iş günü müddətində vergi ödəyicisinə (onun qanuni və (və ya) səlahiyyətli nümayəndəsinə) əmlakın siyahıya alınması haqqında protokolun surətini əlavələri ilə birlikdə göndərir.

Vergi orqanı dövlət reyestri aparılan daşınar və daşınmaz əmlakın bu Məcəlləyə uyğun olaraq siyahıya alınmasını apardıqdan sonra 1 iş günü müddətində həmin əmlakın yüklü edilməsi barədə məlumatı bu əmlakın dövlət reyestrini aparan səlahiyyətli dövlət orqanına (qurumuna) elektron və ya kağız daşıyıcıda verir.";

1.24.2. 89.10-cu maddəyə "birlikdə" sözündən sonra "(dövlət reyestri aparılan daşınar və daşınmaz əmlakın reyestr məlumatlarına əsasən siyahıya alınması halı istisna olmaqla)" sözləri əlavə edilsin;

1.25. 90.3-cü maddənin dördüncü abzasının üçüncü cümləsində "xidməti məhkəmənin qərarı ilə əmlakı satılan" sözləri "xidmətinin dəyəri" sözləri ilə əvəz edilsin;

1.26. 96.5-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman iştirak payı və ya səhmlərin təqdim edilməsi əməliyyatı ilə bağlı əldə olunan gəlirdən həmin gəlirin əldə olunması ilə bağlı çəkilən digər xərclər də çıxılır.";

1.27. 98-ci maddə üzrə:

1.27.1. 98.2.3-cü maddəyə "işçinin" sözündən əvvəl "bu Məcəllənin 119.2-ci maddəsində nəzərdə tutulmuş xərclər istisna olmaqla," sözləri əlavə edilsin;

1.27.2. 98.3-cü maddədən ", habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin" sözləri çıxarılsın;

1.27.3. 98.5-ci maddədə "maddəsində" sözü "və 119.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.28. 101.2-ci maddənin ikinci hissəsində "və ya fərdi sahibkarlar tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən," sözləri ", fərdi sahibkarlar və ya vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən, mediatorlara mediasiya təşkilatları tərəfindən mülki-hüquqi müqavilələr əsasında ödənilən xidmət haqlarından" sözləri ilə, "və 150.1.17-ci" sözləri ", 150.1.17-ci və 150.1.18-ci" sözləri ilə əvəz edilsin;

1.29. 102-ci maddə üzrə:

1.29.1. 102.1.3.1-ci maddənin birinci abzasında "1000" rəqəmləri "2500" rəqəmləri ilə əvəz edilsin;

1.29.2. 102.1.11-1-ci maddədə "1" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.29.3. 102.1.14.1-ci maddədən ", habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin" sözləri çıxarılsın;

1.29.4. aşağıdakı məzmunda 102.1.14.33-cü maddə əlavə edilsin:

"102.1.14.33. dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məbləği.";

1.29.5. 102.1.15-ci maddəyə "təşkilatçıları" sözündən sonra "və respublika idman federasiyaları (assosiasiyaları)" sözləri əlavə edilsin;

1.29.6. aşağıdakı məzmunda 102.1.22-3-cü və 102.1.22-4-cü maddələr əlavə edilsin:

"102.1.22-3. yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda (xarici bankın Azərbaycan Respublikasındakı filialında) milli valyutada olan depozitlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsi;";

102.1.22-4. yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda (xarici bankın Azərbaycan Respublikasındakı filialında) milli valyutada olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsi - 3 il müddətinə;";

1.29.7. 102.1.30-cu maddə aşağıdakı redaksiyada verilsin:

"102.1.30. müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirinin 75 faizi.

Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir.

Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə bu maddədə müəyyən edilən şərtlərə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə fərdi sahibkarın mikro sahibkar olduğu əvvəlki 3 təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş gəlir vergisinin 75 faizi həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə gəlir vergisi öhdəliyindən çıxılır.

Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda bu maddə ilə müəyyən edilmiş vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir;";

1.29.8. 102.1.35-ci və 102.4.2-ci maddələr ləğv edilsin;

1.29.9. 102.1.39-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.40-cı və 102.1.41-ci maddələr əlavə edilsin:

"102.1.40. Bu Məcəllənin 165.5-ci, 165.6-cı və 228-ci maddələrinə əsasən fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına görə əldə olunan gəlirlər;

102.1.41. özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu Məcəllənin 174.5-ci maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər.";

1.29.10. 102.1-1-ci maddədə "ailəsi statusu verilmiş" sözləri "statusu almış" sözləri ilə əvəz edilsin;

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

1.29.11. 102.2.5-ci və 102.4.1-ci maddələrə "döyüşçülərin" sözündən sonra "(şəhid statusu almış şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.29.12. 102.7-ci maddəyə "Məcəllənin" sözündən sonra "102.1-1-ci," sözləri əlavə edilsin;

1.30. 104-cü maddə üzrə:

1.30.1. 104.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman iştirak payı və ya səhmlərin təqdim edilməsi əməliyyatı ilə bağlı əldə olunan gəlirdən həmin gəlirin əldə olunması ilə bağlı çəkilən digər xərclər də çıxılır.";

1.30.2. aşağıdakı məzmunda 104.8-ci maddə əlavə edilsin:

"104.8. Mediasiya təşkilatı ilə bağlanmış mülki-hüquqi müqavilə əsasında fəaliyyət göstərən mediatorlar tərəfindən göstərilən mediasiya xidməti ilə bağlı mediasiya təşkilatına daxil olan haqların və mükafatların həmin mediatorlara ödənilməli olan hissəsi mediasiya təşkilatının vergitutulan gəlirlərinə aid edilmir.";

1.31. 106-cı maddə üzrə:

1.31.1. 106.1.4-cü maddəyə "sahibkarlıq" sözündən əvvəl "dividend gəlirləri," sözləri əlavə edilsin;

1.31.2. 106.1.5-ci maddəyə "Əmanətlərin Sığortalanması Fondunun" sözlərindən sonra ", İcbari Sığorta Bürosunun" sözləri əlavə edilsin;

1.31.3. 106.1.7-ci maddəyə "o cümlədən" sözlərindən sonra "məktəbəqədər təhsil müəssisələrinin və" sözləri əlavə edilsin;

1.31.4. 106.1.14-cü maddədə "gəlirləri" sözü "mənfəət" sözü ilə,"10" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin;

1.31.5. 106.1.14-1-ci maddədə "1" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.31.6. 106.1.18-ci maddənin birinci cümləsində "10" rəqəmləri "15" rəqəmləri ilə, "köçürülən hissəsi - 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə," sözləri ", habelə" sözü ilə, "üzrə isə - 2021-ci il 1 yanvar tarixdən 8" sözləri "2024-cü il yanvarın 1-dən 5" sözləri ilə əvəz edilsin;

1.31.7. 106.1.20-ci maddə aşağıdakı redaksiyada verilsin:

"106.1.20. müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi;

Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir.

Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə bu maddədə müəyyən edilən şərtlərə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə hüquqi şəxsin mikro sahibkar olduğu əvvəlki 3 təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş mənfəət vergisinin 75 faizi həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə mənfəət vergisi öhdəliyindən çıxılır.

Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda bu maddə ilə müəyyən edilmiş vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir;";

1.31.8. 106.1.27-ci maddə ləğv edilsin;

1.31.9. 106.1.28-ci maddədə "6" rəqəmi "9" rəqəmi ilə əvəz edilsin;

1.31.10. 106.1.32-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106.1.33-cü və 106.1.34-cü maddələr əlavə edilsin:

"106.1.33 qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçən və filmin istehsalını, habelə dublyajını həyata keçirən, mikro sahibkarlıq subyekti olmayan kinematoqrafiya müəssisəsinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə;

106.1.34. tibb müəssisələri tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu Məcəllənin 174.5-ci maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər.";

1.32. 108-ci maddə üzrə:

1.32.1. 108.1-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Gəlirdən çıxılan xərclər qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir. Qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən xərclərin gəlirdən çıxılmasına yol verilmir.";

1.32.2. aşağıdakı məzmunda 108.1-1-ci maddə əlavə edilsin:

"108.1-1. Alışı və ya mədaxili bu Məcəllədə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilməyən mallara görə vergi ödəyicisinə bu Məcəllənin 58.8.2-ci maddəsinə əsasən maliyyə sanksiyası tətbiq edilmişdirsə, həmin malların bu Məcəllənin 58.16-cı maddəsinə uyğun olaraq müəyyən edilən dəyəri gəlirdən çıxılan xərclərə aid edilir.";

1.33. 109-cu maddə üzrə:

1.33.1. 109.3-cü və 109.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"109.3. Bu Məcəllənin 119.2-ci maddəsində nəzərdə tutulmuş xərclər istisna olmaqla, işçilərin və onların ailə üzvlərinin sosial xarakterli xərclərinin və əyləncə xərclərinin gəlirdən çıxılmasına yol verilmir.";

"109.8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində göstərilən mallar, habelə daşınmaz əmlak, avtomobil nəqliyyatı vasitələri və daşınar əsas vəsaitlər istisna olmaqla, digər malların vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı əsasında alınması və ya malların vergi ödəyicilərindən bu Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verən nəzarət kassa aparatının çeki əsasında alınması üzrə gəlirdən çıxılan xərclərin yuxarı həddi vergi ödəyicisinin hər il üçün gəlirlərinin və xərclərinin ən yüksəyinin hər bir hal üzrə 2 faizi həddində məhdudlaşdırılır və bu həddən yuxarı məbləğ gəlirdən çıxılmır.";

1.33.2. 109.9-cu maddədən "və təqdim edilən malların (işlərin, xidmətlərin) dəyəri bu Məcəllənin 14-cü, 14-1-ci və 67-ci maddələri nəzərə alınmaqla gəlirdən çıxılır" sözləri çıxarılsın;

1.34. aşağıdakı məzmunda 111.4-cü maddə əlavə edilsin:

"111.4. Müflis elan olunmuş banklar vergitutma məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada xüsusi ehtiyatları yaratmaqla gəlirdən çıxmaq hüququna malikdirlər.";

1.35. 115-ci maddə üzrə:

1.35.1. 115.1-ci maddənin birinci hissəsinin birinci cümləsinə (üçüncü halda) "əsas vəsaitlərin" sözlərindən sonra "(yük avtomobilləri istisna olmaqla) sözləri, "5 faizi" sözlərindən sonra ", yük avtomobillərinin ilin sonuna qalıq dəyərinin 8 faizi" sözləri əlavə edilsin;

1.35.2. 115.6-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"115.6-1. İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər bağlanmış müqavilə müddəti ərzində, lakin 5 ildən az olmayaraq, illər üzrə mütənasib məbləğlərdə amortizasiya olunmaqla gəlirdən çıxılır. İcarəyə götürülmüş əsas vəsaitlərin təmirinə çəkilən xərclər hər il üzrə ayrıca olaraq kapitallaşdırılır və bu maddə ilə müəyyən edilmiş qaydada amortizasiya olunur.";

1.36. 116.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"116.1. Öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığortaçılar ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla, sığorta haqları üzrə, həmçinin təkrarsığorta müqavilələrinə münasibətdə təkrarsığorta haqları üzrə öhdəliklər gəlirdən çıxılır. Sığorta müqaviləsinin müddəti bir neçə hesabat dövrünü əhatə edirsə çəkilən sığorta haqqı xərcləri həmin hesabat dövrləri üzrə onun hesablanması qaydasına müvafiq surətdə bölüşdürülür.";

1.37. aşağıdakı məzmunda 119.2-ci maddə əlavə edilsin:

"119.2. Nümayəndəlik xərclərinin, işçilərlə bağlı mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

1.38. 121.3-cü maddədə "ilin" sözü "illərin" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Vergi ödəyicisinin mənfəət (gəlir) vergisi üzrə güzəşt hüququ olduğu dövrdə amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan məbləğlər güzəşt hüququ başa çatdıqdan sonrakı illərin gəlirdən çıxılan məbləğlərinə əlavə edilmir.";

1.39. 122.1-ci maddədə "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

1.40. 123.1-ci maddədən "bu Məcəllənin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla" sözləri çıxarılsın;

1.41. 137-ci maddə üzrə:

1.41.1. adında "gəlirin" sözü "mənfəətin (gəlirin)" sözləri ilə əvəz edilsin;

1.41.2. mətnində (hər iki halda) "gəliri" sözü "mənfəəti (xərclər çıxılmaqla gəliri)" sözləri ilə əvəz edilsin və mətnindən "(bu fəaliyyətlə bağlı birgə xərci çıxmaqla)" sözləri çıxarılsın;

1.42. 140-cı maddə üzrə:

1.42.1. 140.2-ci maddənin birinci abzasına "Aşağıdakı" sözündən sonra "şərtlər yerinə yetirildiyi" sözləri əlavə edilsin;

1.42.2. 140.2.3-cü maddəyə "əmlakın" sözündən sonra "Vergi Məcəlləsinə əsasən müəyyənləşdirilmiş" sözləri əlavə edilsin;

1.42.3. 140.2.4-cü maddədə ", yaxud;" sözləri nöqtə işarəsi ilə əvəz edilsin və 140.2.5-ci maddə ləğv edilsin;

1.42.4. aşağıdakı məzmunda 140.7-ci maddə əlavə edilsin:

"140.7. Maliyyə lizinqi müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda əməliyyat bu Məcəllənin 140.2-ci maddəsinin tələblərinə cavab vermədiyi təqdirdə belə əməliyyat əmlakın icarəyə verilməsi olmaqla maliyyə lizinqi hesab edilmir. Bu zaman bu Məcəllənin 72.4-1-ci maddəsinə uyğun olaraq vergilərin dəqiqləşdirilməsi qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır və hesabat dövrü üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir. Maliyyə lizinqi müqaviləsi üzrə lizinq alan bu müqavilə üzrə hüquq və öhdəliklərini digər şəxsə təqdim etdiyi halda lizinq verənlə yeni alıcı arasında yaranan münasibətlər maliyyə lizinqi sayılır və əvvəlki maliyyə lizinqi müqaviləsinin davamı hesab edilir.";

1.43. 149-cu maddə üzrə:

1.43.1. 149.3-cü maddənin birinci cümləsinə "fəaliyyətini" sözündən sonra "müvəqqəti" sözü və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Vergi ilində fəaliyyətini müvəqqəti dayandıran vergi ödəyicisi həmin vergi ilində fəaliyyətini təkrar bərpa edərsə bu Məcəllənin 149.2-ci maddəsində göstərilən müddətdə vergi orqanına dəqiqləşdirilmiş bəyannamə təqdim etməlidir.";

1.43.2. aşağıdakı məzmunda 149.4-1-ci maddə əlavə edilsin:

"149.4-1. Mənfəət (gəlir) vergisi ödəyicisi olmayan vergi ödəyicisinin ƏDV qeydiyyatı bu Məcəllənin 157.3.3-cü maddəsinə uyğun olaraq keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyat bildirişinin verildiyi tarixdən etibarən 90 gün müddətində bəyannaməni vergi orqanına təqdim etməyə borcludur.";

1.43.3. 149.6-cı maddənin birinci cümləsinə "ödəyicisi" sözündən sonra "və ya onun təyin etdiyi vergi agenti" sözləri əlavə edilsin;

1.44. 150-ci maddə üzrə:

1.44.1. 150.1-ci maddənin birinci abzasında "Aşağıdakı" sözü "Vergi orqanında uçotda olan aşağıdakı" sözləri ilə əvəz edilsin;

1.44.2. 150.1.2-ci maddədə "xüsusi notariuslar" sözləri "qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər" sözləri ilə əvəz edilsin;

1.44.3. 150.1.3-cü və 150.1.6-cı maddələrdə "və ya sahibkarlar" sözləri ", sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər" sözləri ilə əvəz edilsin;

1.44.4. 150.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"150.1.5. fiziki şəxslərə və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxslərə faizlər ödəyən hüquqi şəxslər, sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər;";

1.44.5. 150.1.7-ci maddədə "və ya fərdi sahibkarlar" sözləri ", fərdi sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər" sözləri ilə əvəz edilsin;

1.44.6. 150.1.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 150.1.18-ci maddə əlavə edilsin:

"150.1.18. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiya təşkilatları ilə bağlanmış mülki-hüquqi müqavilələr əsasında fəaliyyət göstərən mediatorlar tərəfindən göstərilən mediasiya xidməti ilə bağlı mediatorlara ödənişi həyata keçirən mediasiya təşkilatı.";

1.44.7. 150.2-ci maddənin ikinci cümləsində "və sahibkarlar" sözləri ", sahibkarlar və vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər" sözləri ilə əvəz edilsin;

1.44.8. 150.3-6-cı maddədə "hesablanmış vergini ödəniş həyata keçirilənədək" sözləri "hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini" sözləri ilə əvəz edilsin və həmin maddədən "rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq" sözləri çıxarılsın;

1.45. 151-ci maddə üzrə:

1.45.1. 151.2-ci maddədə "gəlirinin" sözü "vergiyə cəlb olunan gəlirinin (xərclər nəzərə alınmadan)" sözləri ilə, "ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan)" sözləri "vergiyə cəlb olunan gəlirində (xərclər nəzərə alınmadan)" sözləri ilə əvəz edilsin;

1.45.2. 151.5.1-ci maddəyə "yekunla" sözündən sonra "(əvvəlki illərdə yaranmış zərər məbləğləri vergi tutulan mənfəətdən (gəlirdən) çıxılmaqla)" sözləri əlavə edilsin;

1.45.3. aşağıdakı məzmunda 151.7-ci maddə əlavə edilsin:

"151.7. Cari vergi ödəmələri bu Məcəllədə nəzərdə tutulan güzəşt və azadolmalar nəzərə alınmaqla hesablanır və hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir.";

1.46. aşağıdakı məzmunda 152.3-cü və 154.7-ci maddələr əlavə edilsin:

"152.3. Gəlir vergisinin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxslər tərəfindən özlərinə görə ödədikləri illik məcburi dövlət sosial sığorta haqqı məbləğinin 25 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə vergi ödəyicisinin təqvim ilinin yekunlarına görə hesablanmış və əvvəlki illərin zərəri çıxılmaqla ödənilməli olan gəlir vergisi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır.";

"154.7. Bu Məcəllənin 33.8-1-ci maddəsində göstərilən şəxslər (bu Məcəllənin 19-cu maddəsi ilə nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) ƏDV-nin ödəyiciləri sayılır.";

1.47. 155.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Bu Məcəllənin 218.1.2-ci maddəsində göstərilən şəxslər həmin maddədə müəyyən edilmiş hüquqdan istifadə etdikdə ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatı keçdiyi aydan sonrakı ayın 1-dən etibarən 10 gün ərzində fəaliyyətlərini sadələşdirilmiş vergi ödəyicisi kimi davam etdirəcəkləri barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidirlər.";

1.48. 156-cı maddə üzrə:

1.48.1. 156.1-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"156.1-1. bu Məcəllənin 218.4.1-ci maddəsində nəzərdə tutulan, göstərilən xidmətlərin dəyərini nağdsız qaydada əldə edən şəxslər (taksi fəaliyyəti göstərən şəxslər istisna olmaqla) bu Məcəllənin 156-cı maddəsi ilə müəyyən edilən hüquqdan istifadə edə bilərlər.";

1.48.2. 156.1-2-ci maddə ləğv edilsin;

1.49. 157.3.3-cü maddənin üçüncü abzasına "şəxslərə" sözündən sonra ", habelə Azərbaycan Respublikasının ərazisində yük daşımalarını həyata keçirən şəxslərə" sözləri əlavə edilsin;

1.50. 159.10-cu maddə ləğv edilsin;

1.51. 164-cü maddə üzrə:

1.51.1. 164.1.2-ci maddəyə "göstərilməsi" sözündən sonra ", o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən faizlər" sözləri əlavə edilsin;

1.51.2. aşağıdakı məzmunda 164.1.2-1-ci, 164.1.9-1-ci və 164.1.51-1-ci maddələr əlavə edilsin:

"164.1.2-1. ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar çərçivəsində əldə edilmiş aktivlərin (əsas vəsaitlərin) maliyyə lizinqi müqaviləsi üzrə təqdim edilməsi;";

"164.1.9-1. qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən mal idxalı, iş görülməsi, xidmət göstərilməsi və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün xidmətlərin göstərilməsi və işlərin görülməsi, o cümlədən xəzinə avadanlıqlarına texniki servis xidməti, pul nişanlarının istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi, ekspertizası, beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə əlaqədar xidmətlərin, informasiya sistemləri üzrə dəstəkləmə xidmətlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar məsləhət xidmətlərinin göstərilməsi;";

"164.1.51-1. tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində tibbi xidmətlərin göstərilməsi - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə;";

1.51.3. 164.1.10-cu maddədən "Azərbaycan Respublikası Mərkəzi Bankının və" sözləri çıxarılsın;

1.51.4. 164.1.18-ci maddədə "10" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin;

1.51.5. 164.1.19-cu maddə aşağıdakı redaksiyada verilsin:

"164.1.19. müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın idxalı və həmin şəxslər tərəfindən istehsal edilmiş müdafiə təyinatlı məmulatların satışı;";

1.51.6. aşağıdakı məzmunda 164.1.19-1-ci maddə əlavə edilsin:

"164.1.19-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın idxalı və satışı;";

1.51.7. 164.1.25-ci maddəyə "lizinq" sözündən əvvəl "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən" sözləri əlavə edilsin;

1.51.8. 164.1.27-ci maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

1.51.9. 164.1.31-ci maddədə "mineral" sözündən əvvəl "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən" sözləri əlavə edilsin;

1.51.10. 164.1.37-ci, 164.1.46-cı və 164.1.48-ci maddələrdə "4" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin;

1.51.11. 164.1.43-cü maddədə "5" rəqəmi "8" rəqəmi ilə əvəz edilsin;

1.51.12. 164.1.46-cı maddədən "heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən" sözləri çıxarılsın;

1.51.13. 164.1.49-cu maddədə "6" rəqəmi "9" rəqəmi ilə əvəz edilsin;

1.51.14. 164.1.51-ci maddəyə "fondunun" sözündən sonra ", habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondların" sözləri əlavə edilsin və həmin maddədə "2020-ci il yanvarın 1-dən 4" sözləri "2024-cü il yanvarın 1-dən 3" sözləri ilə əvəz olunsun;

1.51.15. 164.1.54-cü maddədə "3" rəqəmi "6" rəqəmi ilə əvəz edilsin;

1.51.16. 164.1.61-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 164.1.62-ci maddə əlavə edilsin:

"164.1.62. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi təsdiqedici sənəd əsasında svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.";

1.52. 166-cı maddə üzrə:

1.52.1. 166.1.1-ci maddəyə "nağd" sözündən əvvəl "bu Məcəllənin 16.1.8-ci maddəsində göstərilən, nəzarət-kassa aparatı tətbiq edilməli olan fəaliyyət növləri istisna olmaqla digər fəaliyyət növləri üzrə" sözləri əlavə edilsin;

1.52.2. aşağıdakı məzmunda 166.1.1-1-ci maddə əlavə edilsin:

"166.1.1-1. bu Məcəllənin 16.1.8-ci maddəsində göstərilən, nəzarət-kassa aparatı tətbiq edilməli olan fəaliyyət növləri üzrə ödənişlə (nağd və ya nağdsız) bağlı nəzarət-kassa aparatı çekinin vurulduğu tarix;";

1.52.3. 166.6-cı maddənin üçüncü cümləsi çıxarılsın;

1.52.4. 166.7-ci maddəyə "dəyərinin" sözündən sonra "və ya ƏDV məbləğinin" sözləri əlavə edilsin;

1.53. aşağıdakı məzmunda 174.5-ci maddə əlavə edilsin:

"174.5. Tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən tibbi xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə onun vergi tutulan ümumi dövriyyəsindən çıxılır. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.";

1.54. 175-ci maddə üzrə:

1.54.1. 175.1-ci maddənin birinci abzasına "edilməsi" sözündən sonra ", təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi və ya notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi" sözləri əlavə edilsin;

1.54.2. 175.3-cü maddədə (birinci halda) "maddəsində" sözü "və 119.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.54.3. 175.11-ci maddədə "və (və ya) riskli əməliyyatların rəsmiləşdirildiyi" sözləri "əməliyyatlar çərçivəsində əldə edilmiş" sözləri ilə əvəz edilsin;

1.54.4. aşağıdakı məzmunda 175.13-cü və 175.14-cü maddələr əlavə edilsin:

"175.13. Bu Məcəllənin 175.12-ci maddəsinin müddəalarından asılı olmayaraq idxal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq hüququna malikdirlər. Bu məqsədlə həmin şəxslər öz seçimləri barədə 2024-cü il yanvarın 1-dən kənd təsərrüfatı məhsullarını idxal edəcəkləri tarixədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş məlumat formasını uçotda olduğu vergi orqanına təqdim etməlidirlər. Vergi ödəyicisi məlumat formasını qeyd edilən müddətdə təqdim etmədikdə bu Məcəllənin 175.12-ci maddəsinin müddəaları tətbiq olunur. Vergi ödəyicisinin bu maddə ilə müəyyən edilmiş seçimi il ərzində dəyişdirilmir.

175.14. Alınmış mallarla (işlərlə, xidmətlərlə) bağlı yaranmış borclar üzrə faktorinq (tələbin güzəşti) əməliyyatları çərçivəsində əməliyyatın dəyəri faktorun (tələb güzəşt edilən şəxsin) bank hesabına, ƏDV məbləği isə satıcının ƏDV depozit hesabına ödənildikdə ödənilmiş ƏDV məbləği əvəzləşdirilir.";

1.55. 184-cü maddə üzrə:

1.55.1. 184.1.1-ci maddəyə "edilən" sözündən sonra ", bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər" sözləri əlavə edilsin;

1.55.2. 184.1.2-ci maddəyə "idxal" sözündən əvvəl "bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər" sözləri əlavə edilsin;

1.55.3. 184.1.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 184.1.3-cü maddə əlavə edilsin:

"184.1.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alınması.";

1.56. 185.2-ci maddənin birinci və ikinci hissələrinə "avtomobilləri" sözündən sonra ", motosikletlər" sözü əlavə edilsin;

1.57. 186-cı maddə üzrə:

1.57.1. 186.1-ci maddəyə "olunan" sözündən sonra ", bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər aksizli" sözləri əlavə edilsin;

1.57.2. 186.2-ci maddədə "Malların" sözü "bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər aksizli malların" sözləri ilə əvəz edilsin;

1.57.3. aşağıdakı məzmunda 186.3-cü maddə əlavə edilsin:

"186.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alındığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.";

1.58. 186-1-ci maddə üzrə:

1.58.1. 186-1.1-ci maddəyə "buraxılmasına" sözündən sonra "və ya məcburi nişanın alınmasına" sözləri əlavə edilsin;

1.58.2. aşağıdakı məzmunda 186-1.4 - 186-1.6-cı maddələr əlavə edilsin:

"186-1.4. bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli malların istehsalçısı olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə onların sahibliyində aktivləşdirilməmiş məcburi nişan qalarsa, vergi ödəyicisi həmin nişanları alarkən ödənilmiş aksiz məbləğlərini geri almaq hüququna malikdir.

186-1.5. Aksiz dərəcələrində artım olduqda, məcburi nişan alarkən vergini aşağı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə artırılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə növbəti ayın 20-dən gec olmayaraq, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxal edildiyi vaxt gömrük bəyannaməsində əks etdirməklə dövlət büdcəsinə ödəməlidir.

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 5-ci səh.*

186-1.6. Aksiz dərəcələrində azalma olduqda, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə azaldılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxalı üzrə tərtib edilmiş gömrük bəyannaməsində əks etdirməklə aksiz öhdəliyini azaldır.";

1.59. 188-ci maddə üzrə:

1.59.1. 188.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"188.1.1. fiziki şəxsin şəxsi istifadəsi üçün aşağıdakı miqdarda aksizli malların idxalı:

188.1.1.1. 1,5 litr alkoqollu içki;

188.1.1.2. 2 litr energetik içki;

188.1.1.3. 200 ədəd siqaret, 20 ədəd siqarilla və 10 ədəd siqar;

188.1.1.4. 3 ədəd birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;

188.1.1.5. 100 ədəd alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar;

188.1.1.6. 100 qram çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;

188.1.1.7. 50 millilitr elektron siqaretlər üçün maye;

188.1.1.8. 20 qram qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları;

188.1.1.9. 0,5 karat emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;

188.1.1.10. Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş çənindəki yanacaq.";

1.59.2. 188.1.7-ci maddədə "3" rəqəmi "6" rəqəmi ilə əvəz edilsin;

1.59.3. 188.1.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 188.1.8-ci maddə əlavə edilsin:

"188.1.8. mühərrikinin işçi həcmi 125 kubsantimetrdən çox olmayan motosikletlərin idxalı - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.";

1.60. 190-cı maddə üzrə:

1.60.1. 190.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:

190.1.1. tütün məmulatları və onların əvəzediciləri;

190.1.2. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;

190.1.3. elektron siqaretlər üçün maye;

190.1.4. içməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri;

190.1.5. energetik içkilər;

190.1.6. neft məhsulları;

190.1.7. minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);

190.1.8. avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);

190.1.9. dövlət qeydiyyatına alınmalı olan motosikletlər;

190.1.10. istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;

190.1.11. idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;

190.1.12. idxal olunan xəz-dəri məmulatları.";

1.60.2. 190.2-ci maddəyə "avtomobilləri" sözündən sonra ", motosikletlər" sözü əlavə edilsin;

1.60.3. 190.3-cü maddəyə "məmulatlarına" sözündən sonra "və onların əvəzedicilərinə" sözləri əlavə edilsin və həmin maddədən "istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlərə, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlərə, çeynənilən və ya buruna çəkilən tütünlərə, və tütün əvəzləyiciləri, habelə qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarına," sözləri çıxarılsın;

1.60.4. 190.3.1-190.3.3-cü maddələrdə "4,0" rəqəmləri "4,8" rəqəmləri ilə əvəz edilsin;

1.60.5. 190.3.4-cü maddədə "2,6" rəqəmləri "0,2" rəqəmləri ilə əvəz edilsin;

1.60.6. 190.3.7-ci maddədə "43,0" rəqəmləri "45,5" rəqəmləri ilə əvəz edilsin;

1.60.7. 190.3.8-ci maddədə "38,5" rəqəmləri "45,5" rəqəmləri ilə əvəz edilsin;

1.60.8. 190.3.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"190.3.15. alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar - 1000 ədədinə 16 manat;";

1.60.9. 190.3.16-cı maddədə "0,25" rəqəmləri "2" rəqəmi ilə əvəz edilsin;

1.60.10. 190.4-cü maddəyə "avtomobillərinə" sözündən sonra ", motosikletlərə" sözü əlavə edilsin;

1.60.11. aşağıdakı məzmunda 190.4.1-5-ci maddə əlavə edilsin:

"190.4.1-5. motosikletlərə görə:

| Aksizli malın adı | Aksizin dərəcəsi |
|---|---|
| Motosikletlər: | |
| mühərrikin həcmi 125 kubsantimetrədək olduqda | mühərrikin həcminin hər kubsantimetrinə görə 0,20 manat |
| mühərrikin həcmi 500 kubsantimetrədək olduqda | 25 manat + mühərrikin həcminin 126-500 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 0,40 manat |
| mühərrikin həcmi 500 kubsantimetrdən çox olduqda | 175 manat + mühərrikin həcminin 500 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə 0,50 manat |

"

1.60.12. 190.5-ci maddəyə "minik avtomobillərinə" sözlərindən sonra", avtobuslara, motosikletlərə" sözləri əlavə edilsin.

1.61. aşağıdakı məzmunda 191.3-1-ci maddə əlavə edilsin:

"191.3-1. bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar Azərbaycan Respublikasının ərazisində istehsal və ya ölkəyə idxal edildikdə aksizlər həmin mallar üçün məcburi nişanın alındığı vaxt ödənilir.";

1.62. 192.1-ci maddənin birinci hissəsində "maddəsində" sözü "və 191.3-1-ci (idxal əməliyyatları istisna olmaqla) maddələrində" sözləri ilə, "verginin ödənilməsi üçün nəzərdə tutulmuş müddətlərdə" sözləri "hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

1.63. 193.1-ci maddəyə "vaxtı" sözündən sonra "(bu Məcəllənin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallara münasibətdə həmin mallar üçün məcburi nişanın alındığı vaxt)" sözləri əlavə edilsin;

1.64. 199-cu maddə üzrə:

1.64.1. 199.3-cü maddədə "102.2-ci maddəsində" sözləri "102.1-1-ci və 102.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.64.2. 199.9-cu maddədə "10" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin;

1.64.3. 199.16-cı maddədə "5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin;

1.64.4. aşağıdakı məzmunda 199.20-ci və 199.21-ci maddələr əlavə edilsin:

"199.20. Kredit təşkilatları verilmiş kredit müqabilində onların mülkiyyətinə keçən əmlaklara görə həmin əmlakların balansa götürüldüyü təqvim ilindən başlayaraq 2 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar.

199.21. Bu Məcəllənin 199.11-ci, 199.14-cü və 199.15-ci maddələri nəzərə alınmaqla, Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında mehmanxana (hotel) və sanatoriya fəaliyyətində istifadə edilən (bu Məcəllənin 16.3-cü maddəsinə müvafiq olaraq sahibkarlıq fəaliyyətinin müvəqqəti dayandırıldığı dövr istisna olmaqla) yerləşmə vasitəsi olan daşınmaz əmlaklara görə əmlak vergisi 2024-cü il yanvarın 1-dən 3il müddətinə 75 faiz azaldılır.";

1.65. 201.6-cı maddənin ikinci cümləsində, 208.7-ci və 217.4-cü maddələrdə"119-cu" sözləri "119.1-ci" sözləri ilə əvəz edilsin;

1.66. 207-ci maddə üzrə;

1.66.1. 207.2-ci maddədə "102.2-ci maddəsində" sözləri "102.1-1-ci və 102.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.66.2. 207.7-ci maddəyə "yanvarın 1-dən" sözlərindən sonra "7 il müddətinə" sözləri əlavə edilsin;

1.66.3. aşağıdakı məzmunda 207.12-ci maddə əlavə edilsin:

"207.12. Kredit təşkilatları verilmiş kredit müqabilində onların mülkiyyətinə keçən torpaqlara görə həmin torpaqların balansa götürüldüyü təqvim ilindən başlayaraq 2 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.";

1.67. 208-ci maddə üzrə:

1.67.1. 208.2-ci maddədə "mayın 15-dən gec olmayaraq hesablamaları" sözləri "hesabat ilindən sonrakı il yanvarın 31-dən gec olmayaraq bəyannaməni" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqi şəxs və ya qeyri-rezident hüquqi şəxsin daimi nümayəndəliyi ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən 30 gün müddətində torpaq vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.";

1.67.2. 208.5-ci maddənin birinci cümləsində "Torpaq" sözü "Fiziki şəxslər tərəfindən torpaq" sözləri ilə əvəz edilsin;

1.67.3. aşağıdakı məzmunda 208.5-1-ci və 208.5-2-ci maddələr əlavə edilsin:

"208.5-1. Müəssisələr tərəfindən torpaq vergisi üzrə cari vergi ödənişləri 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq bərabər məbləğlərdə ödənilir. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/2 hissəsini təşkil edir.

Əvvəlki hesabat ilində torpaq vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və torpaq vergisi ödəyicisi olan müəssisələr torpaq sahələrini əldə etdikdən (o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqdan) sonra bu maddədə müəyyən olunmuş müddətlərdən gec olmayaraq hər ödəniş üzrə həmin torpaq sahələrinə görə hesablanmalı olan illik torpaq vergisi məbləğinin 50 faizi miqdarında cari vergi ödənişlərini yerinə yetirirlər.

Torpaq vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Torpaq vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

208.5-2. Vergi ödəyicisinin hesabat dövründə torpaq sahəsinə mülkiyyət hüququ, habelə dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqda və ya bu hüquqa xitam verildikdə, həmin torpaq sahəsinə münasibətdə vergi məbləğinin hesablanması bu torpaq sahəsinin vergi ödəyicisinin mülkiyyətinə (icarə və ya digər əsaslarla istifadəsinə) keçdiyi aydan sonrakı aydan etibarən mülkiyyətində (icarə və ya digər əsaslarla istifadəsində) olduğu ayların sayına mütənasib olaraq aparılır.";

1.68. 218-ci maddə üzrə:

1.68.1. 218.2-ci maddəyə aşağıdakı məzmunda beşinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 158.2-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinin ƏDV qeydiyyatı ləğv edildikdə, o, öz fəaliyyətini bu Məcəllənin 218.1.1-ci maddəsinə uyğun və ya gəlir (mənfəət) vergisi ödəyicisi kimi davam etdirmək barədə müraciət edə bilər.";

1.68.2. aşağıdakı məzmunda 218.2-1-ci maddə əlavə edilsin:

"218.2-1. Bu Məcəllənin 218.1.2-ci maddəsində göstərilən şəxslərin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə və vergi ödəyicisi bu rejimdə azı 1 il ərzində fəaliyyət göstərmişdirsə, o, istənilən vaxt fəaliyyətini bu Məcəllənin 218.1.1-ci maddəsinə uyğun və ya gəlir (mənfəət) vergisi ödəyicisi kimi davam etdirmək barədə müraciət edə bilər.";

1.68.3. 218.4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"218.4.1. bu Məcəllənin 156-cı maddəsinin müddəaları nəzərə alınmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər;";

1.69. 218-1-ci maddə üzrə;

1.69.1. 218-1.1.1-ci maddədə "10" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin;

1.69.2. 218-1.1.3-cü maddə ləğv edilsin;

1.70. 220-ci maddə üzrə:

1.70.1. 220.5-ci maddənin birinci abzasından "və yük" sözləri çıxarılsın və həmin maddənin beşinci abzası ləğv edilsin;

1.70.2. 220.6-cı maddənin birinci abzasında "Yük və sərnişin" sözləri "Sərnişin" sözü ilə əvəz edilsin və həmin abzasdan "və yük" sözləri çıxarılsın;

1.70.3. 220.7-ci maddədən (hər iki halda) "və ya yükgötürmə qabiliyyəti" sözləri çıxarılsın;

1.71. 221-ci maddə üzrə:

1.71.1. aşağıdakı məzmunda 221.1-1-ci maddə əlavə edilsin:

"221.1-1. Sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxslər tərəfindən özlərinə görə ödədiyi rüblük məcburi dövlət sosial sığorta haqqı məbləğinin 25 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə vergi ödəyicisinin rüb ərzində hesablanmış sadələşdirilmiş vergi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır.";

1.71.2. 221.4-cü, 221.4.1-221.4.6-cı maddələrdən "və yük" sözləri çıxarılsın;

1.71.3. 221.4.7-ci maddə üzrə:

1.71.3.1. ikinci hissəyə "ödəyicisinin" sözündən sonra "(yük daşımalarını həyata keçirən vergi ödəyiciləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.71.3.2. dördüncü hissə beşinci hissə hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən "Fərqlənmə nişanı"nın alınması üçün verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi tələb edilmir və qeyd edilən öhdəliklər həmin şəxslər tərəfindən qanunla müəyyən edilmiş qaydada yerinə yetirilir.";

1.71.3.3. üçüncü və beşinci hissələrdən "və yük" sözləri çıxarılsın;

1.71.4. 221.4.9-cu maddənin birinci hissəsində "istehsal" sözü "sahibkarlıq" sözü ilə əvəz edilsin;

1.71.5. 221.8.6-cı maddəyə "edir" sözündən sonra "(Azərbaycan Respublikası Mərkəzi Bankının informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur)" sözləri və "keçirir" sözündən sonra "və ya ödəniş sənədini müraciətinə əlavə edir (Azərbaycan Respublikası Mərkəzi Bankının informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur)" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəalar**

2.1. Bu Qanunun 1.32.1-ci maddəsi üzrə vergiyə cəlb edilən mənfəət (gəlir) müəyyən edilərkən sənədlərlə rəsmiləşdirilən faktiki mənfəət (gəlir) 2025-ci il yanvarın 1-dək rentabellik səviyyəsi 50 faizdən çox olmayaraq müəyyən edilir. Bu müddətdən sonra vergi tutulan mənfəət (gəlir) sənədlərlə rəsmiləşdirilən faktiki gəlirlər və xərclər əsasında müəyyən edilir.

2.2. Bu Qanun qüvvəyə mindiyi tarixədək icarəçi tərəfindən çəkilmiş və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 115.6-1-ci maddəsinə əsasən kapitallaşdırılaraq amortizasiya edilən təmir xərclərinin qalıq məbləği bu Qanunun 1.35.2-ci maddəsinə uyğun olaraq amortizasiya olunur.

**Maddə 3. Qanunun qüvvəyə minməsi**

3.1. Bu Qanunun 1.4.2-ci və 1.5.2-ci (16.1.11-14-cü maddəyə münasibətdə) maddələri bu Qanunun 1.4.2-ci maddəsində nəzərdə tutulan qayda ilə eyni gündə qüvvəyə minir.

3.2. Bu Qanunun 1.13.5-ci maddəsi bu Qanunun 1.2.3.2-ci maddəsində nəzərdə tutulan qayda və şərtlərlə eyni gündə qüvvəyə minir.

3.3. Bu Qanunun 1.51.7-ci və 1.51.9-cu maddələri həmin maddələrdə nəzərdə tutulan müvafiq siyahılarla eyni gündə qüvvəyə minir.

3.4. Bu Qanunun 1.55-ci, 1.57-ci, 1.58-ci və 1.61-1.63-cü maddələri 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

3.5. Bu Qanunun 3.1-3.4-cü maddələri nəzərə alınmaqla, bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

---

# "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199; 2023, № 1, maddə 49, № 6, maddə 785, № 9, maddə 1293) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmana 1 nömrəli Əlavə - "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.8-ci bəndinə "rəisinin müavini" sözlərindən sonra ", Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini" sözləri əlavə edilsin;

1.2. həmin Fərmana 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.6.15-ci, 1.7.13-cü və 2.3.1-ci yarımbəndlərindən "Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 623) aşağıdakı məzmunda 20.4-cü maddə əlavə edilsin:

"20.4. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması qadağandır.".

**Maddə 2.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının fəaliyyətini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 76; 2012, № 11, maddə 1087; 2013, № 12, maddə 1515; 2021, № 11, maddə 1215) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissədə "texnika" sözü "texnologiya" sözü ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi" üzrə:

1.2.1. adında, 8-ci bənddə və 4.1-ci yarımbənddə ismin müvafiq hallarında "texnika" sözü ismin müvafiq hallarında "texnologiya" sözü ilə əvəz edilsin;

1.2.2. 1-ci bənddə (hər iki halda) "texnika" sözü "texnologiya" sözü ilə, "sahələrində ən dəyərli əsərləri (işləri, layihələri) qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksəksəviyyəli əsərlər yaratmağa təşviq etmək" sözləri "üzrə Dövlət Mükafatına təqdim etmək üçün əsərləri, işləri, layihələri (bundan sonra - əsərlər) seçmək" sözləri ilə əvəz edilsin;

1.2.3. 2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.";

1.2.4. 4.2-ci yarımbənddən "zəruri hallarda" sözləri çıxarılsın;

1.2.5. 4.5-ci yarımbənddə "zəruri" sözü "bu Əsasnamənin 8-ci bəndində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

1.2.6. 7-ci bənddə "texnika" sözü "texnologiya" sözü ilə, "30000 (otuz min)" sözləri "40000 (qırx min)" sözləri ilə, "5 (beş)" sözləri "3 (üç)" sözləri ilə, "komissiyanın qərarı" sözləri "Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" sözləri ilə əvəz edilsin;

1.2.7. 9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"9. Əsərlər Mükafata dövlət orqanları (qurumları), ali təhsil müəssisələri, elmi müəssisə və təşkilatlar, ictimai birliklər, yaradıcılıq ittifaqları və birlikləri (bundan sonra - qurum) tərəfindən təqdim olunur.";

1.2.8. 10-cu bənd ləğv edilsin;

1.2.9. 11-ci bənd üzrə:

1.2.9.1. birinci cümlədə "aprel" sözü "fevral" sözü ilə əvəz edilsin;

1.2.9.2. ikinci cümlədə "bir ay qalmış kütləvi informasiya vasitələrində" sözləri "iki ay qalmış mediada" sözləri ilə əvəz olunsun və həmin cümləyə "dərc olunur" sözlərindən sonra "və (və ya) yayımlanır" sözləri əlavə edilsin;

1.2.10. 12-ci bənd üzrə:

1.2.10.1. birinci abzasda "başqa" sözü "Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, digər" sözləri ilə əvəz edilsin;

1.2.10.2. ikinci abzasın birinci cümləsi çıxarılsın;

1.2.10.3. üçüncü abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Eyni əsər iki dəfədən artıq Mükafata təqdim edilə bilməz.";

1.2.11. 13-cü bənddə "pul vəsaiti ilə yanaşı," sözləri "Mükafatın pul hissəsi ilə yanaşı, təsviri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunan" sözləri ilə əvəz edilsin;

1.2.12. 14-cü bəndin birinci abzasından (ikinci və üçüncü hallarda) "Mükafatın" sözü çıxarılsın və ikinci abzasında "Mükafat" sözü "Mükafatın pul hissəsi" sözləri ilə əvəz edilsin;

1.2.13. 15-ci və 16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"15. Mükafatın laureatı vəfat etdikdə, habelə Mükafat şəxsə ölümündən sonra verildikdə, Mükafat onun ailəsinə təqdim olunur. Bu halda Mükafatın pul hissəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq vərəsəlik üzrə keçir.

16. Əsərlər Komissiyaya mətbəə üsulu ilə hazırlanmış formada (2 (iki) nüsxədə), rəqəmsal formatda, o cümlədən elektron informasiya daşıyıcılarında (CD, DVD) təqdim oluna bilər.";

1.2.14. 17-ci bənd üzrə:

1.2.14.1. birinci cümlədə "qurum, müəssisə və ya təşkilat" sözləri "qurum" sözü ilə əvəz edilsin;

1.2.14.2. ikinci cümlədən "və əsərlə bağlı digər zəruri məlumatlar" sözləri çıxarılsın;

1.2.15. 19-cu bənd üzrə:

1.2.15.1. birinci abzasın birinci cümləsində "qurum, müəssisə və ya təşkilatın" sözləri "qurumun" sözü ilə, ikinci cümləsində "təqdimat" sözü "vəsatət" sözü ilə əvəz edilsin;

1.2.15.2. ikinci abzasın ikinci cümləsində "qurum, müəssisə və ya təşkilatın" sözləri "qurumun" sözü ilə əvəz edilsin;

1.2.16. 20-ci bənd üzrə:

1.2.16.1. 20.1-ci yarımbənddə "əsər və namizədlərin irəli sürülməsinə dair keçirilmiş iclas və yığıncaqların, elmi və ya texniki şuraların protokolları, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin və ya yaradıcı ittifaqların rəyasət heyətlərinin qərarı" sözləri "əsərin Mükafata təqdim olunması barədə qurumun, habelə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin, elmi (elmi-texniki) şuraların qərarları, bu məqsədlə keçirilmiş iclas protokolları" sözləri ilə əvəz edilsin;

1.2.16.2. 20.2-ci yarımbənddə "iki" sözü "bir" sözü ilə əvəz edilsin;

1.2.16.3. 20.3-cü yarımbənddə "tədqiqatçılar" sözü "müəllif (müəlliflər)" sözləri ilə əvəz edilsin;

1.2.17. 21-ci bənd ləğv edilsin;

1.2.18. 24-cü və 25-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"24. Komissiya Mükafata təqdim olunan əsərin (əsərlərin) seçilməsi barədə əsaslandırılmış qərarını Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

25. Mükafat verilməsi barədə məlumat mediada dərc olunur və (və ya) yayımlanır.".

2. "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 fevral tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 94; 2023, № 7, maddə 979) adında və 1-ci hissəsində "texnika" sözü "texnologiya" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 may tarixli 892 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 416; 2012, № 11, maddə 1087) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatının diplomunun təsviri"nə əlavə olunmuş Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı diplomunun dördüncü səhifəsinin eskizində "texnika" sözü "texnologiya" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV ,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 15.1.15-4-cü, 16.1.11-13-cü (hər iki halda) maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində, 102.1.14.33-cü, 111.4-cü, 119.2-ci, 164.1.19-cu, 164.1.19-1-ci, 164.1.25-ci, 164.1.31-ci, 164.1.51-ci, 164.1.62-ci maddələrində və 175.13-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 164.1.51-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 13.2.82-ci maddəsinin ikinci cümləsində, 15.1.15-4-cü, 16.1.11-13-cü (birinci halda) maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 102.1.14.33-cü, 111.4-cü, 119.2-ci, 164.1.25-ci və 164.1.31-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 175.13-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 13.2.82-ci maddəsinin üçüncü cümləsində, 16.1.11-13-cü (ikinci halda) maddəsində və 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 164.1.19-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 164.1.19-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 164.1.62-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. fiziki şəxslərin binalara görə ödəməli olduğu əmlak vergisinin ödənilməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini;

2.2.2. həmin Məcəllənin 15.1.15-4-cü maddəsinə uyğun olaraq, vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi qaydasını;

2.2.3. həmin Məcəllənin 16.1.11-13-cü maddəsinə uyğun olaraq, taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısını;

2.2.4. həmin Məcəllənin 85.6.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydasını;

2.2.5. həmin Məcəllənin 102.1.14.33-cü maddəsinə uyğun olaraq, dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının məbləğini;

2.2.6. həmin Məcəllənin 111.4-cü maddəsinə uyğun olaraq, müflis elan olunmuş bankların vergitutma məqsədləri üçün xüsusi ehtiyatlarının yaradılması qaydasını;

2.2.7. həmin Məcəllənin 119.2-ci maddəsinə uyğun olaraq, nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydasını;

2.2.8. həmin Məcəllənin 164.1.25-ci maddəsinə uyğun olaraq, idxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin siyahısını;

2.2.9. həmin Məcəllənin 164.1.31-ci maddəsinə uyğun olaraq, idxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısını;

2.3. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun 3.4-cü maddəsi nəzərə alınmaqla tütün məmulatlarını Azərbaycan Respublikasına idxal edən və ya ölkə ərazisində istehsal edən bütün sifarişçilərin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat ("Təqib və İzləmə") Sisteminə qoşulmasını 2024-cü il iyulun 1-dək təmin etsin;

3.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469, № 7, maddə 941, № 8 (I kitab), maddələr 1138, 1177, 1179) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci (hər üç halda), 13.2.52-ci, 13.2.53-cü, 13.2.58-ci, 13.2.72-ci, 13.2.78-ci (hər üç halda), 13.2.79-cu, 13.2.80-ci (hər iki halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci, ikinci və üçüncü cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 14-2.2-ci, 15.1.15-ci (hər iki halda), 15.1.15-4-cü, 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-ci, 16.1.11-11-ci, 16.1.11-12-ci (hər iki halda), 16.1.11-13-cü (hər iki halda), 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci (hər üç halda) və ikinci cümlələrində, 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 22-1.3-cü (hər üç halda) maddəsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.3-2-ci, 23.1.15-1-ci, 24.1.4-1-ci maddələrində, 24.1.6-cı maddəsinin ikinci cümləsində, 24.1.7-1-ci, 26.2-1-ci (hər iki halda), 27.2-ci, 28.3-cü, 30.6.5-ci, 30.6.8-ci, 30.6.9-cu (hər iki halda), 30.6.14-cü, 30.6.15-ci, 30.6.16-cı (hər iki halda), 33.2-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (hər üç halda), 33.8-1-ci, 33.10-cu maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 35.1-ci, 35.5-ci (hər iki halda), 35.6-cı, 38.10-cu, 50-2.1-ci, 50-2.2-ci, 58.2-1-ci, 58.11-ci, 65.2.1.2-ci, 65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda), 67-1.3-cü, 67-2.4-cü, 71-1.3-cü, 71-1.3-1-ci, 71-2.2-ci, 71-3.2-ci, 76.1-1-ci (hər iki halda), 77.5-ci (hər üç halda), 77.6-cı (hər üç halda), 77.7.2-ci, 77.7.3-cü maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 85.6.3-cü maddəsində, 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində, 90.1-ci maddəsində, 90.3-cü maddəsinin birinci hissəsində, 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü maddələrində, 102.1.3.4-cü maddəsinin ikinci hissəsində, 102.1.4-cü, 102.1.14.15-ci, 102.1.14.33-cü, 102.1.17-ci, 102.1.21-ci, 102.1.28-ci, 102.1.29-cu (hər iki halda), 102.1.33-cü, 102.1.37-ci, 102.1.39-cu, 106.1.5-ci (hər iki halda), 106.1.9-cu, 106.1.10-cu, 106.1.12-ci, 106.1.13-cü, 106.1.18-ci (hər iki halda), 106.1.24-cü,106.1.28-ci, 106.1.31-ci, 106.1.32-ci, 108.4-cü, 108.5-ci, 111.4-cü, 119.2-ci, 122.3-cü, 128.3-cü, 130.1-1-ci, 144.1.4-cü, 150.3.3-cü maddələrində, 150.3-1-ci maddəsinin ikinci hissəsində, 150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 160.4-cü, 164.1.7-ci, 164.1.10-1-ci, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.19-cu, 164.1.19-1-ci, 164.1.20-ci, 164.1.25-ci, 164.1.28-ci (birinci və ikinci hallarda), 164.1.31-ci, 164.1.34-cü, 164.1.35-ci, 164.1.36-cı, 164.1.40-cı, 164.1.42-ci, 164.1.46-cı, 164.1.48-ci (hər iki halda), 164.1.49-cu, 164.1.51-ci, 164.1.52-ci, 164.1.53-cü, 164.1.54-cü, 164.1.56-cı, 164.1.56-1-ci, 164.1.60-cı, 164.1.61-ci (hər iki halda), 164.1.62-ci, 165.1.7-ci (hər iki halda), 165.1.9-cu, 165.3-cü maddələrində, 165.5-ci və 165.6-cı maddələrinin birinci cümlələrində, 175.9-cu maddəsində, 175.13-cü maddəsinin ikinci cümləsində, 194.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 199.4.1-1-ci, 199.7-ci, 199.8-ci, 199.16-cı (hər üç halda), 199.17-ci, 207.3-cü, 207.4-cü, 207.7-ci (hər üç halda), 207.10-cu, 218-1.1.7-ci maddələrində, 221.4.7-ci maddəsinin birinci cümləsində, 221.4.13-cü maddəsinin birinci cümləsində, 222.3-cü maddəsinin ikinci cümləsində, 222.5.9-cu, 222.7-ci, 224.4-cü, 224.11-ci maddələrində, 225.3-cü maddəsinin birinci cümləsində və 227.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

4.1.2. 1.2-ci bəndə "164.1.48-ci (birinci halda)," sözlərindən sonra ", 164.1.51-ci," sözləri əlavə edilsin;

4.1.3. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. həmin Məcəllənin 2.8-ci, 13.2.80-ci (birinci halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 15.1.15-ci (birinci halda), 15.1.15-4-cü, 16.1.8-ci (birinci halda), 16.1.11-13-cü (birinci halda) maddələrində, 22-1.1-ci maddəsinin ikinci cümləsində, 33.8-1-ci, 50-2.1-ci, 71-1.3-cü, 71-2.2-ci, 71-3.2-ci, 77.5-ci (birinci halda), 77.6-cı (birinci halda), 77.7.2-ci, 77.7.3-cü maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü, 102.1.14.33-cü, 102.1.37-ci, 106.1.18-ci (birinci halda), 106.1.31-ci, 108.4-cü, 108.5-ci, 111.4-cü, 119.2-ci, 164.1.7-ci, 164.1.25-ci, 164.1.31-ci, 164.1.34-cü, 164.1.46-cı, 164.1.60-cı, 165.1.9-cu, 175.9-cu maddələrində, 194.1-ci maddəsinin birinci cümləsində, 199.4.1-1-ci, 199.17-ci, 207.10-cu, 222.5.9-cu, 222.7-ci, 224.11-ci maddələrində və 227.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.1.4. 1.8-ci bənddən "83.9-cu,", "98.3-cü, 102.1.14.1-ci," və "109.3-cü," sözləri çıxarılsın;

4.1.5. 1.10-cu bəndə "164.1.54-cü" sözlərindən sonra "maddələrində, 175.13-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

4.1.6. 1.12-ci bənddə "13.2.82-ci maddəsinin ikinci" sözləri "13.2.82-ci maddəsinin üçüncü" sözləri ilə, "85.11-ci (hər iki halda)" sözləri "85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində" sözləri ilə əvəz olunsun və həmin bəndə "16.1.11-12-ci (ikinci halda)," sözlərindən sonra "16.1.11-13-cü (ikinci halda)," sözləri əlavə edilsin;

4.1.7. 1.23-cü bənddə "və 164.1.61-ci (birinci halda)" sözləri ", 164.1.61-ci (birinci halda) və 164.1.62-ci" sözləri ilə əvəz edilsin;

4.1.8. 1.33-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.33. həmin Məcəllənin 164.1.19-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;";

4.1.9. aşağıdakı məzmunda 1.33-1-ci bənd əlavə edilsin:

"1.33-1. həmin Məcəllənin 164.1.19-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;";

4.2. 2-ci hissənin on beşinci abzası ləğv edilsin.

5. "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2006-cı il 15 dekabr tarixli 196-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2006-cı il 27 dekabr tarixli 501 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1048; 2009, № 4, maddə 226; 2022, № 12, maddə 1437) 2-ci hissəsi ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359, № 4, maddə 474, № 6, maddə 781, № 7, maddələr 938, 959) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 10-cu bəndində "qeydiyyatı və qeydiyyatdan" sözləri "uçotu və uçotdan" sözləri ilə əvəz edilsin.

7. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 481 **QƏRAR** Bakı şəhəri, 26 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydalar"da dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli 2020 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 336; 2006, № 9, maddə 822; 2008, № 5, maddə 432; 2010, № 1, maddə 49; 2016, № 4, maddələr 771, 832; 2018, № 8, maddə 1817; 2021, № 9, maddə 1084; 2022, № 11, maddə 1344; 2023, № 8 (II kitab), maddə 1263) ilə təsdiq edilmiş "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na əsasən müəyyən edilir.".

2. 4.1-ci bənddə "dayandıra bilər" sözləri "dayandırır" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 482 **QƏRAR** Bakı şəhəri, 27 dekabr 2023-cü il

## "Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısı"nın təsdiq edilməsi haqqında

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 383 nömrəli, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 28 avqust tarixli 955 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyul tarixli 2201 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinet **qərara alır:**

"Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 dekabr tarixli 482 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

### Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların SİYAHISI

1. Azərbaycan Respublikasının Audiovizual Şurası.
2. "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi" publik hüquqi şəxs.
3. "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi" publik hüquqi şəxs.
4. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxs.
5. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs.
6. "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs.
7. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti.
8. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti.
9. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi.

# Xarici İşlər Nazirliyində 2023-cü ilin yekunlarına dair mətbuat konfransı keçirilib

Dekabrın 28-də Xarici İşlər Nazirliyində (XİN) 2023-cü ilin yekunlarına dair mətbuat konfransı keçirilib.




AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Xarici İşlər Nazirliyinin rəhbər heyəti, yerli və xarici media nümayəndələri iştirak ediblər.

Tədbirdə 2023-cü il ərzində xarici ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq, ölkəmizin iqtisadi, humanitar diplomatiya və beynəlxalq yardım fəaliyyətləri, postmünaqişə dövründə göstərilən diplomatik səylər, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər, xarici siyasətin informasiya təminatı ilə bağlı təşkil olunan tədbirlər, analitik iş və kadr məsələləri ilə bağlı geniş məlumat verilib.

Nazir Ceyhun Bayramov Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi 2023-cü ilin onun banisi olduğu, hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətimiz üçün uğurlu və zəngin keçdiyini bildirib.

İl ərzində qonşu dövlətlər, o cümlədən Asiya, Avropa, Amerika və Afrika ölkələri ilə təmasların intensivləşdiyi, bu istiqamətdə 44 ölkə ilə müxtəlif sahələr üzrə 161 sənədin imzalandığı, 25 dövlət ilə siyasi məsləhətləşmələrin keçirildiyi diqqətə çatdırılıb. 2023-cü il ərzində ölkəmizin Qoşulmama Hərəkatı, BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA), İqtisadi Əməkdaşlıq Təşkilatına uğurla sədrlik etdiyi, habelə digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirdiyi bildirilib. Növbəti il üzrə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) 29-cu Tərəflər Konfransına (COP29) evsahibliyi üçün Azərbaycanın namizədliyinin təsdiq olunduğu xüsusi qeyd edilib.

İqtisadi diplomatiya sahəsi üzrə cari ildə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində və tranzit daşımalarında oynadığı rolun artdığı bildirilib.

Humanitar diplomatiya istiqaməti üzrə mina təhdidi, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində işlərin görüldüyü diqqətə çatdırılıb.

Beynəlxalq inkişafa yardım sahəsində il ərzində qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ, Ukrayna ətrafındakı vəziyyətlə əlaqədar ölkəmiz tərəfindən göstərilən humanitar yardımlar, ölkəmizin beynəlxalq yardım proqramları barədə tədbir iştirakçıları ətraflı məlumatlandırılıb.

Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, sülh gündəliyinin irəlilədilməsi, habelə ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasının qarşısının alınması məqsədilə tərəfimizdən əməli addımların atıldığı vurğulanıb.

Təmasların dinamikasına baxmayaraq, Ermənistanın öhdəliklərindən boyun qaçırmaqla danışıqların imitasiyası ilə məşğul olmasının prosesdə irəliləyişə mane olduğu diqqətə çatdırılıb.

Bununla belə, sentyabrın 19-20-də aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində Ermənistanın ərazilərimizdəki qeyri-qanuni hərbi mövcudluğuna son qoyulması ilə bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində tarixi imkanın yarandığı bildirilib.

Nazir Ceyhun Bayramov 2023-cü ildə də Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı ərazilərimizdə törətdiyi cinayətlərə görə beynəlxalq hüquqi məsuliyyətinin təsbit edilməsi istiqamətində işlərin davam etdirildiyini deyib.

İl ərzində vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması, xarici ölkələrdə hərbi münaqişə, təbii fəlakət və digər böhran halları ilə əlaqədar təxliyəsi, habelə onlara göstərilən konsulluq xidmətlərinin inkişaf etdirilməsi istiqamətində əməli addımların atıldığı qeyd edilib.

"Heydər Əliyev İli" çərçivəsində Xarici İşlər Nazirliyi, o cümlədən 80-dən çox diplomatik nümayəndəliyimiz tərəfindən müxtəlif tədbirlərin keçirildiyi vurğulanıb.

İştirakçılara həmçinin Xarici İşlər Nazirliyinin kadr təminatı prosesinin təkmilləşdirilməsi məqsədilə görülən işlər və XİN-də həyata keçirilən müsabiqə prosesi barədə ətraflı məlumat verilib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Dekabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib. Partiyanın şəhər və rayon təşkilatlarının sədrləri iclasda onlayn formatda iştirak ediblər.






YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib.

YAP Mərkəzi Aparatının rəhbəri prezident seçkiləri ilə bağlı partiyanın İdarə Heyətinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq qarşıda duran vəzifələrə toxunaraq gündəlikdə duran məsələləri elan edib.

İclasda ilk olaraq seçkilərlə əlaqədar bir sıra məsələlərə baxılıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzv, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev isə MSK-nın iclaslarını müşahidə edəcək şəxs təyin edilib. Bundan əlavə, səsvermə gününədək dairə seçki komissiyalarında, səsvermə günü Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparacaq şəxslərin, eləcə də səsvermə günü məntəqə seçki komissiyalarında müşahidə aparacaq şəxslərin və dairə və məntəqə seçki komissiyaları üzrə məşvərətçi səs hüquqlu üzvlərin təyin edilməsi barədə qərar qəbul olunub.

Sonra iclasda "Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icrasının yekunlarına dair hesabat müzakirəyə çıxarılıb. Bildirilib ki, "Heydər Əliyev İli" ilə əlaqədar Tədbirlər Planı olduqca zəngin, rəngarəng və çoxşaxəli olub, nəzərdə tutulan bütün tədbirlərin icrası təmin edilib. İdarə Heyətinin üzvləri müzakirələrdən sonra hesabatı təsdiqləyiblər.

Daha sonra iclasda YAP Mərkəzi Aparatının və yerli təşkilatlarının 2024-cü il üçün gəlir-xərc smetaları təsdiq olunub. Eyni zamanda partiyanın Qobustan, Lerik, Yardımlı, Xızı, Daşkəsən, Xocalı, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Xocavənd təşkilatlarının aparatlarına 2024-cü il üçün təsdiq edilmiş gəlir-xərc smetaları üzrə yaranmış mənfi fərqin qarşılanması məqsədilə dotasiyaların ayrılması və Yeni Azərbaycan Partiyasının cari fəaliyyəti ilə bağlı digər məsələlərə də baxılıb. Müzakirələr zamanı YAP Sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Elmar Qasımov, Elşad Mirbəşiroğlu və Mübariz Qurbanlı məsələlərə münasibət bildirib, müvafiq qərarlar qəbul olunub.

İclasa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın İdarə Heyətinin üzvlərini qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

# Mərkəzi Seçki Komissiyasının sədri ATƏT/DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri ilə görüşüb

Dekabrın 28-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki müşahidə missiyasının rəhbəri İoğan Mörfi ilə görüşüb.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müşahidə missiyasının rəhbərini və üzvlərini salamlayan MSK sədri görüşdən məmnunluğunu bildirib.

MSK-dakı səmimi qəbula və sıx iş qrafikinə rəğmən görüş üçün vaxt ayırdığına görə sədr Məzahir Pənahova minnətdarlığını ifadə edən İoğan Mörfi seçki müşahidə missiyasının strukturu və tərkibi barədə məlumat verib. Missiya üzvləri qarşıdan gələn seçkilərə hazırlıqların gedişi ilə maraqlanıb, MSK sədrindən həyata keçirilən və planlaşdırılan layihələr barədə onları məlumatlandırmasını xahiş ediblər.

Sədr M.Pənahov rəhbərlik etdiyi qurumun beynəlxalq təşkilatlarla əlaqələrə mühüm əhəmiyyət verdiyini, əməkdaşlığa hər zaman açıq olduğunu və bütün proseslərin geniş aşkarlıq şəraitində reallaşdırıldığını vurğulayıb. O, Azərbaycanın seçki sistemi, seçki qanunvericiliyi, seçki komissiyalarının fəaliyyət prinsipləri və sözügedən seçkilərlə əlaqədar həyata keçirilmiş, eləcə də nəzərdə tutulan müxtəlif səpkili layihələrdən danışıb. Seçki hazırlıqlarının ardıcıl və sistemli şəkildə davam etdiyini deyən sədr bildirib ki, növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində indiyədək 5-i siyasi partiyalar, 10-u özü tərəfindən irəli sürülən, ümumilikdə 15 nəfərin namizədliyinin irəli sürülməsi MSK-nın müvafiq qərarları ilə təsdiq olunub.

O cümlədən diqqətə çatdırıb ki, Seçki Məcəlləsinin tələblərinə əsasən hazırda təqdim olunan imza vərəqələri və digər seçki sənədləri peşəkar işçi qrupu tərəfindən yoxlanılır. MSK sədri seçki müşahidə missiyasının üzvlərini istədikləri vaxt həm imza vərəqələrinin yoxlanılması, həm də seçkilərlə bağlı hər hansı digər prosedurlarda yaxından iştiraka dəvət edib. Bildirib ki, bütün mərhələlər kimi, tam şəffaf həyata keçirilən və ictimaiyyətə açıq olan bu proseslərin müşahidə edilməsi üçün də geniş imkanlar yaradılıb. Digər maraqlı şəxslər kimi, onlar da hər zaman işlərin gedişatını birbaşa müşahidə edə bilərlər.

Görüş çərçivəsində həmçinin qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Fərqlənən dövlət qurumları və şirkətlərin mükafatlandırma mərasimi keçirilib

Azərbaycanın dilbər guşələrindən olan Laçın şəhəri işğalçılardan azad edildikdən sonra burada çox qısa zamanda böyük tikinti-quruculuq işləri həyata keçirildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun gücü sayəsində azadlığına qovuşan Laçın indi laçın çağlarını yaşayır desək, yanılmarıq. Qısa zamanda yenidən qurulan Laçın şəhəri indi göz oxşayır.

AZƏRTAC xəbər verir ki, Laçında aparılan tikinti-quruculuq işlərində xidmətləri olan dövlət qurumları və şirkətlərin təntənəli mükafatlandırma mərasimi olub.

"Lacınema" Kino Mərkəzində keçirilən mərasimdə Prezidentin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC, "Laçın Abadlıq Xidməti" ASC, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İB, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və bir çox şirkətlərin rəsmiləri iştirak ediblər.

Prezidentin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov çıxış edərək iştirakçılara və laçınlılara bayram təbriklərini çatdırıb. Çıxışlardan sonra Laçının yenidən qurulmasındakı fəaliyyətlərinə görə "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azərsu" ASC, "Azəriqaz" İB, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və "Azəriinşaat" şirkətləri mükafatlandırılıb.

Həmçinin şəhərin yenidən qurulmasında, abadlaşdırılmasında və məşğulluğun təmin olunmasında xidmətlərinə görə "Laçın Abadlıq Xidməti" ASC, "Dam Plus", "Komiforest", "Nakhish", "EL-EL", "ARTE" şirkətləri, mədəni-kütləvi tədbirlərin təşkilində əvəzsiz xidmətlərə görə "Bakı Abadlıq Xidməti" MMC, yenidənqurma işlərinin və tədbirlərin işıqlandırılmasında göstərilən dəstəyə və xidmətlərə görə "AbsheronGroupProduction" təltif edilib.

Tanınmış fotoqraf Rza Deqqəti Azərbaycan, o cümlədən Laçın həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətlərinə görə, Əməkdar mədəniyyət işçisi, rəssam Elçin Orucov isə Laçın şəhərində mədəni həyatın dirçəlməsindəki xidmətlərinə görə mükafata layiq görülüblər.

Mükafatçılara müəllifi Tural Rzaquliyev olan "Laçın qartalı" heykəli təqdim edilib.

Mərasim zamanı tanınmış müğənnilərin ifasında mahnılar səsləndirilib.



# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR dirçəliş yolundadır





# İlham Əliyevin quruculuq Zəfəri

## Qarabağ və Şərqi Zəngəzur geniş abadlıq məkanına çevrilir

**Son günlərini yaşadığımız 2023-cü il Azərbaycan xalqı üçün başdan-başa qələbələrlə dolu qürur günləri ilə tarixə həkk olundu.**

Prezident İlham Əliyevin siyasi qətiyyəti, şəxsi əzmi və səyləri sayəsində ərazi bütövlüyümüzün bərpa olunduğu, müqəddəs bayrağımızın Xankəndidə dalğalandırıldığı 2023-cü il həm də Qarabağ və Şərqi Zəngəzurda ard-arda həyata keçirilən quruculuq zəfərləri ilə yadda qaldı.

Prezident İlham Əliyevin ilin sonunda Qarabağa səfər edərək dörd gün ərzində möhtəşəm açılışlar etməsi, yenilərinin təməllərini qoyması da il ərzində həyata keçirilən möhtəşəm quruculuq işlərinin təntənəsini bir daha gözlər önünə sərdi.

Bu həm də onu göstərdi ki, bu gün əzəli sahibləri Qarabağ və Şərqi Zəngəzura qayıdaraq burada möcüzələr yaradırlar.

Dekabrın 21-də Xankəndi stadionundakı çıxışında Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi: "Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır".

### Xarabalıqlardan quruculuq meydanına

Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura qayıdışı milli çağırışımız elan edib və dövlət başçısının şəxsi nəzarəti altında ötən üç il müddətində bu ərazilərdə dünyada bərabərinə rastlanmayan işlər gerçəkləşdirilib.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Hazırda bu proqram böyük müvəffəqiyyətlə icra olunur və həmin ərazilərdə vüsət alan genişmiqyaslı quruculuq işlərini dövlətimiz öz hesabına həyata keçirir.

Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən üç il müddətində dövlət büdcəmizin əsas prioritetlərindən biri də milli hədəfimiz olan Böyük qayıdışa nail olunması istiqamətindədir.

2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat, gələn ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

Xarabalıqlardan quruculuq meydanına çevrilən Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, "ağıllı kənd və şəhərlər" salınır. Artıq Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan hava limanları tikilərək istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının isə sürətli tikintisi həyata keçirilir.

Dövlətimiz tərəfindən 10 min kvadratkilometr ərazidə minatəmizləmə fəaliyyəti ilə paralel olaraq geniş tikinti-quruculuq işlərinin aparılmasının nəticəsidir ki, artıq qayıdış karvanları ilə bu torpaqlara öz sahibləri dönərək xoşbəxt yaşamalarına başlayıblar.

### Sürətli tikinti, möhtəşəm qayıdış

Mart ayında Tərtərin Talış kəndinə yollanaraq Novruz tonqalını məhz Qarabağda alovlandıran qalib lider İlham Əliyev bununla yurdlarımızda yeni ocaqların qurulacağının, illərdir buz kəsmiş torpaqlarımızın hamısına qaynar həyatın qayıdacağının xoş xəbərini çatdırdı.

May ayının 2-dən etibarən 10 gün müddətində qurucu lider İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birgə sözün əsl mənasında Qarabağ və Şərqi Zəngəzuru qarış-qarış gəzərək, bu ərazilərimizdə gerçəkləşdirilən işlərlə tanış olması həm də aparılan nəhəng quruculuq işlərini bir daha gözlər önünə sərdi. Düz 10 gün ərzində dövlət başçısı əzəli yurdlarımızda - Ağdamda, Qubadlıda, Zəngilanda, Xocavənddə, Füzulidə, Hadrutda, Şuşada xeyli sosial obyektlərin açılışlarını etdi, yenilərinin bünövrələrini qoydu.

Ümumiyyətlə, Prezident İlham Əliyev xoş ənənəsinə sadiq qalaraq bu il ərzində dəfələrlə Qarabağ və Şərqi Zəngəzura səfərlər etdi, quruculuq işləri ilə yaxından tanış oldu, təməllər atdı, eyni zamanda onilliklərin həsrətindən sonra yurdlarına dönən insanlara yeni evlərinin açarlarını təqdim etdi, onların qayıdış sevincini bölüşdü, əziz qonaqları oldu.

Mayın 28-də Prezident Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı bir daha vurğuladı ki, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Aparılan sürətli quruculuq və bərpa işləri sayəsində bu il ərzində Füzuli şəhərinin və Zabux kəndinin sakinləri də öz yurdlarına qovuşublar.

### İlə möhtəşəm Qarabağ yekunu

2023-cü ilin sonunda da Prezident İlham Əliyev yolunu işğaldan azad edilmiş ərazilərdən saldı, doğum günü ərəfəsində Xocalı, Xocavənd, Şuşa, Ağdam rayonlarında və Xankəndi şəhərində oldu. Dövlət başçısı bu yerlərdə görülən işlərlə maraqlandı.

Dekabrın 24-də dövlət başçısının erməni vəhşilərinin yerlə yeksan etdiyi, "ruhlar şəhəri" adlandırılan Qarabağın qədim şəhəri Ağdamda bir sıra obyektlərin açılışlarını etməsi yeni bünövrələrin qoyulması ilə diqqət çəkdi, ağdamlıların da yurdlarına qovuşacaqları xoşbəxt günlərə az qaldığının müjdəsi verildi.

Ağdam rayonuna səfəri çərçivəsində "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının, uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolunun açılışlarını edən və Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasiminə qatılan Prezident İlham Əliyev Ağdam şəhərində dördüncü, beşinci yaşayış komplekslərinin, Qiyaslı, Salahlı, Kəngərli və Baş Qərvənd kəndlərinin təməllərini qoydu. O cümlədən "İmarət" Kompleksində aparılan təmir-bərpa, Ağdam şəhərinin daxili yollarının tikinti işləri ilə tanış oldu.

Dekabrın 21-də keçirilən tarixi Qarabağ və MOİK oyunundan əvvəl Xankəndi stadionunda çıxış edən Müzəffər Lider İlham Əliyev bildirdi ki, bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atılmışdır.

Birbaşa Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan quruculuq və bərpa işləri ilə bağlı kiçik nümunələrini gətirdiyimiz bu möhtəşəm işlər göstərir ki, Böyük qayıdış proqramı azad olunmuş bütün ərazilərdə müvəffəqiyyətlə həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzur cənnətməkana çevrilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Laçın şəhərində artıq 1555 sakin yaşayır

**Şanlı Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsinin ardından işğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdışın təmin olunması ölkəmizin əsas prioritetlərindəndir.**





Qısa müddət keçməsinə baxmayaraq, bu torpaqlarımızda müasir infrastruktur qurulur, "ağıllı kənd və şəhərlər" salınır, hava limanları tikilir, tarixi, dini və mədəni abidələrin bərpası həyata keçirilir. Məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə reallaşır.

Dövlətimizin mühüm hədəflərindən biri olan keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması mərhələli şəkildə həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Dekabrın 28-də daha 80 nəfər uzun illərdir həsrətini çəkdikləri yudlarına qovuşub. Bu mərhələdə 25 ailə Laçın şəhərinə köçürülüb. Şəhərdə artıq 1555 sakin yaşayır.

### Laçınlılar Yeni ili yurdlarında qeyd edəcəklər

El-obalarına dönən keçmiş məcburi köçkünlərin sevinclərinin həddi-hüdudu yoxdur. Təəssüratlarını bölüşən laçınlılar daim dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Keçmiş məcburi köçkün Fuad Ağalarbəyli bildirir ki, Laçından 16 yaşında didərgin salınıb. İndi isə 31 il sonra doğma yurduna qayıtmağın sevincini yaşayır.

Yeni ili öz doğma obasında qeyd edəcəyi üçün sevincinin hədsiz olduğunu söyləyir Laçın sakini Seyidkazım Cabbarov. O deyir: "Laçına nə vaxtsa qayıdacağıma həmişə ümid etmişəm. Ümidlərim doğruldu. Növbəti ilin də ölkəmizə düşərli olacağına inanıram".

Dədə-baba yurduna qayıtmağın xoşbəxtliyini yaşayan Kifayət İsmayılqızı söyləyir ki, ilk olaraq qohumlarının, əzizlərinin məzarlarını ziyarət edəcək. Uzun illərdir bu günün həsrəti ilə yaşayan keçmiş məcburi köçkün Laçın şəhərinin yenidən inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

### 4691 nəfər elinə, obasına qovuşub

Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən Böyük qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən dövlət proqramının əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizdə yeni infrasrukturun qurulması, evlərin tikilməsi, o cümlədən yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində aparılan sürətli işlər onu deməyə əsas verir ki, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın yurdlarına qovuşması uğurla davam etdiriləcək.

Proqram çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönüblər. Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 380 ailə (1392 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1186 ailə - 4691 nəfər elinə, obasına qovuşub.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# 11 ayda 16,5 faiz artım

## Kapital qoyuluşunun əsas istiqaməti qeyri-neft-qaz sektorudur

Hazırda dünya iqtisadiyyatı özünün çətin dövrünü yaşayır. Bu, liberal iqtisadiyyatın təbiətindən doğan qanunlarla bağlı deyil. Yəni gedən proseslər təbii deyil, qlobal güclərin arasında yaranan siyasi çəkişmələrdən qaynaqlanır.

Rusiya-Ukrayna, HƏMAS-İsrail müharibəsi, indi də Qırmızı dənizdə yəmənli husilərlə ABŞ-nin başını çəkdiyi koalisiya arasında başlana biləcək savaş bu gərginliyi daha da artırıb. Qlobal iqtisadiyyatda məhsul istehsalının, sərmayə qoyuluşunun artması və ticarətin genişlənməsi üçün isə ən başlıca şərt sabitlikdir ki, indiki vəziyyətdə bunu söyləmək olmaz.

Məlumdur ki, iqtisadi inkişafın təmin olunmasında investisiya qoyuluşu önəmli rol oynayır. Ümumiyyətlə, sərmayə qoyuluşu iqtisadi dinamikanın yüksəkliyini təmin edən təməl şərtlərdəndir. Dünyada isə qeyd etdiyimiz siyasi gərginlik və hərbi toqquşmalar üzündən kapital qoyuluşu kəskin şəkildə azalıb. Bu da həm iqtisadi inkişafa, həm də qlobal maliyyə bazarlarına mənfi təsir göstərir. Xüsusilə bank sektoru gəlirlərinin çox hissəsini investisiya qoymaqla əldə etdiyindən dünyanın nəhəng bankları yardım üçün mənsub olduqları hökumətlərə ağız açmalı olurlar.

Elə Azərbaycan hökuməti də bu çətin vəziyyətdən çıxış yolu kimi ölkə iqtisadiyyatının daxili mənbələr hesabına maliyyələşməsinə üstünlük verir. Bu üzdən milli iqtisadiyyatın kapitallaşmasındakı dinamika yüksəkdir. Xüsusilə kapital qoyuluşunun qeyri-neft-qaz sektoruna və istehsal sahiblərinə yönəldilməsi təqdirəlayiqdir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-noyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15 milyard 725,9 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,5 faiz çox vəsait yönləndirilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 24,7, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,5 faiz artmışdır. Ümumi sərmayənin 9 milyard 422,3 milyon manatı və ya 59,9 faizi məhsul istehsalı, 5 milyard 498,6 milyon manatı (35 faizi) xidmət sahələrinin payına düşmüşdür. Yatırılan sərmayənin 805 milyon manatı (5,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Hesabat dövründə yatırılan ümumi sərmayənin 55,8 faizi dövlət, 44,2 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 72,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Daxili mənbələrdən əsas kapitala yönləndirilmiş vəsaitlərin dəyəri isə ümumi sərmayənin 77,6 faizini təşkil etmişdir.

Əsas kapitala yönləndirilmiş vəsaitin təsnifatı belədir - yatırılan kapitalda müəssisə və təşkilatların öz vəsaitləri 7 milyard 252,9 milyon, büdcə vəsaitləri 6 milyard 367,3 milyon, əhalinin şəxsi vəsaitləri 988,5 milyon manat, bank kreditləri 387,8 milyon, sair vəsaitlər 729,4 milyon manat. Hesabat dövründə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 40,4 faizindən sənaye, 26,5 faizindən nəqliyyat və anbar təsərrüfatı, 21,2 faizindən tikinti sahələrində istifadə olunmuşdur.

11 ayda ölkənin neft-qaz sektorunun inkişafına 5 milyard 497,2 milyon manat vəsait yönəldilmişdir. Bununla paralel olaraq qeyri-neft-qaz sektorunun inkişafında 10 milyard 228,7 milyon manatdan istifadə olunmuşdur.

Ölkəmizə xarici sərmayə qoyuluşu davam edir. Ötən 11 ayda ölkə iqtisadiyyatının müxtəlif sahələrinə xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən yatırılan investisiyaların həcmi 3 milyard 308,8 milyon manat olmuşdur. Həmin vəsaitin 94 faizi Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Yaponiya, Fransa, İsveçrə, Rusiya, Norveç və İran sərmayədarlarına məxsus olmuşdur. Yeri gəlmişkən, xatırladaq ki, 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına 100,7 milyard dollar xarici investisiya yatırılmışdır. Həmin dövrdə ölkə üzrə yatırılan ümumi səmayənin miqdarı isə 310,4 milyard dollar olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

## "Heydər Əliyev. Prezidentlik xronikası: 1993-2003" kitabı təqdim edilib

### Xronika AZƏRTAC-ın "Azərbaycan" qəzetində çap edilmiş materiallar əsasında tərtib olunub





Dekabrın 28-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "Heydər Əliyev. Prezidentlik xronikası: 1993-2003" kitabının təqdimatı olub.





AZƏRTAC xəbər verir ki, kitab Ümummilli Lider Heydər Əliyevin müstəqillik tariximizin ağır və məsuliyyətli bir dövrünü - 1993-2003-cü illəri əhatə edən siyasi fəaliyyət salnaməsidir.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli başa çatmaqda olan "Heydər Əliyev İli" çərçivəsində təqdimatı keçirilən kitabın əhəmiyyətinə toxunub. O, gərgin əməyin nəticəsi olaraq ərsəyə gələn bu nəşrdə respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyevin ikinci siyasi hakimiyyət dövrünün tam salnaməsinin əks olunduğunu vurğulayıb.

"Kitabda Heydər Əliyevin fəaliyyətinin bütün istiqamətləri günbəgün baş verən hadisələrin dəqiq ifadə olunması ilə işıqlandırılır. Nəşrdə dahi lider Heydər Əliyevə aid arxiv sənədləri, dövri mətbuat materialları, eləcə də nadir fotoşəkillərdən yüksək peşəkarlıqla istifadə olunub", - deyə akademik İsa Həbibbəyli bildirib.

AMEA-da "Heydər Əliyev İli" çərçivəsində görülmüş işlərə dair statistik məlumatları diqqətə çatdıran İsa Həbibbəyli Elmlər Akademiyasında Ulu Öndərin zəngin irsinin bütün dünyada tanıdılması istiqamətində əhəmiyyətli işlərin görüldüyünü, elmi-publisistik nəşrlərlə yanaşı, sistemli və fundamental tədqiqatların, yüksək tələblərə cavab verən nəzəri xarakterli əsərlərin nəşr olunduğunu deyib. O, sözügedən nəşrlərin hər birinin Ulu Öndərin fəaliyyətinin önəmli məqamlarını əhatə edən akademik səviyyədə monoqrafik tədqiqatlar olmaqla əvvəlki dövrlərdə işıq üzü görmüş kitablardan fərqləndiyini bildirib. Alim il ərzində AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrində, o cümlədən akademiyanın tabeliyində olan və əhatə etdiyi digər müəssisələrdə Ulu Öndərin çoxcəhətli fəaliyyətinin müxtəlif məqamlarına həsr olunmuş 46 kitab və monoqrafiyanın nəşr olunduğunu qeyd edib.

O, həmçinin akademiyada görkəmli dövlət xadiminə həsr olunmuş 60-dan çox yerli və beynəlxalq konfransın təşkil edildiyini, eləcə də dekabrın 21-də AMEA Rəyasət Heyətinin "Heydər Əliyev İli"nin yekunlarına həsr olunan genişləndirilmiş iclasının keçirildiyini xatırladıb.

Kitabın ideya müəllifi və tərtibçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Aynur Bəşirli nəşrin ərsəyə gəlməsindən və hazırlanmasından söz açıb, Ulu Öndərlə bağlı görüşlərindən, səmimi söhbətlərindən bəhs edib. Bildirib ki, kitabın 1993-1997-ci illəri əhatə edən birinci hissəsi "Prezident. Xronika. 1993-1997" 1998-ci ildə Ulu Öndərin xeyir-duası ilə işıq üzü görüb: "Onun təqdimatı 1998-ci ildə Ulu Öndərin iştirakı ilə keçirilən Azərbaycan Müəllimlərinin Qurultayında oldu. 1999-cu ildə Gülhanə Tibb Akademiyasında müalicəsi başa çatdıqdan sonra Prezident Heydər Əliyev "Prezident. Xronika. 1993-1997" kitabını akademiyaya hədiyyə etdi və onu həyatının bir hissəsi barədə kitab adlandırdı".

A.Bəşirli "Heydər Əliyev. Prezidentlik xronikası: 1993-2003" kitabını 11 il əvvəl tamamlasa da, onun çapının yalnız 2023-cü ildə gerçəkləşdiyini qeyd edib. Bildirib ki, kitaba "Ön söz"ü isə məhz 2023-cü il sentyabrın 20-də, dünyanın gözünün Azərbaycana dikildiyi gün, düşmənin ağ bayraq qaldırdığı tarixi gündə qələmə alıb. Müxbirlik fəaliyyətindən, Ulu Öndərlə bağlı səfərlərindən və görüşlərindən bəhs edən A.Bəşirli kitabın yaranması ilə bağlı dahi liderlə olan səmimi söhbətini xatırlayıb, xronikanın AZƏRTAC-ın "Azərbaycan" qəzetində çap edilmiş materialları əsasında tərtib olunduğunu qeyd edib.

Nəşrin ərsəyə gəlməsində əməyi, zəhməti olanlara minnətdarlığını bildirən Aynur Bəşirli diqqətə çatdırıb ki, kitabın elmi redaktoru akademik Yaqub Mahmudov, texniki redaktoru riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayeva, korrektoru dosent Şəhla Tahirqızıdır. Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin elan etdiyi və "Heydər Əliyev İli"nə həsr olunan qrant müsabiqəsinin qalibi olmuş Azərbaycan Tarixçiləri İctimai Birliyinin "Xronika.1993-2003" kitab-albomunun nəşri" layihəsi çərçivəsində hazırlanaraq "GL" şirkətinin maliyyə yardımı ilə çap olunub.

Təqdimat mərasimində akademik Yaqub Mahmudov, diplomat, tarix elmləri doktoru Həsən Həsənov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri Tahir Kərimov, Xalq yazıçısı Elmira Axundova, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sabiq fotoqrafı Rafiq Bağırov və digər çıxış edənlər kitabla bağlı fikirlərini bölüşüb, onu "Heydər Əliyev İli"nə böyük töhfə adlandırıblar. Qeyd edilib ki, Azərbaycan dövlətinin çətin və mübarizə dolu illərindən, dahi şəxsiyyət Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövrdən, Ulu Öndərin siyasi fəaliyyətindən bəhs edən kitab gələcək nəsillər, tədqiqatçılar üçün qiymətli salnamədir.

Çıxış edənlər dahi şəxsiyyət Heydər Əliyevin ölkəmiz, xalqımız qarşısında tarixi xidmətlərindən, jurnalistlərlə görüşlərindən, xarici ölkələrə səfərlərindən söz açıb, Ümummilli Liderin irsinin öyrənilməsinin vacibliyini vurğulayıb, Ulu Öndərlə bağlı xatirələrini bölüşüblər.

## AZƏRTAC-ın təşəbbüsü ilə Romada Ümummilli Liderin 100 illiyinə həsr olunan fotosərgi açılıb

AZƏRTAC-ın təşəbbüsü ilə ölkəmizin İtaliyadakı səfirliyinin tabeliyindəki Mədəniyyət Mərkəzində görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə fotosərgi açılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İtaliyadakı və Müqəddəs Taxt-Tacdakı səfirliklərinin dəstəyi ilə keçirilən sərginin açılış mərasimində bu ölkədə yaşayan, işləyən və təhsil alan soydaşlarımız iştirak ediblər.

Mərasimdə çıxış edən Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizin müstəqilliyinin bərpa olunması, qurulması və inkişafında göstərdiyi əvəzsiz xidmətlərdən danışıb. Səfir hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-İtaliya münasibətlərinin əsasının məhz Ulu Öndər tərəfindən qoyulduğunu qeyd edib.

Rəşad Aslanov Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi 1997-ci ildə İtaliyaya ilk dəfə rəsmi səfər etdiyini xatırladıb. Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə - 1972-ci ildə isə Bakı və Neapol şəhərlərinin qardaşlaşmış şəhərlər elan edildiyi bildirilib. Qeyd olunub ki, Azərbaycanın paytaxtı Bakıda Neapol küçəsi var, eyni ilə Neapolun küçələrindən biri Bakının adını daşıyır.

Diplomat vurğulayıb ki, AZƏRTAC-ın təşəbbüsü ilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən sərgidə Ümummilli Liderin İtaliyaya səfərinə, Roma və Neapol şəhərlərində keçirdiyi müxtəlif görüşlərə dair şəkillər də nümayiş etdirilir. Ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov isə Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyətindən bəhs edib. Qeyd olunub ki, Ulu Öndərin daxili və xarici siyasəti bugünkü müasir, güclü və müstəqil Azərbaycan dövlətinin qurulmasını şərtləndirib. Diplomat Ümummilli Liderin müstəqil Azərbaycan Respublikasının ilk Prezidenti kimi 1997-ci ildə İtaliyaya səfəri çərçivəsində Vatikanda da mühüm görüşlər keçirdiyini, Papa II İohann Pavelin isə Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycana səfər etdiyini xatırladıb.

Sərgidə AZƏRTAC-ın fotoxronikasında saxlanılan və Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə, eləcə də İtaliyaya səfəri zamanı çəkilmiş fotoşəkillər nümayiş olunub.

## "Ürəkdən-ürəyə" adlı konsert keçirilib

### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konsertdə iştirak edib





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə dekabrın 28-də SƏNƏT Uşaq Musiqi və İncəsənət Mərkəzində pianoçu Ruslan Ağababayevin "Ürəkdən-ürəyə" adlı konserti keçirilib.









AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konsertdə iştirak edib. ABŞ-da tanınmış pianoçu və bəstəkar olan Ruslan Ağababayev konsertdə müxtəlif kompozisiyalarını səsləndirib. Əməkdar artistlər Sevda Ələkbərzadə, Ceyla Seyidova, Eyyub Əliyev konsertin qonaq ifaçıları olublar.

Ruslan Ağababayev Bakıda anadan olub, Bakı Musiqi Akademiyasının məzunudur. 1997-ci ildə o, ABŞ-yə gedərək təhsilini orada davam etdirib, caz və kompozisiya üzrə Ron Karter, Bryus Bars, Devid Loub və Devid Del Tredicdən dərs alıb.

Tədbir çərçivəsində gənc rəssamların sərgisi də təşkil olunub. Sərgidə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının üzvləri, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin tələbələri və uşaq evinin sakinlərinin əsərləri nümayiş olunub. Eyni zamanda vətənpərvərlik mövzusu ilə yanaşı, müxtəlif janrlarda çəkilmiş 17 rəsm əsəri və əl işləri təqdim edilib.

Rəssamların əsərlərində Qarabağ, Azərbaycanın gözoxşayan abidələri boyalarla özünəməxsus formada izləyicilərə çatdırılıb.

## Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib

2023-cü ilin bitməsinə sayılı günlər qalmış Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik keçirib.









AZƏRTAC xəbər verir ki, "Gülüstan" sarayında təşkil edilən bayram şənliyinə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də şəhid övladları dəvət alıblar.

Uşaqlar şənliyin keçirildiyi saraya onlar üçün ayrılmış avtobuslarla gəliblər.

Bayram ovqatı ilə bəzədilən şənlik məkanında balacaları nağıl qəhrəmanları qarşılayıblar. "Face Art" vasitəsilə uşaqlar özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı qazanıblar.

Bayram şənliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

Uşaqlar üçün təqdim edilən Yeni il səhnəciyi dostluq, xeyirxahlıq, qarşılıqlı kömək və xeyrin şərə qalib gəlməsi üzərində qurulub. Tamaşada müxtəlif nağıl qəhrəmanları ilə yanaşı, qarşıdan gələn 2024-cü ilin rəmzi olan Əjdaha obrazı da canlandırılıb. Yeni il ovqatlı sarayda rəqslərə qoşulan, mahnılar ifa edən uşaqlar bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində qeyd ediblər.

Musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə təqdim olunub. Xüsusi qayğıya ehtiyacı olan uşaqların qarşısında Xalq artistləri Aygün Kazımova, Zülfiyyə Xanbabayeva, Əməkdar artist Manana və digər incəsənət xadimləri, o cümlədən Aysel Teymurzadə, Elnur Məmmədov, Günay İbrahimli, Murad Arif, Zamiq Hüseynov çıxış ediblər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarının problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu uşaqların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Fondun ənənəvi Yeni il şənlikləri də məhz həmin kateqoriyadan olan uşaqları sevindirmək məqsədilə təşkil edilir.

İki saata yaxın davam edən əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

# Xalq ən layiqli namizədinə səs verəcək



"Dünyada gedən geosiyasi proseslər yeni reallıqlar formalaşdırıb. Azərbaycan dövləti də bu reallıqlara əsaslanaraq mühüm islahatların və tədbirlərin həyata keçirilməsini zəruri hesab edir. Növbədənkənar prezident seçkilərinin keçirilməsi də məhz bu amillərə əsaslanır. Yeni inkişaf dövrünə qədəm qoymuş Azərbaycan onu tarixinin ən yüksək zirvəzinə qaldıran İlham Əliyevə təşəkkürünü isə mövcud şəraitdə onu prezident seçkilərində öz namizədi kimi görməklə ifadə edir. Bu gün xalqımız Prezident İlham Əliyevə tam etimad göstərir".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, Azərbaycan beynəlxalq aləmdə yüksək nüfuz sahibi olan bir dövlətdir: "Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər Azərbaycan xalqını yeni qələbələr uğrunda mübarizə aparmağa sövq edir. Dünyada, eləcə də regionda mövcud olan yeni reallıqlar yeni tədbirlər həyata keçirməyi tövsiyə edir. Növbədənkənar prezident seçkiləri də bunun təzahürü kimi ortaya çıxıb. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, biz reallıqları düzgün qiymətləndirməli və öz işimizi bu reallıqlar əsasında qurmalıyıq. Yeni dünya düzəni Azərbaycanı yeniləşməyə və daha çox qələbəyə doğru aparmalıdır".

Komitə sədrinin sözlərinə görə, növbədənkənar prezident seçkiləri beynəlxalq normalara və dünya praktikasına uyğundur. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdiyi bir vaxtda ölkənin bütün ərazilərində seçkilərin keçirilməsi çox vacibdir. Ölkəmizdə bütün seçkilər azad, demokratik, sivil şəraitdə keçirilib və beynəlxalq ictimaiyyət bu seçkilərin beynəlxalq normalara uyğun olduğunu təsdiqləyib. Ölkəmizdə seçkilərin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

"Hər bir Azərbaycan vətəndaşı seçkilərin yeni reallıqlar əsasında keçirildiyini yaxşı bildiyi üçün seçki kampaniyasında fəal iştirak etməyi özünə borc hesab edir. Fikrimcə, bu seçkilərdə hər kəs bir nəfər kimi səfərbər olacaq və öz namizədini dəstəkləyəcək. Seçkilərin azad və mütəşəkkil keçirilməsi, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi siyasi sistemimizin təkmilləşdirilməsi üçün çox vacibdir", - deyə komitə sədri qeyd edib.

Tahir Rzayev onu da bildirib ki, növbədənkənar prezident seçkilərində vətəndaşların yüksək fəallıq göstərəcəyinə və ən layiqli namizədin qalib gələcəyinə şübhə yoxdur.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Həyatını vətəninin inkişafına həsr edən Prezident



Bu günlərdə xalqımız, eləcə də ünlü dövlət başçıları və siyasətçilər, habelə dünyaşöhrətli ziyalılar Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik siyasətinin davamçısı Azərbaycan Prezidenti İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, fəaliyyətində və şəxsi həyatında uğurlar arzulayırlar. Ardı-arası kəsilməyən bu məktub, teleqram və müraciətlər Azərbaycan xalqında xoş ovqat yaratmaqla insanları qürurlandırır.

Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolu, xüsusilə 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər qələbəsi və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror əməliyyatlarının uğurla başa çatması Ümummilli Lider Heydər Əliyevin istək və arzularını reallaşdırdı. Bu mənada Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı Ruslan Auşevin teleqramı səmimiliyi ilə diqqətçəkəndir: "Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Azərbaycan Respublikasının Prezidenti vəzifəsində məqsədyönlü fəaliyyətiniz Sizin zəmanəmizin görkəmli siyasi və dövlət xadimi kimi böyük istedadınızı üzə çıxardı. Ölkənizin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və dəqiq həyata keçirilməsi Sizə cəmiyyətdə və beynəlxalq arenada böyük hörmət, etimad və nüfuz qazandırmağa imkan verib.

Yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, ən mürəkkəb şəraitlərdə siyasi kompromis tapmaq bacarığı, Azərbaycan vətəndaşlarının maraqları naminə sosial siyasətin ardıcıl həyata keçirilməsi Sizə ölkənin qarşısında duran vəzifələri uğurla həll etmək imkanı verib.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, çoxmillətli Azərbaycanın gələcək inkişafı naminə planlarınızın və təşəbbüslərinizin həyata keçirilməsində yeni-yeni uğurlar, əmin-amanlıq, sülh, xoşbəxtlik və tərəqqi arzulayıram".

Oxucuları duyğulandıran bu kimi ifadələr Rusiyanın Rəssamlıq Akademiyasının prezidenti Zurab Seretelinin, Səudiyyə Ərəbistanının Kral İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saudini, 2015-2018-ci illərdə Mavrikinin Prezidenti olan Amina Qurib Fakim, 2022-2016-cı illərdə Monteneqronun müdafiə naziri işləyən Pjanoviç-Durisiç, UNESCO-nun xoşməramlı səfiri və mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi Hedva Ser və digər görkəmli dövlət xadimlərinin teleqram və məktublarında da öz əksini tapıb.

Prezident İlham Əliyev ötən illər ərzində fəal və məqsədyönlü diplomatiya həyata keçirərək Azərbaycanın bir çox dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrini gücləndirib, yeni tərəfdaşlar qazanıb, yeni dövlətlərarası əməkdaşlıq formatlarının təşəbbüskarı olub, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatına və digər nüfuzlu beynəlxalq təşkilatlara rəhbərlik edib. Böyük güc və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi tanınan ölkəmizin irəli sürdüyü təşəbbüslər dünya miqyasında dəstəklənir. Bütün bunlar Azərbaycan həqiqətlərini daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırmağa, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini tam ifşa etməyə, aparıcı beynəlxalq təşkilatların bu işğalı pisləyən qərarlar qəbul etməsinə şərait yaradır.

Azərbaycanın güclü iqtisadi potensialı müasir ordu quruculuğunu daha da genişləndirdi, Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasında layiqli yer tutdu. Ölkəmizdə müdafiə sənayesi formalaşdırıldı, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təchiz olundu.

Gürcüstanın Baş nazirinin müavini, 2008-ci ildə xarici işlər naziri olmuş Eka Tkeşelaşvili cənab Prezidentə ünvanladığı təbrik məktubunda bu amilləri yüksək dəyərləndirərək yazır:

"Hörmətli Prezident!

Bu xoş fürsətdən istifadə edərək Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Sizin xalqınız xoşbəxtdir ki, həyatını öz Vətəninin inkişafına həsr edən Lideri var. Azərbaycanın möhtəşəm nailiyyətlərini müşahidə etmək fürsətimiz oldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə və bizə bu mühüm prosesin bir hissəsi olmağa imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı və qarşıdakı planlarınızın həyata keçməsini, Qarabağın tamamilə bərpa olunmasını, Azərbaycanın mühüm regional və qlobal oyunçu kimi rolunun daha da artmasını arzu edirəm. Sizə və ailənizə ən xoş arzularımı çatdırıram".

Xatırladaq ki, radio və televiziyada səslənən, internet və sosial şəbəkələrdə yayımlanan, qəzet və jurnallarda yer alan, xalqımıza xoş anlar yaşadan bu cür təbriklərin sayı çoxdur. Bu qəbildən olan məktublardan biri də 2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi olmuş Ekmələddin İhsanoğluna aiddir.

"Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə zati-alinizə, çox hörmətli xanımınıza və qardaş Azərbaycan xalqına cansağlığı və uzun ömür diləyirəm. Bu il bizi sevindirən çox böyük nailiyyətlərin şahidi olduq. Belə ki, Sizin Ali Baş Komandanlığınız, türk xalqının mənəvi dəstəyi ilə qəhrəman Azərbaycan Ordusu işğal altındakı digər torpaqlarını da azad etdi və hər kəsin iftixar hissinə çevrilən daha bir şanlı Zəfər qazandı. Qardaş Azərbaycan xalqına Sizin rəhbərliyinizlə daha firavan və xoşbəxt həyat şəraiti arzu edirəm. Sizin himayəniz altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yeni-yeni uğurlar əldə edəcəyinə inanıram. Ən səmimi arzu və istəklərimi qəbul etmətinizi xahiş edirəm".

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs xalqımızın həmrəyliyinin daha da möhkəmlənməsini, bütün dünya azərbaycanlılarının vahid məqsəd uğrunda sıx birliyini təmin etdi.

Təbrik məktublarından da göründüyü kimi, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu ikinci onilliyin sonlarında Azərbaycan iqtisadi və hərbi gücün yaratdığı potensialı reallaşdıraraq, fəal diplomatiyanın uğurlarını praktiki müstəviyə keçirərək və beynəlxalq hüququn verdiyi imkanlardan yararlanaraq tarixi ədaləti bərpa etdi. Sülhün, tərəqqinin hamisi kimi tanınan İlham Əliyev ağıllı və düşünülmüş dövlətçilik bacarığı ilə Ermənistanın gündən-günə artan ambisiyalarını, qeyri-konstruktiv davranışlarını, xüsusilə ardıcıl təxribatlarını fiaskoya uğratdı, bu tarixi vəzifənin yerinə yetirilməsini daha da asanlaşdırdı.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan hərbi əməliyyatları beynəlxalq hüququn tələbləri və mövcud qaydalar çərçivəsində ləyaqətlə apardı, mülki əhalini hədəfə alan, qadağan olunmuş silahlardan istifadə edən düşmənə döyüş meydanında qətiyyətlə cavab verdi. Ermənistanın Azərbaycanın şərtləri altında kapitulyasiya aktını imzalaması tarixi torpaqlarımızla, Vətənimizin bir parçası ilə ayrılığımıza son qoydu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək Şuşanı azad etdi və Ümummilli Liderin, xalqımızın ən böyük arzusunu həyata keçirdi.

Biz bununla fəxr edir və sevinirik. Sülhün, tərəqqinin hamisi kimi tanınan liderin doğum günü ilə əlaqədar gələn təbrik məktublarından görünən odur ki, beynəlxalq aləmin nüfuz sahibləri, bütün dünya azərbaycanlıları Prezident İlham Əliyevlə və tarixi Zəfər qələbəmizlə qürur duyurlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Dünyada sülhün təminatçısı kimi qəbul edilən Lider



"Prezident İlham Əliyevə ad günü münasibətilə ünvanlanan təbrik məktubları ona olan diqqətin və etimadın göstəricisidir. Prezidentin uzaqgörən siyasət yürütməsi, beynəlxalq aləmdə böyük nüfuz qazanması, eləcə də dünya dövlətləri ilə əlaqələrin inkişafında müstəsna rol oynaması təbrik məktublarında bir ana xətt kimi keçir. Bütün bunlar həm də Azərbaycan xalqının böyük və nüfuzlu bir rəhbərə sahib olduğunu açıq-aydın göstərir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib. Deputat qeyd edib ki, bu gün dövlətimizin başçısına bütün dünyada böyük etimad və diqqət göstərilməsi xalqımıza qürur gətirir: "Prezident İlham Əliyevin yürütdüyü siyasətə həm ölkə daxilində, həm də xaricdə böyük inam var. Bu bir daha sübut edir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında ilk yerlərdən birini tutur. Burada Çin liderinin məktubunu xüsusi qeyd etmək lazımdır. Həmin məktubda bir çox vacib məqamlara və məsələlərə geniş şəkildə yer verilib".

Deputat qeyd edib ki, Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi, eləcə də 19-20 sentyabrda həyata keçirilən antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyimizin təmin olunması ölkədə sülhün və sabitliyin əsaslarını möhkəmləndirib. Bu faktor da beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Şübhəsiz ki, Prezident İlham Əliyev tarix yazmış, eyni zamanda öz adını tarixə qızıl hərflərlə yazdırmış böyük sərkərdə, dahi şəxsiyyətdir.

Ceyhun Məmmədov vurğulayıb ki, dövlət başçısının bütün dünyada humanist və sülhsevər kimi tanınması məktublarda da açıq-aydın görünür: "Bu gün Azərbaycan davamlı olaraq imkanlarını genişləndirir, ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına öz töhfələrini verir. Bu qlobal töhfələrimiz və təşəbbüslərimiz dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Bunun nəticəsidir ki, təbrik məktublarında Prezidentə ünvanlanmış xoş arzularla yanaşı, ölkəmizlə münasibətlərin genişləndirilməsinə marağın olduğu da qeyd edilib".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev xalqımızı ən ümdə arzularına qovuşdurub, Qarabağı və Şərqi Zəngəzuru uzun illər sonra işğaldan azad etməklə başımızı uca, üzümüzü ağ edib. Elə təkcə bu səbəb Azərbaycan xalqının bütün dünyada nüfuz sahibi olan qalib lideri ilə fəxr etməsinə bəs edir!

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# İsmayıllı ilə Fransanın Evian-Le Ba şəhəri arasında imzalanmış Dostluq və Əməkdaşlıq Xartiyası qüvvədən düşüb

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı yanında daimi məşvərətçi orqan olan Şura İsmayıllı şəhəri ilə Evian-Le Ba şəhəri arasında imzalanmış Dostluq və Əməkdaşlıq Xartiyasının qüvvədən düşməsi ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "2015-ci ilin may ayında İsmayıllıda Azərbaycan Respublikasının İsmayıllı şəhəri və Fransa Respublikasının Evian-Le Ba şəhəri arasında Dostluq və Əməkdaşlıq Xartiyası imzalanıb.

Həmin dövrdə xartiyanın imzalanmasının məqsədi iki şəhər arasında dostluq əlaqələrini inkişaf etdirmək, mədəniyyət, turizm və iqtisadiyyat sahələrində ikitərəfli əlaqələrə töhfələr verməkdən ibarət olmuşdur. Hətta bu istiqamətdə praktiki addımlar atılmış, tərəflər arasında qarşılıqlı səfərlər baş tutmuşdur.

Əməkdaşlığın davamı kimi 2017-ci ildə Evian şəhərində "Azərbaycan bağı"nın və parkda "Dostluq" bulağının, eləcə də görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın heykəlinin açılış mərasimi keçirilmişdir.

Eyni zamanda İsmayıllı şəhər mərkəzi parkında "Azərbaycan-Fransa dostluq parkı" lövhəsi yerləşdirilmişdir.

İsmayıllının qədim yaşayış məskənlərindən biri olması və çoxsaylı xarici turistlərin diqqətini çəkməsi, həmçinin rayondakı Lahıc misgərlik sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi şəhərlərarası əməkdaşlıq üçün əlavə stimul yaratmışdır.

"Qardaşlaşmış şəhərlər" ideyasının fərqli xalqların mədəniyyətinə xidmət etməsi və müxtəlif millətlərdən olan insanlar arasında körpülər yaratması, o cümlədən bu konsepsiyanın siyasətdən kənar olmasına baxmayaraq, təəssüf ki, Fransa tərəfi bu məsələni siyasiləşdirmiş, Vətən müharibəsindən sonra Ermənistana dəstək əlaməti kimi şəhərlərarası təmasları dayandırmışdır.

2023-cü il dekabrın 18-də Evian şəhər bələdiyyə şurasının iclasında ölkəmizə qarşı əsassız ittihamlar səsləndirilib, Ermənistana dəstək ifadə olunub. Həmçinin şəhər meri "Azərbaycan Bağı" qeyd edilən yazıların hamısının silindiyini elan edib.

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı yanında daimi Şuranın üzvləri Evian şəhər bələdiyyə şurasının məlum iclasında ölkəmizə qarşı səsləndirilən qərəzli və qeyri-obyektiv fikirləri qətiyyətlə rədd edir və "Azərbaycan Bağı" ilə bağlı qərarı pisləyir.

Fransanın ölkəmizə qarşı bütün platformalarda apardığı anti-Azərbaycan siyasətinə və Evian şəhər bələdiyyə şurasının "Azərbaycan Bağı" qeyd edilən yazıların silinməsi ilə bağlı qərarına etiraz əlaməti olaraq, İsmayıllı şəhəri və Evian-Le Ba şəhəri arasında imzalanmış Dostluq və Əməkdaşlıq Xartiyası 26.12.2023-cü il tarixdən qüvvədən düşmüş hesab edilsin.

Həmçinin İsmayıllı şəhər mərkəzi parkı tanınmış Azərbaycan şairi Xurşidbanu Natəvanın adını daşısın.

28 dekabr 2023-cü il.
İsmayıllı şəhəri".

# Fransaya Cənubi Qafqazda yer yoxdur

Təkcə insanlar deyil, dövlətlər də düşünmədən gücləri çatmayan işə girişəndə uğursuzluğa düçar olurlar. Nə qədər çalışsalar da, bu uğursuzluq girdabından qurtula bilmirlər.

Fransa da atdığı düşünülməmiş hərəkətlərinə görə bu gün gülünc vəziyyətinə düşüb. İndi bütün dünya Fransanı etdiyi əməllərə, həyata keçirmək istədiyi çirkin niyyətlərə görə qınayır.

Fransa gec-tez belə vəziyyətlə üz-üzə qalmalıydı. Gizlində, qaranlıqda aparılan işlərin üstünə həqiqətin işığı düşməliydi. Neçə illər idi ki, Fransa Azərbaycana qarşı məkrli siyasət yürüdürdü. Bu siyasəti həyata keçirmək üçün bütün çirkin vasitələrə əl atırdı. Paris o qədər yolunu azıb, özünü arxayın hiss edirdi ki, hətta ölkəmizdə casus şəbəkəsi də yaratmağa cəhd göstərmişdir. Amma işində həmişə ayıq-sayıq olan Azərbaycanın xüsusi xidmət orqanları bu cəhdin qarşısını vaxtında ala bilmişdir. Azərbaycan DTX-nin bu əməliyyatı Fransa dövlətinə, xüsusilə Prezident Emmanuel Makronun komandasına ciddi sarsıntı yaşadıb. Qərb mediası gizlətmədən yazır ki, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin bu uğurlu əməliyyatı Fransa xüsusi xidmət orqanlarının son 50 ildəki ən böyük iflası və biabırçılığıdır.

Bəziləri Fransanın bu addımını təəccüblə qarşılayır. Amma, əslində, burada təəccüblü heç nə yoxdur. Çünki illərdən bəri Bakıya qarşı açıq şəkildə düşmənçilik siyasəti yürüdən Makron hakimiyyətindən bütün bunlar gözlənilən idi. Fransa ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini, Qarabağda separatizmə son qoymasını, güclənməsini, regionun liderinə çevrilməsini, dünyada nüfuz sahibi olmasını həzm edə bilmir.




Lakin Fransanın indiyə qədər Azərbaycan əleyhinə hazırladığı bütün xain planları uğursuzluğa düçar olub. Bu planların bir neçəsini xatırlayaq: Fransa İkinci Qarabağ müharibəsinin ilk günlərindən ermənilərin maraqlarından çıxış edərək, işğalçılığa, separatizmə dəstək verdi, bacardığı qədər Ermənistanı silahlandırdı, beynəlxalq platformalarda ölkəmiz əleyhinə iş apardı. Müharibədən sonra isə Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı Brüssel formatında aparılan danışıqları pozdu, "yardım" adı altında TIR-larını və merlərini Azərbaycanla sərhədə göndərərək Laçın yolunda təxribata cəhd göstərdi. Lokal antiterror tədbirlərindən sonra da düşmənçilik siyasətini davam etdirdi, BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında və digər platformalarda Azərbaycan əleyhinə sənədlər qəbul etdirməyə çalışdı. Amma nə qədər əlləşsə də, heç nəyə nail ola bilmədi. Ola da bilməzdi. Çünki Azərbaycanın işi haqq işidir.

Fransanın belə hərəkətlərindən aydın görünən odur ki, deyəsən, müsyolar yenə dünyanın ən güclüsü olmaq iddiasına düşüblər. Buna görə də ötən əsrlərdə olduğu kimi, ölkələri müstəmləkə altına almaq, sərvətlərini talamaq istəyirlər. Arzuları ilə imkanları üst-üstə düşməyən Fransa Prezidenti Makronun zamandan geri qalan siyasəti ölkəsinin bütün istiqamətlər və parametrlər üzrə nüfuzdan düşməsinə gətirib çıxarıb.

Bu müstəvidə Makron sonuncu zərbəni Bakıdan aldı. Fransanın Azərbaycandakı səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" elan olunması bu ölkənin diplomatik nümayəndəliklərinin "casus yuvası"na çevrildiyindən xəbər verir. Yelisey Sarayının belə yaramaz işlərinin nəticəsidir ki, Makron ilin ən uğursuz və etimadsız dövlət başçısı "status"unu qazanıb. "Le Figaro" qəzetinin keçirdiyi sosioloji rəy sorğusunun nəticələrinə görə, fransızların 67 faizi hazırki prezidentə etimadını itirib. İkinci dəfə dövlət başçısı postuna yiyələnməsindən 18 ay keçsə də, Emmanuel Makron vədlərinə əməl etməyi, vətəndaşların ona itmiş inamını qaytarmağı bacarmayıb.

Fransa yalnız Azərbaycanda deyil, başqa ölkələrdə də casus şəbəkələri yaradır. Xəbər verildiyi kimi, dekabr ayının əvvəllərində Burkino-Fasoda Fransa səfirliyinin 4 əməkdaşı casusluq və pozuculuq fəaliyyətində şübhəli bilinərək saxlanılıb. Araşdırma zamanı məlum olub ki, casus-diplomatların əsas fəaliyyət istiqamətləri Burkino-Fasoda Fransanın müstəmləkəçilik siyasətinə qarşı çıxış edənlər barədə informasiya toplamaq, "beşinci kolon" təmsilçilərini təlimatlandırmaq olub.

Bu faktlar həmçinin Fransa xüsusi xidmət orqanlarının Cənubi Qafqazda və Mərkəzi Asiyada fəallaşmasından Parisin mühüm enerji və nəqliyyat dəhlizlərinin keçdiyi geniş bir regionda sabitliyi pozmaq, qarşıdurma yaratmaq niyyətindən xəbər verir. Ümumiyyətlə, Fransanın tarixi göstərir ki, bu dövlət dünyada sülh, əmin-amanlıq, sabitlik üçün heç nə etməyib və belə görünür ki, heç etmək fikri də yoxdur.

Fransada belə ümid edirlər ki, ermənilərə işlənmiş dörd-beş zirehli döyüş maşını verməklə bölgədə möhkəmlənəcəklər. Qoy müsyolar unutmasınlar ki, Azərbaycanla normal münasibətlər qurmayınca, Fransanı Cənubi Qafqazda heç bir siyasi uğur gözləmir. Sülhə, əmin-amanlığa töhfə verməyən belə bir ölkəyə regionda yer yoxdur.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





Qarabağ Azərbaycandır!

**44 gün davam edən Vətən müharibəsinin ilk günündən qəhrəman Azərbaycan Ordusu cəbhədə misilsiz rəşadət göstərir, işğalçı Ermənistanın silahlı qüvvələrinə ağır zərbələr endirirdi.**



## Vətən müharibəsi həm də informasiya cəbhəsində gedirdi

30 ilə yaxın qəsbkar ermənilərin işğalında qalmış ərazilərimizin azadlığına qovuşduğu, ədalətin bərpa edildiyi, haqqın qalib gəldiyi o günlər həm də böyük bir informasiya savaşı gedirdi. Azərbaycan informasiya məkanında gedən müharibədə də düşməndən öndə idi.

O günlər Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev eyni zamanda informasiya cəbhəsində əzmlə, qətiyyətlə mübarizə apararaq Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırırdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan haqlı mübarizəmizin zəfərlə başa çatacağına, qələbəyə doğru gedən yolda bütün maneələri dəf edəcəyimizə, qarşıya qoyduğumuz məqsədə tam nail olacağımıza əminlik yaradırdı. Onun ordumuzun və xalqımızın mənəvi ruhunu yüksəldən çıxışları eyni zamanda düşmənə, o cümlədən anti-Azərbaycan mövqeli xarici qüvvələrə xəbərdarlıq idi.

Vətən müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Onların sırasında Rusiyanın "Rossiya-1, "Pervıy", RBK televiziya kanalları, "Ria Novosti", "TASS" və "İnterfaks" agentlikləri, Türkiyənin "TRT Haber", CNN-Türk, "Haber Global", "Haber Türk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziyaları, "Figaro" qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-nin "Fox News" televiziyası, İtaliyanın "Rai-1" televiziyası və "La Repubblica" qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "BBC News" televiziya kanalları kimi tanınmış media orqanları var idi. Amma Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində gedən müharibə dünyanın digər tanınmış KİV-inin də diqqət mərkəzində idi. Onların isə hər birinin Azərbaycanın haqq savaşını olduğu kimi əks etdirdiyini söyləmək olmaz. Prezident İlham Əliyevə qərəzli, sanki erməni lobbisinin sifarişləri ilə suallar ünvanlayanlar da vardı. Əksəriyyəti də Qərb ölkələrinin KİV-inin əməkdaşları idilər. Bəzilərinin sualları az qala ittihama bənzəyirdi. Ancaq Prezident İlham Əliyevin təmkinlə, dəqiqliklə verdiyi cavablar belələrinin həqiqəti pərdələmək, qara yaxmaq arzularını gözlərində qoyurdu. Tarixi həqiqətlərə, beynəlxalq hüququn prinsiplərinə, dövrün reallıqlarına əsaslanan müsahibələrində dövlətimizin başçısı müharibənin başlanma səbəblərini sistemli şəkildə diqqətə çatdırır, Ermənistanın işğalçılıq siyasətinin əsl təcavüzkar mahiyyətini ifşa edirdi.

Fransanın "Figaro" qəzetinin "Cənab Prezident, birinci sualım belədir, nəyə görə Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?" sualına dövlətimizin başçısının cavabı belə oldu: "Biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçmişdir. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olmuşdur. Bu, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü hərbi təxribat idi. Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan-Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər. Onlar bizim Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər".

Uzun illər beynəlxalq təşkilatların laqeydliyi səbəbindən əməllərinə görə cəzasız qalması işğalçı Ermənistanı daha da arxayınlaşdırmışdı. Dövlət başçısı İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibəsində bildirirdi: "Təəssüf ki, buna heç kəs - nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi".

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Türkiyənin "A HABER" kanalına verdiyi müsahibəsində işğal edilmiş torpaqların hər bir qarışının, hər bir şəhərin bizim üçün doğma, əziz olduğunu vurğulayaraq demişdi: "Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Çox keçmədi ki, gözlədiyimiz xoş xəbər gəldi. Noyabrın 8-də Şuşanın erməni işğalından azad edilməsi xalqımıza böyük müjdə, düşmənə ağır mənəvi zərbə oldu.

2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Prezident İlham Əliyev həmin müsahibələrin əhəmiyyəti barədə belə açıqlama vermişdi: "Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Etiraf etmək lazımdır ki, məkrli ermənilər uzun illər, hətta əsrlərboyu dünyada təbliğat sahəsində bizdən öndə olmuşlar. Bundan istifadə edib zaman-zaman azərbaycanlılara qarşı soyqırımları törətmələrinə baxmayaraq, özlərini yazıq, zavallı kimi göstərməyə çalışmışlar. İşğalçılar illər idi ki, yalan təbliğat apararaq uydurduqları "erməni soyqırımı"na dünyanı inandırmağa cəhd göstərmiş, bu məqsədlə saxta məlumatlar yaymışlar. Vətən müharibəsi dövründə isə Prezident İlham Əliyev həm də informasiya cəbhəsində qazandığı qələbə ilə Ermənistanın yalan üzərində qurulmuş təbliğatına tutarlı, olduqca ağır zərbə vurdu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Tarix yazan oğullar

## Həyatı bahasına komandirini xilas edən qəhrəman

**O, bu dünyadan zülmətin bağrını sökən işıq, bir şimşək kimi keçdi. Özü də qaynar həyat, nikbinlik mənbəyi idi, qədəm basdığı yerə bir canlanma, ruh yüksəkliyi gətirərdi.**
**Əliağa Eldəniz oğlu Məmmədov 2001-ci il iyulun 26-da Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində dünyaya gəlmişdi. 2008-2013-cü illərdə 80 nömrəli orta məktəbdə doqquzillik, daha sonra isə 322 nömrəli məktəbdə tam orta təhsil almışdı. 2017-2018-ci illərdə 5 nömrəli Peşə Liseyində işıq operatoru ixtisasına yiyələnmişdi. 6 il cüdo idman növü ilə məşğul olmuşdu. Subay idi.**



Liseyi başa vurduqdan sonra təcrübə keçmək üçün Azərbaycan Dövlət Akademik Musiqili Dram Teatrına göndərilir. Az müddətdə kollektivin hörmətini qazanır, rəhbərliyin təklifi ilə teatrda qalıb işləyir. 2019-cu il iyulun 26-da - doğum günündə həqiqi hərbi xidmətə yola düşür. Tərxis olunmağına az qalmış növbəti erməni təxribatı zəminində başlanan Vətən müharibəsinin ön sıralarına qoşulur.

Qızğın gedən döyüşdə Əliağa minalardan birinin tabor komandirinin yanına düşəcəyini görür. İrəli atılır, komandiri yerə yıxır, özünü ona sipər edir. Mina partlayır, qəlpələr igid əsgərin bədəninə sancılır. Canı bahasına komandirini xilas edir.

Eldəniz Məmmədov üç ildən çoxdur ki, yeganə oğlunun cismən yoxluğunun nisgilləri, əzabları ilə yaşayır, ancaq bütün yükü ürəyində çəkməyə, tarixi Zəfərimizdən sonra qəddini əyməməyə çalışır: "Şükür Allaha ki, bu qələbə ilə Əliağamın, digər şəhidlərimizin qisası alındı, gözəl Qarabağımız azadlığa qovuşdu".

Anası Samirə Məmmədova deyir: "Oğlum çox sakit, təmkinli, işgüzar idi. Heç bizi incitmədi. Uşaqlıqdan cüdo ilə məşğul olurdu. Müxtəlif yarışlara qatılmış, çoxlu mükafatlar almışdı. Amma Akademik Musiqili Dram Teatrını çox sevirdi, səhnənin işıqlandırılması ilə maraqlanırdı. Teatr onun üçün başqa bir dünya idi. Arzuları vardı, o, hərbi xidmətdən sonra İncəsənət Universitetində təhsil almaq istəyirdi. Ona görə hərbi xidmətə çağırışı da səbirsizliklə gözləyirdi. Məni bir az kefsiz görəndə narahat olurdu. İndi də yuxularıma gəlir "Ana, narahat olma, mən yaxşıyam" deyir. Vətən uğrunda şəhadətə, ölümsüzlüyə qovuşan oğul anası necə ola bilər? Bütün şəhid valideynlərinə səbir, dözüm arzulayıram. Təki Vətənimiz azad, dövlət müstəqilliyimiz əbədi olsun!"

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev şəhid işçisinin yüksək nizam-intizamı, zəhmətkeşliyi barədə danışır: "Əliağa cəmi bir neçə ay bizim teatrda çalışdı. İşində çox məsuliyyətli idi. Az müddətdə işi o qədər dərindən öyrənmişdi ki, ona ancaq "sağ ol" deyirdilər. Biz onun yolunu səbirsizliklə gözləyirdik. Sən demə, bu



gözləntinin sonu yox imiş. Şəhid olan günü evlərinə getmişdik.. Hamı, böyük bir izdiham onu son mənzilə yola salmaq üçün gəlmişdi..."

Maştağadakı dəfn mərasimində tabor komandiri hücum əməliyyatında olduğuna görə iştirak edə bilməyib. Amma o, Əliağanın valideynləri ilə telefonla danışmışdı: "Övladınız mənim həyatımı xilas etdi, hücum planımızın qarşısını almaq istəyən düşmənə mane oldu. Belə şücaəti, qəhrəmanlığı yalnız filmlərdə görmüşdüm, kitablarda oxumuşdum. Bu gün oğlunuzu itirsəniz də, məni oğul saya bilərsiniz. Cəbhədən qayıdan kimi oğultəki xidmətinizdəyəm. Həyatımı sizə borcluyam".

Şücaətinə görə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülən işıqçı Əliağa indi əbədi nur içindədir - xalqımızın digər şəhid övladları kimi…

*Qurban MƏMMƏDOV*

Yaddaş

## Şəhidlərə həsr olunmuş filmlər ictimaiyyətə təqdim edilib

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Respublika Xatirə Kitabı Redaksiyası müharibə ağrılarını özündə əks etdirən ensiklopedik tarixi salnamədir.



Respublika Xatirə Kitabının bu günə kimi iyirmiyə yaxın cildi nəşr olunub. Onlar arxada qalmış tarixdən soraq verir, insan talelərindən söz açır. Elə buna görə də Respublika Xatirə Kitabını yaddaşımızın abidəsi adlandırırlar. Xatirə kitablarının nəşri həm də "Heç kim unudulmur, heç nə yaddan çıxmır!" müdrik kəlamının yaşadıldığını bir daha təsdiq edir.

Nəşr olunmuş kitablarda əsasən, İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Birinci və İkinci Qarabağ müharibələrində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş oğul və qızlarımız haqqında geniş materiallar dərc edilir. Deməli, bu kitablarda insanların həyatı tarixiləşir.

Xalqımıza böyük Zəfər sevinci bəxş etmiş oğullarımızın adlarının, xatirələrinin əbədiləşdirilməsi işinin məsuliyyətini öz üzərində hiss edən Respublika Xatirə Kitabı Redaksiyasının kollektivi daim araşdırmalar aparır, yeni nəşrlər hazırlayırlar.

"Şəhidlər ölməz - Vətən bölünməz!" seriyasından bir neçə kitab da nəşr edilib. Respublika Xatirə Kitabı Redaksiyası həm də yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğulların ömür və döyüş yollarından bəhs edən sənədli filmlər çəkir. Bu günlərdə Nizami Kino Mərkəzində "Vətən daşı... və ya 44 günün dastanı" layihəsi əsasında çəkilmiş növbəti 4 filmin təqdimat mərasimi keçirilib.

Tədbiri sənətşünaslıq üzrə fəlsəfə doktoru, aktrisa Zülfiyyə Eldarqızı açaraq filmlər haqqında iştirakçılara məlumat verib. Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad olunub. İştirakçılar Azərbaycan Respublikasının Dövlət Himnini ifa ediblər.

Milli Məclisin deputatı Aydın Hüseynov, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və hərbi qulluqçuların ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova, filmlərin ssenari müəllifi və rejissoru Vüsal Nuru, filmlərin layihə müəllifi və direktoru, Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova və başqaları çıxış ediblər.

Sonra Vətən müharibəsində şəhid olmuş Murad Əsədov, Dəyanət Əliyev, Toğrul Abbasov və Məhəbbət Quliyevin şərəfli həyat və döyüş yollarını özündə əks etdirən filmlər nümayiş olunub.

Filmlərin nümayişindən sonra şəhid ailələri "Vətən daşı... və ya 44 günün dastanı" layihəsinin rəhbərinə, ssenari müəllifinə və rejissoruna minnətdarlıqlarını bildiriblər.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Xəbərlər

## Biləsuvarda Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət olunub

**Biləsuvar Rayon Polis Şöbəsinin rəhbərliyi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rayondan olan Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət edib.**



Şəhidlərin ailə üzvləri ilə görüşən polis əməkdaşları onların qayğıları ilə maraqlanıb, gətirdikləri bayram sovqatlarını təqdim ediblər.

Şəhidlərimizin əziz xatirəsi yad edilib, qəhrəman oğullarımızın igidlik və şücaətlərindən danışılıb. Şəhid hərbi qulluqçuların ailə üzvləri göstərilən diqqətə görə ölkə və DİN rəhbərliyinə öz təşəkkürlərini bildiriblər.

## Moskvada "Vətən" şeir müsabiqəsinin qalibləri elan olunub

**Moskvada Azərbaycan Mədəniyyətinin İnkişafı Fondu (AMİF) ilə Yenises.ru portalının birgə layihəsi olan "Vətən" şeir müsabiqəsinin yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, ictimai təşkilatların Moskva Evi-Kovorkinq Mərkəzində keçirilən tədbiri jurnalist Cəfərsadıq Abbasov açıb.

Sonra çıxış edən AMİF-in rəhbəri Şamil Qurbanov fondun Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirdiyi müsabiqənin "Vətən" adlandırılmasının təsadüfi olmadığını qeyd edib. O, Rusiya -Azərbaycan mədəni-ədəbi əlaqələrinin inkişafına təkan verən belə tədbirlərin gənc nəslə Vətənə, ədəbiyyata sevgi aşılamaq yönündə faydasından danışıb.

Tədbirdə iştirak edən Moskva şəhəri Ryazanski bələdiyyə dairəsi Deputatlar Şurasının deputatı Nikolay Porodin Rusiya-Azərbaycan dostluğu çərçivəsində təşkil olunmuş müsabiqəyə yüksək qiymət verərək, Moskva şəhəri Ryazansk Rayon İcra Hakimiyyətinin başçısı Anatoli Yevseyevin təbrik məktubunu oxuyub.

Azərbaycan və Avrasiya Yazıçılar Birliyinin üzvü, şair, tərcüməçi Afaq Şıxlı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış yazıçı-şair Südabə Sərvi, tanınmış psixoloq, Rusiya İctimai Komitəsinin üzvü, şair Zirəddin Rzayev, Rusiya Yazıçılar Birliyinin üzvü, jurnalist Cəfərsadıq Abbasov və Yenises.ru informasiya portalının rəhbəri, jurnalist Tünzalə Vəliqızının təmsil olunduğu münsiflər heyəti tədbirboyu ilk onluğa düşən qalib şeirləri səsləndiriblər.

Gecənin ən həlledici və həyəcanlı məqamı isə qaliblərin adının elan edilməsi olub. Qaliblərin adını Zirəddin Rzayev, Afaq Şıxlı və Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Orxan Hacıyev açıqlayıblar. Onu da qeyd etmək yerinə düşər ki, müsabiqəyə Azərbaycan, Rusiya, Türkiyə, Belarus, Çexiya və bir çox digər ölkələrdən poeziyasevərlər öz şeirlərini göndəriblər.

Müsabiqənin ən kiçik iştirakçısı isə Belarusun Minsk şəhərindən olan Lyubov Mixonskaya idi. Onun İkinci Dünya müharibəsi qəhrəmanı, həmyerlimiz Nəcəfqulu Rəfiyev haqqında yazdığı şeir "Münsiflərin rəğbəti" mükafatına layiq görülüb. Müsabiqənin 7 qalibi pul mükafatı və Azərbaycan Mədəniyyətinin İnkişafı Fondunun diplomuna layiq görülüb.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 2 fevral (Bazar günü) tarixli 103-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 1 cəmadiyələvvəl sənə 1337.
2 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İKİ KONFRANS

Mənən olmasa da, maddətən bu günün hakimi olduqları kimsə tərəfindən inkar olunmayan qalib dövlətlərin mərifətilə [sayəsində] Parisdə, "Versal"da dövlətlərin nümayəndələrindən ibarət bir konfrans açılmaqdadır.

Bu konfransla bərabər maddətən olmasa da, mənən bu günün hakim əfkarı [fikri] olan demokratiya naminə ümumdünya sosialistləri tərəfindən İsveçrədə, Bern şəhərində digər bir konfrans, Sosialistlər Konfransı toplanmaqdadır.

Dünyanın cahangirləri qarşı-qarşıya gəldilər. Dünya alt-üst oldu, qiyamət qopdu! Cahangirlərdən bir zümrəsi qalib, digəri məğlub oldu. Toplar dayandı. Hesab günü gəldi. Divani-mühasibat quruldu. Bu divana yalnız qaliblərlə məğlublar deyil, bütün dünya gəlir, bütün millətlər ərzi-hesab edirlər.

Təbiətdə itlaq [mütləqlik] yoxdur. Hər şey nisbidir.

Bu divana ərz olunan hesablar bir ədaləti-möhsinə üzərinə [gözəl və xeyirli bir ədalətlə] görüləcəkmidir? Görülə biləcəkmidir?

Bu bir məsələdir.

Biz Parisdə toplanacaq Sülh Konfransından bahis [bəhs edən] "Hesab günü" ünvanı ilə yazdığımız məqalədə bu divandan çıxacaq hökmlərin kimidən ötrü "cənnət", kimidən ötrü "cəhənnəm", kimidən ötrü "bərzəx" qərarını verəcəyini təsəvvür etmişdik.

Fəqət bunu təsəvvür edərkən oxuyucular bilərlər ki, "Versal" divanının adili-mütləq [mütləq ədalət sahibi] olacağına çox da iman etməmişdik. Müsəlman sosialistlərinin naşiri-əfkarı [mətbuat orqanı] bulunan "Al bayraq"ın isnad eylədiyi kimi bu konfransı biz "günah"ları, "savab"ları adilanə ölçə bilər qiyaməti-ilahi deyə tələqqi etmədik [qiymətləndirmədik]. Böylə tələqqi etmiş olsaydıq, o məqalədə bu satırları yazmazdıq:

*"Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin, təbiri-digərlə [başqa sözlə] dava vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarə edək. Behiştlik dərəcədə idarəyə istehqaq [haqq] qazanmış olduğumuzu isbat edək.*

*Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər haqqında tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eyləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olarsa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər az-çox səfiyyətini saxlar. Onların saflıqlarının məhfuz qalması [qorunması] isə bizim kimi xırda millətləri qurtarar. Dirilik yarlığını əllərimizə tapşırar."*

"Müsavat" başçılığından əvvəl bir mühərrir olan Rəsulzadənin "yanıldığını" isbat edən "sosialist" qəzetə görünür ki, münaqişə həvəsilə pürşur kəsilərək [həyəcanlanaraq] tənqid etdigi məqaləni diqqətlə oxumağa, aradan bir çox zaman keçmişsə də, vaxt bulammamışdır.

"Al bayraq" Berndəki sosialist konqresinin toplanmaq üzrə bulunduğu xəbəri çıxdığdan sonra beynəlmiləl demokratiyanın Azərbaycan müqəddəratına təsirbəxş olacağından bəhs edirsə, biz daha böylə bir xəbər yox ikən, Yevropa və Amerika demokratiyasının Versal Konfransı üzərinə icrayi-təsir etməsini arzu eyləmişdik. Və "bu nüfuz vaqe olarsa, xırda millətlər qurtarar" demişdik. Bu məqsədlə daxi "Paris Konfransını təbrik" deyil, Parisə qibtə edərkən kəndisinə xitab etmiş, demişdik ki:

*"Saqın; möhtəşəm salonlarından birisində, ehtimal ki, Versalın tarixi binasında, iniqad edəcək [yığışacaq] bəşəriyyət qarşısındakı məsul ricala [adamlara] təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını sui-istemal [sui-istifadə] etməsin, yalnız bəşəriyyəti və yalnız istiqbali-bəşəri [bəşəriyyətin gələcəyini] düşünsünlər. Hökmlərini verərkən bütün demokratiyanın tələbini nəzərə alsınlar; məzarlarından qalxmış və diriliyə təşnə olmuş millətləri təkrar məzarlarına gömməsinlər!!"*

Arzu etdigimiz "demokratiya nüfuzu" deyəsən ki, təşəkkül etmək istəyir. Beynəlmiləl Sosialist Konqresi toplanır.

Berndən sədası gələn bu konqrenin Versal divanı üzərinə az-çox nüfuzu olacağını inkar edənlərdən deyiliz; əvvəla millətimizin kəndi ciddi cəhdindən və saniyən [ikincisi] daxi bu "nüfuz və təsir"dən istifadə edəcəyini zatən "Hesab günü"ndə söyləmişdik.

Əvvəlcə daxi yazmışdıq:

*"Bu hesab gününün nəticəsində daxi bütün dünya millətlərinin 'behiştlik' olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır."*

Diqqət olunarsa, daima hesab divanından deyil, hesab günündən bəhs olunur. Bu günün divani-mühasibatı biri Versal, digəri Berndə olmaq üzrə iki məclisli olabilər. Birincisi adili-mütləq olammazsa, ikinci məclis hakimi-mütləq ola biləcəkmidir? Zənn etməm. Bir kərə oraya toplaşacaq sosialistlər Versaldakı diplomatlar cinsindən olmasalar da, onlarla birlikdə Hərbi-ümumiyə [Dünya müharibəsinə] iştirak eyləmiş partiyalara mənsub adamlardır. Binaənileyh [ona görə], onların kamilən [tamamilə] bitərəf və "Al bayraq"ın istədiyi adili-mütləq adamlar olduğunu düşünmək üçün daxi fəzla nikbin olmaq gərək.

Bernin Versala müqabiləsini [qarşı durmasını] Rusiya inqilabındakı Əmələ Şurası [Fəhlə Soveti] ilə Müvəqqəti Hökumətə qiyas edənlər vardır. Rusiya mühitində Əmələ Şurası icrayi-nüfuz dərəcəsini keçib hökmdarlıq mərtəbəsinə çıxdı. Maddi və mənəvi bütün qüvvəti əlinə aldı.

Fəqət nəticədə Milyukovun almaq istədiyi İstanbul üzərində "israr" etmədisə də, kadetlərin "Moskvadan ziyadə mühafizə edəcəkləri" Bakıdan daxi qolaylıqla əl çəkmədi. Qafqaziya, imperatorların göhvəritacı [tacının göhvəri] idi; demokratların tacı yox, fəqət mədələri var, iştəhaları kəsirdi. Qafqaziyanı bir göhvər kimi deyilsə də, bir malikanə kimi saxlamaq istədilər.

Nə məlum ki, Berndəki sosialistlər Rusiyadakı insanlardan deyil, başqa bir növ mələklərdən olacaqlar.

Məmafih [bununla belə], bununla biz Bern Konfransının Versal üzərində xırda millətlər nöqteyi-nəzərindən pək faydalı bir təsir icra edəcəyini inkar etmək istəməyiriz. Yalnız istəriz ki, həqiqəti olduğu kimi görərək pək də xəyalata qapılmayalım. Biləlim ki, bugünkü amil qüvvətlərin tənasübü son qərarın Versala aid olduğunu göstərməkdədir.

Məgər ki, yarınkı gün başqa bir hökm, başqa bir hikmətlə zühur edə!..

*M.Ə.Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**"İttihad" rəisinin sorğusu**

Bundan sonra "İttihad" firqəsi rəisi tərəfindən hökumətə xitabən verilmiş olan bu sorğunu katib oxuyur:

*1. Qara və ağ neft alış-verişinin ümum Qafqaziya əhalisi üçün müzirr [zərərli] bir şəkil aldığı, məmləkətin bu mühüm sərvətinin möhtəkirlər və avantüristlər əlində əhalini soymaq üçün alət olub, dövlətə möhtəkirlərin qazanclarına nisbətən cüzi bir mənfəət verdiyi hökumətə məlumdurmu? Məlum isə, bu yolda hökumətin fikri nə mərkəzdədir?*

*2. Əsgər naminə ucuz fiatla [qiymətlərlə] yaxud parasız əhalidən toplanmış olan zəxirə [ərzaq] haqqında məmurların icra etdikləri sui-istemal [sui-istifadə] hökumətə məlumdurmu? Məlum isə, bu xüsusda hökumət nə kimi tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür] və müqəssirlər haqqında nə kimi iqdamatda bulunulmaqdadır [hansı addımlar atılmaqdadır]?*

*3. Hacı Zeynalabdin Tağıyevin fabrikasından hökumətin icazəsi ilə əhali namına [adına] buraxılan malların möhtəkirlər tərəfindən yüksək qiymətə satıldığı, bu münasibətlə ehtikara [möhtəkirliyə] və sui-istemala geniş meydan açıldığı, bez və ağın arşınının füqəraya 15-17 manata mal olduğu [başa gəldiyi], bir çox hökumət ətrafında dolaşan adamların bu sui-istemala iştirak etdikləri hökumətə məlumdurmu? Məlum isə, bu yolda nə kimi tədbirlər ittixaz edilmiş və müqəssirlər haqqında nə kimi təşəbbüsatda bulunulmuşdur?*

*"İttihad" firqəsi rəisi:*
*doktor Qara bəy Qarabəyli.*

**Qarabəyli Qara bəy** - uzun bir nitqlə sorğunu müdafiə edərək deyir ki:

Bizim nöqsanımız yalnız bu deyil, çox nöqsanlarımız var. Fəqət bu üç məsələ həyatımızda qayət mühüm məsələlərdir. Azərbaycan ən zəngin məmləkətlərdən birisidir. Sərvətimizin də mühümü neftdir ki, bütün cahan ona möhtacdır. Fəqət bu sərvətlə bərabər qonşumuz olan məmləkətlər Azərbaycandan çox ucuzluqdur. Neft ticarət və ixracının mən'i [qadağan edilməsi] haqqında çox qanunlar var. Fəqət bəzi xoşbəxtlər bilmirəm nüfuzlarınamı, qövmlüyəmi [qohumluğamı] ya xüsusi himayəyə görə lazım olan icazənaməni alır və alış-verişlərini edirlər. Bizim ayrı-ayrı şəxslərlə işimiz yoxdur, ancaq qaydanın pis götürüldüyünü göstərmək istəyiriz. Neft icazənaməsi ələni [açıq] surətdə bazarda satılır. *(Mərkəzdən və soldan: Doğrudur, doğrudur).* Ona görədir ki, neftin putu 10 manat olduğu halda, Bakının özündə 20, Gəncədə isə 120 manata satılır. Həm də bu qədər qazanclar bir neçə möhtəkirin cibinə girərək, barı hökumət və millət xəzinəsinə bir mənfəət dolmur. Bu gün hər kəs istəyir gedək birjadan mən ona neçə vaqon neft icazəsi istəsə alım.

İkinci mühüm məsələ, Tağıyev fabrikasından buraxılan bez məsələsidir. Məmləkətimizdə özümüzə məxsus fabrikamız mövcuddur və bezin arşınını 5 manata buraxmaqda ikən, fəqir əhali aylarla fabrikanın və Nəzarətin [Nazirliyin] qapısında dayanaraq əliboş qayıdır. Amma bəzi məsudlar burada da işlərini düzəldə bilirlər. Bəzi adamlar fabrikadan bez buraxılması üçün tezcə icazənamə alır və bez əlinə çatan kimi fabrikanın qapısındaca arşını 12 manatdan satır, onu alan da aparıb yəqin ki, 15-17 manata satır. Bu surətlə heç ehtiyacı olmayan bez alır, mənfəətinə satır, amma möhtac olan fəqir əhali icazənamə ala bilməyib, bazardan 15-17 manata almağa məcbur olur. Ona görədir ki, fəqir camaat ac, çılpaq qalıb, içlərində yatalaq xəstəliyindən qırılır. Bu gün biz bunun qabağını almazsaq, bu hərəkətlərə sədd çəkməzsək, vətənin böyük xaini və xəstəlikdən qırılanların qanına məsul olacağız. Bu məsələni tezliklə bir qaydaya salmalıdır. Hərçənd biz böylə məsələlərdə mütəxəssis deyiliz, amma yenə bəzi çarələr göstərməyi lazım biliriz. Məsələn, hökumət bütün neft alış-verişini öz əlinə alıb, hasil olan nefti tamamilə alaraq, sonra müntəzəm mübadileyi-əmval [mal mübadiləsi] təyin edə bilər ki, bu da şübhəsiz ümum malların ucuzlaşmasına səbəb olar. Yaxud hökumət neft alış-verişini azad elan edərək hamıya izin versin və bu surətlə rəqabət çıxarsın. Bu dəxi əlbəttə malların ucuzlaşmasına bais olar. Biz bunu mütəxəssis kimi demiriz və təklif ediriz ki, hökumət Parlamanın iştirakı ilə və mütəxəssislər dəvət edərək bu işləri bir yaxşı nizama salsın.

Sorğumuzun üçüncü maddəsi buğda məsələsidir. Hamınıza məlumdur ki, türklər burada olan zaman qoşun ehtiyacı üçün fəqir kəndlilərdən xüms, zəkat və üşr adı ilə külli miqdarda buğda yığılmışdı. Aldığımız məlumata görə, buğda işlərində də böyük sui-istemallar olur. Hökumət məmurları da sui-istemalda iştirak edirlər. Məsələn, Quba uyezdində camaatdan külli miqdarda buğda yığılıb, hələ pulu da verilməmişdir. Həman buğda tələf edilmişdir. Hökumət məmurlarının iştirakı ilə bir neçə adam Qazax uyezdində daha da betərdir. Orada öylə böyük həngamələr olur ki, heç inanmazsınız. Eşitdiyimizə görə, orada hökumət məmurlarından ibarət dəstələr əmələ gəlmişdir ki, Azərbaycandan özgə məmləkətlərə neft və sair qadağan edilmiş şeylər aparırlar. Gəncə polismeysteri özü yazır ki, onun məmurlarının əksəri sui-istemal edirlər. Hökumət və Parlaman, camaat nəzərində nüfuzlarını saxlamaq və yüksəltmək üçün tədbirlər görməlidirlər. Hökumət məmurları özləri qanunu pozduqda və sui-istemala yer verdikdə, dəxi camaatdan nə tələb etmək olar? Burası hərc-mərc başlanğıcıdır və hökumət buna bir sədd çəkməlidir.

**Sədr** - sorğunu səsə qoyur, sorğu təcili olaraq qəbul edilir.

**İctimaiyyuni-inqilabiyyun komitəsi təklifi**

Bundan sonra katib, Bakı İctimaiyyuni-inqlabiyyun [Sosialist-inqilabçılar] komitəsi tərəfindən göndərilmiş olan bu məktubu oxuyur:

*Azərbaycan Məclisi-Məbusanı Rəisinə*

*Parlaman təşəkkülü qanununa görə məbuslar milliyyət əsası ilə seçilirlər. Bizim firqəmiz beynəlmiləl olduğuna görə milliyyət əsası ilə məbus keçirmək imkanımız yoxdur, ancaq firqə tərəfindən nümayəndə verə bilərik. Bütün millətlərin zəhmətkeş siniflərini təmsil edən İctimaiyyuni-inqlabiyyun firqəsi kəndli və fəhlələrin hüququnu hətta təşəkkül əsası bütün düzgün olmayan müəssisələrdə də müdafiə etməyi özünə borc bilir. Bakı və Gəncə quberniyalarında bizim firqəmizin Məclisi-Müəssisan seçkilərində aldığı səsləri Azərbaycan Məclisi-Məbusanında bizə beş yer haqqı verir. Bununla bəyan edirik ki, İctimaiyyuni-inqlabiyyun firqəsi Azərbaycan Parlamanına iştirak etməyi təhti-qərara almış və qanuni haqqı olan beş yerin firqəyə verilməsini təkid edir. Bizim bu bəyannaməmizi, cənab Sədr, təvəqqe edirik Parlamanın iclasına təklif edəsiniz.*

*Zaqafqaziya İctimaiyyuni-İnqilabiyyun*
*komitəsinin Bakı mürəxəssləri*
*[nümayəndələri]: Dmitr Serxalyev,*
*Sako Saakyan.*
*İctimaiyyuni-inqlabiyyun firqəsi Bakı*
*komitəsi sədri: Xristofor Yevanqulov.*
*Əvəzi-katib: L.Umanski.*

**Rüstəmbəyli Şəfi bəy (Müsavat)** - Həmişə Parlamanda birgə işləmək üçün bütün millətlərin Parlamanda bulunmaları tərəfdarı olduqlarını qeydlə təklif edir ki, İctimaiyyuni-inqlabiyyun firqəsi təklif[i] əsas etibarilə qəbul edilməklə, milli komitələr hesabına onlara yer verilməsinə razı olaraq, yerlərin miqdarını təyin etmək üçün məsələnin etibarnamə komisyonuna verilməsini təklif edir.

**Qardaşov** – "Əhrar" fraksiyası tərəfindən məzkur [deyilən] firqənin müraciətini təbriklə bərabər deyir ki, bu təklif qəbul ediləmməz. Çünki azlıqda qalan millətlərin yerləri milli şuralara verilmişdir. Bu gün o yerlər firqələrə verilərsə, yarın yer sahibi gəldikdə ixtilaf çıxar.

**Əhməd Cövdət** (Sosialistlər ittifaqından) - Həmişə siyasi firqələr və azlıqda qalan millətlərin Parlamanda bulunmalarını arzu etdiklərini və öz firqələrinin daima sosialist firqələrini Parlamanda iştiraka tərğib [rəğbətləndirməyə] və təşviqə çalışdıqlarını qeydlə təklif edir ki, İctimaiyyuni-inqlabiyyun firqəsinə Rusiya Məclisi-Müəssisanı seçkisində almış olduğu səslərə nisbətən malik olduğu haqqa görə yer verilsin.

**Ağa Aşurov** - Təklif edirəm ki, bu müraciətə rədd cavabı verilsin. Çünki gəlmək istəyənlər özlərini başqa bir hökumət üzvü hesab edirlər. *(Məhəmməd Əmin yerindən: Şimdi o hökuməti ləğv etmişlərdir.)* Bir də, əgər onlar beynəlmiləl bir sosialist firqəsi kimi gəlmək istəyirlərsə, Parlamanda sosialist fraksiyonu var. Bir millət kimi gəlirsələr, milli şuralar vasitəsilə gəlsinlər. Lakin milli şuraların yerlərini onlara verməyi mən qeyri-mümkünədd [hesab] edirəm.

**Qarayev [Əliheydər]** (Hümmət) - Ağa Aşurov cənablarının sosialistlərin Parlamana gəlməsinə razı olmaması təbiidir. Yoldaşımız Əhməd bəy [Pepinov] dediyi kimi, sosialistlər milli şuralara daxil deyildirlər. Hətta mən deyirəm ki, Rus Milli Komitəsi "Yedinaya Rossiya" qəzetəsinin müdir və mühərrirlərindən ibarət olub da, həmişə yatıb yuxusunda böyük Rusiya görənlərdir. Onlar Azərbaycan Parlamanına gəlməzlər. Ona görədir ki, biz var qüvvəmizlə İctimaiyyuni-inqlabiyyun firqəsinin Parlamana daxil olmaq hüququnu müdafiə edəcəyiz.

**Rəsulzadə Məhəmməd Əmin** - Məlum ki, biz [istəyirik] ümum cərəyanlar, millətlər və firqələr Parlamanda iştirak etsinlər. Lakin biz o nikbinlərdən deyilik ki, deyək hamı bir dərəcədə bizimlə bərabər Azərbaycan istiqlalını və Azərbaycan əməlini [arzusunu] müdafiə edəcəkdir. Yenə də biz nikbinlik istəmiriz. Fəqət istərdik ki, fəaliyyətimizi tənqid, hərəkətlərimizə etiraz edənlər Parlaman xaricində olmayıb, Parlaman kürsüsündən tənqid etsinlər və buradaca cavablarını alsınlar. İctimaiyyuni-inqlabiyyun firqəsinin Parlamana daxil olması barəsində burada bəzi mülahizələr bəyan edirlər. Biz milli şuralara yer verdikdə həman şuraların siyasi firqələrdən mütəşəkkil olduğunu təsəvvür edirdik. Biz milli şura ların əhəmiyyətini təşəkkül etdikləri siyasi firqələr və Rusiya Məclisi-Müəssisanı seçkisində onların almış olduqları səsin miqdarı ilə ölçə biləriz. Burada Əhməd bəy və Qarayev İctimaiyyun firqəsinin Parlamana gəlmək istəməsini öz təşəbbüslərinin nəticəsi kimi istinad verdilər. Fəqət, bizcə bu işə anlı [ağıllı, düşüncəli], idraklı türk demokratiyasının təsiri daha böyük olmuşdur. Türk demokratiyası öz hüququnu, öz istiqlalını var qüvvəsi ilə müdafiə edəcəyini aydın-aşkar elam etdi [bildirdi] və bu gün bu müvəffəqiyyət demokratiyanın böylə qəti hərəkəti nəticəsidir. *(Alqış)* İdraklı türk demokratiyasının səsi sair firqələri də Parlamana gəlib bizimlə müttəhidən [birgə] çalışmağa vadar edəcəkdir. *(Alqış)* Mən yenə təkrar edirəm, əqəliyyət [azlıq] təşkil edən millətlərin milli şuralarına yer verildikdə seçki vaxtı siyahı çıxarmış və səs almış olan firqələrə yer verilirdi. O cümlədən İctimaiyyuni-inqlabiyyun, İctimaiyyuni-amiyyun [Sosial-demokrat], kadet və Daşnaksutyun firqələri də siyahı çıxarmışlardır. İctimaiyyuni-inqlabiyyun firqəsi siyahı çıxarmış, müəyyən miqdarda səs almış və bu surətlə bir qisim əhalini təmsil edir. Madam ki, bu firqə milli şuralar vasitəsilə gəlmək istəməyir, biz borcluyuz onların haqqı olan yerləri özlərinə verək; hətta gələcəkdə sair firqələr də Parlamana daxil olmaq istəsələr, onlara yer verək.

**S.M.Qənizadə** - Qarayev deyir ki, Rus Milli Şurası "vahid Rusiya" xəyalındadır və bizim yanımıza gəlməzlər. Görünür ki, sosialistlər bizim istiqlalımızı qəbul edirlər. Sosialistlərin Cümhuriyyət tərəfdarı olduqlarına biz inanırız. Bəlkə gələcəkdə sair firqələr də bu nöqteyi-nəzəri qəbulla Parlamana gəlmək istəyəcəklərdir. Əlbəttə, böylə isə biz onların həpsinə yer verməliyiz.

**Əhməd Cövdət** - Əsl məram məsələsində fəhlə və əkinçi, yəni ümum zəhmətkeşlər məsələsində onların bizimlə bir olacaqlarına mən Sultanməcid [Qənizadə] əfəndiyə söz verə bilərəm. Taktika məsələsində isə əlbəttə, onlar bizdən ayrı da gedə bilərlər.

**"Müsavat"ın təklifi**

**Hacıbababəyov** - "Müsavat" tərəfindən böylə bir təklif təqdim edir:

Sosialist-revolyusioner [Sosialist-inqilabçılar] partiyasının Bakı komitəsi tərəfindən Azərbaycan Məclisi-Məbusanına daxil olmaq haqqındakı istidanı [xahişi] müzakirə edərək və:

1. Azərbaycan Şurayi-Millisi əqəliyyət [azlıq] milli komitələrinə nümayəndəlik haqqı verərkən bütün firqələrin bu komitələrə daxil olduğunu dəxi təsəvvür eylədiyini;

2. İctimaiyyuni-inqlabiyyun milli komitələr zimnində [daxilində] malik olduqları haqdan istifadə etmək istəməyib və bunlar vasitəsilə Məclisi-Məbusana vəkil göndərməkdən imtina eylədiklərini;

3. Məclisi-Müəssisan intixablarından [seçkilərindən] görüldüyü vəchlə [görüldüyü kimi] bu firqə az da olsa əhalidən bir qisminin və ələlümdə [başlıca olaraq] müsəlman olmayan qisminin rəyini almış olduğunu nəzərə alaraq, Məclisi-Məbusan yuxarıdakı istidadan çıxan xüsusiyyətlərə ələlümum [ümumiyyətlə] riayət edərək qərar verir ki, Məclisi-Müəssisan seçkilərində siyahısı olub da Azərbaycan daxilində rəy [səs] almış olan və milli komitələr vasitəsilə nümayəndə göndərmək istəməyən firqələrə, aldıqları rəylər nisbətində yer verilib, bu yerlər dəxi – müsəlman siyahılarından [Məclisi]-Məbusana girməmiş bir firqə siyahısı olmadığından – yalnız əqəliyyət milli komitələrinə verilən yerlərin hesabına çıxılsın.

İstənilən yerin miqdarı haqqında isə Məclisi-Məbusan Etibarnamə komisyonunun tədqiqi və bu xüsusda gələn məclisi-ümumiyə [ümumi iclasa] verəcəyi məruzəsi üzərinə qərar veriləcəkdir.

**Sosialistlər fraksiyonunun sorğuları**

Axırda Sosialistlər fraksiyonu Tağıyev fabrikasında çalışan 10 müsəlman fəhləsinin qovulması haqqında Məsai [Əmək] nazirinə xitabən və Ermənistan Cümhuriyyəti ilə bu vaxtadək siyasi əlaqə peyda və diplomasi nümayəndələr təyin edilməməsi haqqında Xariciyyə nazirinə xitabən birər sorğu verir. Fəqət, məclisdə kvorum olmadığından iclas qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

Zürixdən yazılır: Parisdə ümumən tərk-silah məsələsi müzakirə edildiyi bir vaxtda, Berlində Yeni Almaniya Hökuməti təzə alman ordusu təşkili məsələsini müzakirə edir. İndi anlaşılır ki, Almaniya Hökuməti yeni qoşun təşəkkülü barəsində Almaniya Məclisi-Müəssisanına bir layihə təqdim edəcək, bu layihə ilə bütün Almaniya üçün bir imperiya ordusu təşkil ediləcək və bu ordu Berlin Hökuməti komandanına müti olacaqdır.

**Bolşeviklərin məğlubiyyəti**

Soçi - General Denikin ərkani-hərbi [qərargahı] xəbər verir:

Yanvarın 17-də Svyatoy Krest cəbhəsində başlanan müharibə bu hərbi nöqtənin işğalı ilə nəticələndi. Bizim süvarilərimiz külli qənimət almışlar, o cümlədən avtomobil, aeroplan və sair ləvazimi-hərbi [hərbi ləvazimat] almışlardır. Yanvarın 19-da Proxladnı cəbhəsində biz Georgiyevsk şəhərini almışıq. Mineralnı Vod[ı] cəbhəsində bizim qitəatımız Kislovodsk ilə Həsəntukini [Yessentukini] almışlardır. Həman gün Pyatiqorsk yanındakı Beştau dağları al[ın]mışdır. Orada bolşeviklərdən 600 nəfər əsir götürülmüşdür.

## SÜLH ƏTRAFINDA

* Sülh Konfransında Əqsayi-Şərqdə [Uzaq Şərqdə] və Bəhri-Mühitdə [Sakit Okeanda] olan Almaniya müstəmləkələri məsələsi, hakəza [eləcə də] "Cəmiyyəti-əqvam"ın [Millətlər Cəmiyyətinin] əsaslı məsələləri müzakirə edilmişdir.

* Tiflis - (Fransız mətbuatı) Konfransın səhərki iclasında Avstraliya, Yeni Zellanda, Yaponiya və Çin nümayəndələri danışmışlardır. Axşam general Simson və Fransa müstəmləkə vəziri müstəmləkə məsələsində olan rəylərini bildirmişlərdir. Bundan əlavə, Cəmiyyəti-əqvam əsasları və onu vücuda gətirmək məsələsi müzakirə edilmişdir.

"Pati jurnal" Sülh Konfransında Simsonun Afrikada Toqo və Kamerun müstəmləkələrinin Fransaya müti olması haqqındakı bəyanatından bəhs açaraq deyir ki, hərgah bu yerlər Fransaya verilərsə, Fransa qayət liberal üsul yeridərək məhəlli [yerli] əhalini mühafizə edəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Tersk oblastında**

Tiflisdə alınan ən mövsuq [etibarlı] xəbərlərə görə, bolşevik hökuməti Vladiqafqazdan qaçmışdır. Şəhər bolşeviklərlə dost olmağa məcbur olan inquşlar tərəfindən zəbt edilmişdir. Sunca xəttində böyük qarışıqlıq vardır. Bolşeviklər işi uduzmuş görüb, bir çoxları özlərinin bu firqəyə mənsub olduqlarını gizləməyə çalışırlar. Gürcüstanla möhkəm münasibat [əlaqələr] bərpa etməkdən ötrü bu günlərdə Vladiqafqazdan Tiflisə inquş nümayəndələri gələcəklərdir.

**İnquşlar və bolşeviklər**

Vladiqafqazda nəşr edilən "Narodnaya vlast" qəzetəsi yazır kı, inquş xalqı ictimai qərar qoymuşdur kı, aşkara surətdə xəbər versin ki, Şura Hökuməti başlanan zamandan inquş camaatı Şura Hökuməti platformasında durub öz müqəddəratını Şura Hökumətı ilə birləşdirmişdi. Hərçənd hal-hazırda Şura Hökumətinin cəbhəyə müsəlləh [silahlı] dəstələr göndərməsi dəvəti inquş xalqı adına şəhərdə buraxılan müfəttinliyin [fitnəkarlığın] artması münasibətilə inquş xalqının ağır bir halında isə, yenə də təzədən silah əlimizdə bütün cümhuriyyət vətəndaşları ilə bir yerdə Şura Hökumətini mühafizə etməyə hazır olduğumuzu izhar edirik [bildiririk].

**Polşa Hökumətinin həbsi**

Varşavada çıxan "Paranna" qəzetəsi xəbər verir:

Yanvarın 5-də gecə milli demokratlar, Kabinə rəisi Pilsudskini iş başından düşürmək istəmişlərdir. Paderevski Pilsudskidən tələb eyləmişdir ki, Polşanın üç hissəsindən milli hökumət dəvət eyləsin. Pilsudski bu tələbi rədd eyləmişdir. Şuradan qayıtmış olan vəzirlər, Baş vəzir və sair kabinə üzvləri həbs edilib, sui-qəsdçilərin ərkanına [qərargahına] aparılmışlardır. Sübh vaxtı Yanuşaytisin qoşunları tərəfindən hökumət imarəti işğal edilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

"Tsaturin" cəmiyyəti qulluqçularından bir dəstə müsəlman fəhlələri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişlər onlar barəsində cəmiyyət indində [nəzdində] təşəbbüsatda bulunsun. Zira cəmiyyət onların zəhmət haqları barəsində kəmetinalıq edərək, layiqli surətdə məvaciblərini verməyir. Binaəni-leyh [ona görə] Məsai Nəzarəti tərəfindən Baş Fabriçnı inspektora [Baş Fabrik müfəttişinə] məzkur [deyilən] fəhlələrin ərizələri göndərilib, lazımi tədabir ittixazı [tədbirlərin görülməsi] tapşırılmışdır.

- Bu gündən etibarən Məsai Nəzarətinə qulluq istəmək üçün veriləcək ərizələr qəbulu qət edilmişdir [kəsilmişdir].

**Ticarət və Sənaye Nəzarətində**

Maliyyə Nəzarəti Ticarət və Sənaye Nəzarətinə məlum etmişdir ki, hökumətin 21 oktyabr 1918-ci sənə qərardadı mövcibincə [əsasında] neftdən 3-7 rublə vergi alınmalıdır. Binaənileyh Ticarət və Sənaye Nəzarəti, Neftçilər İttifaqı ilə işbu məsələyə dair əlaqə peyda edib, qərardadın qövldən feilə gəlməsi [həyata keçirilməsi] barəsində lazımi tədbiri ittixaz etməlidir.

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN

Azərbaycan Hökumətinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını xüsusi bir general-qubernatorluğa ayırması münasibəti ilə Ermənistan Hökumətinin protesto etdiyi xəbər verilmişdi. Şimdi Ermənistan Hökumətinin prostestosuna cavab olaraq Azərbaycan Hökuməti Ermənistan Xariciyyə nazirinə böylə bir teleqraf göndərmişdir:

*"İrəvan. Ermənistan Hökumətinin Xariciyyə nazirinə.*

*Azərbaycan Cümhuriyyətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur uyezdlərini müvəqqət general-qubernatorluğa ayırması qərarına görə sizin hökumətinizin protestosu əsassızdır. Çünki məzkur [adı çəkilən] qəzalar Azərbaycanın ayrılmaz parçalarıdır. Azərbaycan Hökuməti ali idarə qanununca öz torpağında olan əhalisinin bilafərqimillətü məzhəb [millət və din fərqi olmadan] həyatını, namusunu və malını məsuliyyətsiz adamların key fəmayeşasından [özbaşınalığından] mühafizə etməsi bir tək hüquqi deyil, hətta mənəvi vəzifəsidir. Buna görə, bizim hökumətimizin məzkur qəzalara general-qubernator təyin etməsi Ermənistan Hökumətinin hüquqi-mülkiyyəsinə təcavüz deyildir. Biləks [əksinə] sizin hökumətinizin bu münasibətlə protesto etməsi bizim daxili işlərimizə müdaxilə etmək təşəbbüsü olmaq üzrə haqqi-hakimiyyətimizə təcavüz deməkdir.*

*Nömrə 176, 31 yanvar.*
*Xariciyyə naziri əvəzinə Ədil xan Ziyadxanov."*

## MİLLİLƏŞMƏK ƏLAMƏTLƏRİNDƏN BİRİ

"Azərbaycan"ın 98-ci nömrəsində Bakı müəllimlərinin gözəl bir təşəbbüsatını oxuduq: Milliləşdiriləcək məktəblərimizə layiq müəllimlərin arada olmadığı cəhətinə, buna bir çarə aramaq üçün Bakı müəllimləri yığılıb müvəqqəti bir ehtiyat [hazırlıq] kursu açmaq niyyətinə düşmüşlər. Bunu əncama gətirmək üçün və buna dair daha ətraflıca məlumat cəm etmək məqsədi ilə məsələni xüsusi bir komisyona həvalə edirlər. Zatən bu təşəbbüsat müəllimlərin deyil, şəhər Məkatib [Məktəblər] komisyonu müdiri Əlicabbar Orucəlizadə cənabınınkıdır. Şəhər məktəblərinin halı və ələlxüsus gələcək halı bu cənabı düşündürür, həyəcana salır: milliləşəcək, daha doğrusu türkləşəcək məktəblər üçün müəllimləri haradan almaq? Bunun üçün seminariya və institut kimi darülmüəllimlərimiz [pedaqoji məktəblərimiz] açılmamışdır. Meydanda bulunan müəllimlərimiz də türkcə kəmsavad olduqları cəhətə bu işə yaramayacaqlar.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 2 fevral (Bazar günü) tarixli 103-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bəs buna çarə nədir?

İştə buna hələlik ehtiyat kursundan başqa bir çarə yoxdur. Orucəlizadə cənabı məsələni böylə kəşf və həll etmişdir. Bizim də rəyimiz budur. Lakin burada bizi təşvişə salan iki şeydir: Əvvəla, vəsət [orta] məktəblərdəki elmlərin türkcə təlimini edə biləcək mütəxəssislər Qafqaz dairəsində tapılacaqlarmı yoxsa bildirki kimi türk tarixini axund təlim edərsə, beyhudə məsarifdən başqa aralığa da bir şey çıxmaz. İkincisi, müəllimlərin bu kurs barəsində irad etdikləri [söylədikləri] nitqlərindən böylə görünür ki, bunların məişəti təmin olunmayınca, açılacaq kursa da hüsn-rəğbət göstərilməyəcəkdir. Zənn olunur ki, bildirki bəla bu ilki kursun da başına gəlmiş ola. Yəni, kurs açıldığı halda, müəllimlərin etinasızlığı cəhətə burada mütəxəssisləri dinləməyə adam da tapılmasın. Öylə olarsa, Əlicabbar əfəndi zəhmət çəkməsin. Əbəs yerə şəhərin bu ağır günlərində aqçaya [pula] özünün möhtac olduğu zamanında həm pulları tələf olub gedər, həm də bununla kəmində yatmış [pusquda gözləyən] düşmənlərimizə özümüzün milliyyət fəqərəsində [məsələsində] acizliyimizi isbat edəriz!

Məişət bəlasına, güzəran ağırlığına giriftar olanlar, bir müəllimlər həzəratı deyil. Bunun zərbəsindən bu gün tamam bəninöv'i-bəşər [bütün bəşəriyyət] təngə gəlmişdir. Bahalığın şiddətindən, məvacibin azlığından hangi əsnaf qismi şikayət etməyir? Bugünkü məvaciblər, müştərək müqavilənamələr kimi razı sala bilmişdir? Müəllimlərin məişəti təmin olunsun deyə buna birinci və ciddi tərəfdar olmağımı keçmiş məqalələrdə isbat etmişdim. Lakin məvaciblərin müzayidəsi [artırılması] ilə məsələ həll olunmayır. Zira bugünkü məişət atlı, məvacib isə piyada mənzələsində [məqamında, dərəcəsində] olaraq biri-birinin ardınca çatıb bərabərləşə bilməyirlər. Dəfəatala [dəfələrlə] fəhlələrin məvacibləri artırıldı. Artırıldıqca da məişət çətinləşdi. Bəs [deməli], məvacibin artması bahalıq bəlasını rədd etməyir. Buna ayrı bir çarə lazımdır ki, tamam kürreyiərzin ərbabi-fününunu [bütün yer kürəsinin elm adamlarını] bu məsələ düşündürür; həyəcanlara, əndişələrə salır...

Zənnimcə müəllim əfəndilər güzəranı asanlaşdırmaq üçün sair müəssisələrə müraciət etməlidirlər. Açılacaq kursla güzəranın nə bir əlaqə və rabitələri vardır ki, bunları bir aralığa toplayaraq "bizim halımız xoşlanmazsa, böylə kursların da qapıları, guya, bağlı qalar" mülahizəsində bulunmuşlardır. "Müəllimlərin halı fənalıqda davam edərsə, yüz kurs açılsın, bir şey də hasil olmaz" demişlər.

Əfəndilər! Vaxtın təqazası [tələbi] sizi düşündürsün. Kursun qapılarını bağlı qoymaqla sizin qarnınız doymaz, amma övlad və vətən hüzurunda məsul və məhkum qalarsınız! Sairlər kimi siz də şəhər idarəsindən, yaxud hökumətdən tələb ediniz ki, halınıza qalsınlar, maddi ehtiyacınızı rəf etsinlər [aradan qaldırsınlar]. Bəlkə bəzi ağır ailəli müəllimlərin kursa getmək imkanı yoxdur, bu başqa məsələdir. Lakin işə ümumiyyət donu geydirib maraqlıları, həvəsliləri həvəsdən salmağın mənasını anlamayıram. Zənnimcə, bir çox cavan müəllimlərimiz böylə kursların talibi və düşkünləridir. Qoy bu cavanlar işləsinlər, çalışsınlar. Milliləşəcək məktəblərimizə də sahib dursunlar. Yoxsa istirahətə xələl qatılmazsa, yenə məhkum millətlərin cərgəsində qalarız!

Əlavə, kurs açılarsa, bir çox istedadlı müəllimlərimiz kursda hazırlanıb ibtidai məktəblərdən vəsət məktəblərə köçə biləcəklər. Müəllimlər üçün həm maddi və həm də mənəvi bu bir xoşbəxtlikdir ki, bunu əldən məbada buraxalar!

İştə, məsələnin bu cəhəti nəzərə alınarsa, bir müəllim deyil, tamam ziyalılarımız bu işə müavinət [kömək] göstərməlidirlər. Hər şeyi hökumətin öhdəsinə tullamaq olmaz. Gərək camaat da bir qımıldansın, hərəkətə gəlsin! Müəllimlər İttifaqına və ələlxüsus bəzi əhlinüfuz [nüfuzlu] müəllimlərə lazımdır ki, fürsəti fövt etməsinlər. Kursa yoldaşların meylini cəlb edib, maraqlıların siyahısını tutsunlar. 30-40 nəfərin siyahısı tutularsa, kursun açılmasına var qüvvələri ilə çalışsınlar. Təlim müddətinin axırınadək adları yazılmış əşxasın [şəxslərin] davamına səy etsinlər. Böylə olarsa, açılacaq kursun fayda və nəticələri də böyük olar. Ey kaş arzumuz baş tutaydı!

Kursun məsarifinə [xərcinə] gəldikdə, Əlicabbar əfəndinin təqdimatından böylə məlum olur ki, bu cənabın vəsatəti [vasitəçiliyi] ilə Şəhər İdarəsi 30 min rublə, yarısı müsəlmanlara və yarısı da ermənilərə olmaq şərti ilə bir məbləğ buraxacaqdır. İştə məsələnin bu cəhətini biz bir dürlü anlamadıq. Əlicabbar əfəndidən bu xüsusda qəzetə vasitəsi ilə izahat istəməyə məcburuq. Sonra biz də öz mülahizəmizi deyərik.

*Fərhad Ağazadə*

## HƏSB-HAL [DƏRDLƏŞMƏ]

Mən daima qəzetə oxuyanlardan deyiləm. Heç oxumayıram zənn etməyiniz. Ara-sıra qəzetə oxusam da hərb-zərbə, vəhşət və cinayətə dair xəbərlərdən xoşlanmam, məyusanə baxıb keçərəm.

Məslək etibarı ilə sosialist-demokrat olduğumdan, beş ildən bəri bəşəriyyətin keçirdiyi alam [ələmlər] və iztirabdan öz hissəmi almışam və almaqdayam. Bu rəqsi-mərga-mərg [qırğın rəqsinin] nə vaxt xitama ərəcəyini bilməm.

Barışıq olmuş, olacaqmış kimi rəvayətlər eşitdiyim halda, yenə keçənlərdə əlimə keçən bir qəzetədə gürcü-erməni toqquşmasını, İrəvanda və sair yerlərdə Erməni Cümhuriyyəti demokrasi şərəfinə irəvanlı və digər kəndli müsəlmanların qurban kəsilmələri və qurban olmaq şərəfinə nail olduqlarından oxuyub, omuzumu silkib dedim ki:

Millətim növ'i-bəşərdir, vətənim ruyizəmin.

Qardaşım ölmüş, anam, atam, qövm-əqrəbam... məscidi və minbəri, hətta axundilə bərabər hindlilərin ölüsü kimi yanmış! Bu ayini-ruhanini [dini ayini] əlbəttə erməni qardaşlarım icra etmiş. Zira bu qədər illərdən bəri yıxılan evlər, yanıb xakistər [kül] olan xanimanlar, nəhirlər kimi fışqırıb axan qanlar, paymal olan [ayaq altında tapdalanan] şərəflər, namuslar; inləyən, ağlayan sansız yetimlər, aclar, fəlakzədələr və bədbəxtlər, sürü-sürü səfillər kimdir, kimlər? İnsan! Bu şənayeni [rəzillikləri, biyabırçılıqları] icra edənlər mədənilərin bir üzvi-mühümmü [mühüm bir üzvü] deyilmi? Bəli, insanlar, insanlar... "Xələqallahu bəşər əla-surəti..." [Allah insanı ... surətində yaratmışdır] deyə öz-özümə həsb-hal edərək qəzetəni bir kənara atdım. Birdən-birə yadıma möhtərəm bir axundun verdiyi nəsihət gəldi. Deyirdi ki:

Oğlum məşhədi! Sən daha gəncsən, dünyanın yaxşı-yamanını bilməzsən, dostunu-düşmənini fərq edəmməzsən. Mən sənə söyləyəyim, sən qızıl küpə* et, qulağına tax: şeytanlar iki cürdür: biri cinlər, digəri insanlar ki, "Qurani-Kərim"də deyir:

"Yuvəsvisu fi sudurinnasi minəl cinnəti vənnas"

Sən gözə görünməyən şeytanlardan qorxma, insan şəklində şeytanlardan həzər et, qorx! Bu bir.

Hər cür qəzetə və risalələrə inanma. Oxuma deməm, oxu. Öz ağlın[ın] tərəzisinə çək, mühakimə et, yaxşı-yamanını ayır; yaxşısına əməl et, yamanını bayıra at. Çünki qəzetə yazanların çoxu adəm surətində olan şeytanlardır. Hamı yazıları yalan, öz kisələrini doldurmaq üçün cürbəcür [v]uruşmalar, toqquşmalar, cinayətlər, cürəbəcür səfsətə yazırlar, səni aldadırlar. Bu iki.

Üçüncü olaraq kəşfi-istiqbal və hal [gələcəyi və indiki zamanı bilmək], müşkül şübhələrin həqiqətini anlamaq üçün bir fal öyrətmişdi.

O zaman axund babamın nəsayehini [nəsihətlərini] xatırlayaraq ruhumu sıxan qəzetə həvadislərini [xəbərlərini] günlüyümdən silib atdımsa da, yenə şübhələrim getdikcə böyüyürdü. Bu şübhələrin izaləsi [aradan qaldırılması] üçün fal açmağa məcbur oldum. Hesabi-rəml, hesabi-cəml ilə bir az ulduzlarla uğraşdım. Qəməri Əqrəb bürcündə, Zöhrəni Əsəd bürcündə gördüm. Fal açmaq yaxşı deyil. Nə çarə, səbr edəmmədim. Aradım, əski bir əl yazısı kitab buldum. Şərt-şəraitini yerinə gətirdikdən sonra – tə'viz [dua] və bəsmələ [bismillah oxumaq]... kitabı açdım. Yeddi vərəq sağdan açdıqdan sonra yeddinci sətirə baxdım. Bilirmisiniz nə yazılmış?

*Bəni-adəm əz qorgü səg bədtərənd*
*Həmə təşneyi-xuni-yek-digərənd...*
*Yekira dəhəd laşeyi ruzqar*
*Digər qorghara nəmanəd qərar*

Bu fal heç xoşuma getmədi. Soldan yeddi vərəq çevirdim, yeddinci sətirə baxdım. Bir cür sözlər yazılıb amma silinmiş, zorən oxudum:

*Ey irəvanlı yarım, unutmam səni,*
*Aylar, günlər deyil, keçsə də illər.*
*Nə xoşkam eylədi itabın bizi,*
*Çıxarmı yadımdan o qanlı günlər.*

Oxudum amma "amənna və səddəqna" [inandıq və doğruluğunu təsdiq etdik] deyəmmədim. Kitabı qapadım. Bir az mülahizədən sonra təkrar irəvanlıların halına baxmaq üçün əvvəlcə zikr etdiyim vəchlə [dediyim kimi] fala başladım. Yeddinci vərəqin yeddinci xəttində böylə yazır:

*İrəvanlı cavanın coşğunluğu var,*
*Bir tərsa düxtərin mübtəlasıdır.*
*Qudurmuş gəziyor, bilməm nə arar,*
*İrəvanlının əski bir sevdasıdır.*
*Öylə bir canidir, heç yoxdur eşi,*
*Kim görsə can verər o ifritvəşi,*
*Əməl yavrusu, əzrayıl yoldaşı,*
*Cəhənnəm odunun bu ziyasıdır.*
*Qurulmuş tüfəngi, hazır patronu,*
*Titrədir qəhr ilə hər müsəlmanı,*
*Ona halaldır hər insan qanı,*
*Bu da xilqətinin müqtəzasıdır.*
*Mərhəməti yoxdur, dinləməz ahı.*
*Min insan öldür[ər], hər bir nigahı,*
*Əcəl dedikləri əmri-ilahi,*
*Qəmzəsinin qədim aşinasıdır.*
*Pək yaxşıdır onun böyük xülyası,*
*Hər sözü, röyəti, tövrü ədası.*
*Vəfadan dəm urur, yoxdur vəfası,*
*Dəm ursa da quru iddiasıdır.*
*Rəvadır qan yutmaq dərdli kəndliyə,*
*Haqqıdır ağlamaq yaşlı gözünə.*
*Bir nəzər eylə bəs soluq üzünə,*
*Kəndli insanların biriyasıdır.*
*Bağışlar qılıncı İrəvana qüvvət,*
*Əmrilə fəth olar neçə məmləkət.*
*Yer edir səy ilə böyük bir millət,*
*Ərmən millətinin "İndira"sıdır.*

İştə yuxarıdakı sətirləri güc hal ilə hesabi-rəml və cəfrin yardımı ilə oxudum. Amma bilməm cinlərmi, mələklərmi yazmış, silmiş. Təəccüb ediləcək şeylər! Həman [dərhal] kitabı qapadım. Bir az düşündüm. Öz-özümə: haydi, şu Azərbaycanın falına bax, deyə kitabı təkrar əlimə aldım. Niyyət etdim, kitabı açdım. Yeddinci vərəqin yeddinci sətirində böylə yazılmış:

*Millətə vermək əgər istər isən feyz[ü] fəlah,*
*Fəhlənin halını sor, haqqını ver, mahbəmah.*
*Demə bir gün oluruz bəxtəvər inşəallah,*
*"Hazır ol cəngə, əgər istər isən sülh[ü] səlah."*

İştə bundan qabaq açdığım falları və indiki falların mənasını bir cür anlayammadığımdan falları eynən olduğu kimi nücum və cəfrdən anlayan mütəxəssislər varsa, lütfən səhv və xətamı ixtar etsələr, əşrəf saatda [saatın xoş vaxtında, duaların qəbul olan vaxtında] haqlarında duayi-xeyr [xeyir-dua] edib, sənaxan olaram [onları tərifləyərəm, mədh edərəm].

*Xoşxəvərov Hurəndişan*

**İdarədən:** Açdığınız "fallar" o qədər aşkardır ki, mütəxəssislər təfsirinə ehtiyac yoxdur, zənn edirik.

* Küpə - yəni güşvarə [sırğa]. İdarə.

## MƏTBUAT

Axır günlər mətbuatımız Azərbaycan sosialistlərinin mürəvvici-əfkarı [orqanı] olan gündəlik "Zarya" (Tülu) və Azərbaycan İctimaiyyuni-inqilabiyun [Sosialist-inqilabçılar] firqəsi orqanı olub da, həftədə iki dəfə çıxan "Zemlya i volya" (Torpaq və ixtiyar) nam [adlı] iki yeni qəzetələrlə zənginləşmişdir.

"Zarya" birinci nömrəsində Zaqafqaziya millətlərinin yüz illərdən bəri bəylər, xanlar, məliklər, şahlar və knyazların və daha sonra yüz ildən ziyadə Rusiya istibdadı altında əzildiklərini və sonra Rusiya inqilabı nəticəsində Zaqafqaziyada dörd cümhuriyyət elan etdiklərini qeydlə, burasını demokratiyanın böyük qələbəsi kimi göstərir və axırda türk demokratiyasının vəzifəsinə keçərək deyir ki:

*"Biz səy edəcəyiz zəhmətkeş kütləmizə bəşəriyyət və sosializm ideayası verək. Biz ümum hürriyyət bədxahları ilə mübarizə edəcək, ümumiyyətlə, xırda millətlərin, xüsusən Azərbaycanın istiqlalı düşmənləri ilə vuruşacağız. Bundan əlavə, demokratiyanın daxili düşmənlərilə onun hürriyyətini boğan, zəhmətindən sui-istifadə edənlərlə də rəhmsiz bir surətdə mübarizə edəcəyiz və bu işdə qonşu demokratiya ilə əlbir işləyəcəyiz."*

İkinci nömrəsində yenə həman qəzetə Zaqafqaziya və əzcümlə [o cümlədən] Azərbaycan demokratiyasının əvvəlcə çarizm və sonra bolşevizmin sövqü ilə ümum demokratiyadan ayrılaraq istiqlal elan etdiklərini və Azərbaycan müsəlman sosialistləri öz demokratiyasının nicatını yalnız burada görərək həmin nöqteyi-nəzəri qəbul etdiklərini qeydlə yazır ki:

*"Əlbəttə, bu işi 'Yedinaya Rossiya'lı ağalar və milyukovlar kimilərə xoş getməzdi. Onlar sair millətlərə hakim olmaq, onların dərisini soymaq kimi əski adətlərindən ayrılmayırlar. Dünkü 'tatar'ı bu gün kəndi hökumətinə, parlamanına və ana dilinə malik, azad bir millət gördükdə ürəkləri ağrıyır."*

Böyük rusiyaçıların sair millətləri istiqlala layiq bilmədikləri və hökuməti öz əllərinə almağa çalışdıqlarını bəyanla qəzetə, sosialistlərin bu məsələdə tutduqları tərzi-hərəkətə nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

*"Stolıpin qəhrəmanlarının böylə hərəkəti bizcə aydın və anlaşılan bir şeydir. Fəqət məmləkətdə asayiş, nizam və hüquq paydar [bərqərar] etməkdə bizə maneələr çıxaran sosialist yoldaşlarımızın aldıqları vəziyyəti bir dürlü anlamayırız. Axır bu yoldaşlarımız Zaqafqaziya demokratiyasının iki illik müddətində nə kimi şərait altında və nə surətlə istiqlal yoluna düşdüklərini görmüşlərdir. Məmləkətdə demokratik üsuli-idarə quruluşunda bizə kömək etmək əvəzinə, neçə ay boş danışıqlarla keçirmişlərdir. Hətta əsasən qəbul etdikləri təyini-müqəddərat məsələsində də bizim haqqımızı tanımaq istəməyirlər. 'Z. truda' mühərrirlərindən birisi bizim Parlamana layiq olmaq haqqımızı danaraq deyir ki, bunu bizə ancaq ya əcnəbilərin təsdiqi, ya Rusiya Məclisi-Müəssisanı verə (?) bilər. Bu surətlə sosialist bir mühərririn zənnincə Azərbaycan demokratiyasının arzusunun qiyməti yoxmuş. Bəlkə burjua-imperialist hökumətlər yaxud Rusiya Məclisi-Müəssisanının arzusu qiymətli imiş. Ona görə məntiq böylə çıxır ki, ya sosialistlər özlərinin təbliğ etdikləri əsasa inanmayaraq əsasən qəbul etdiklərinin feilən icrasından qaçırlar, yaxud ümum sosialistlər prinsipini[n] Kerenski [kimi] bunlar da bizim haqqımızda tətbiq edilməsinə razı olmayırlar."*

Əlbəttə, bu gün bizi uzaq bir Məclisi-Müəssisana göndərənlərin bugünkü xətti-hərəkətləri o məclisdə də nə vəziyyət alacaqlarını isbat edir. Zatən buna bizim heç şübhəmiz də yox idi. Fəqət Azərbaycan türk sosialistlərinin tərzi-hərəkətləri, gərək Parlamanımızda və gərəksə mətbuatımızda aldıqları vəziyyət, bizi şad etdiyi qədər türk demokratiyasının naili-məram olacağına [arzularına çatacağına] ümid verərək bir daha artıq ruhlandırır. Rəfiqimizə müvəffəqiyyətlər diləriz.

"Zemlya i volya"nın birinci nömrəsi çıxmışdır. Fəqət görünür ki, "Kəndçi və fəhlə" kimi bu qəzetə dəxi Ziya paşanın "Ayinəsi işdir kişinin..." şeiri məfhumunca [mənasına uyğun olaraq] Azərbaycan istiqlalı haqqında fikrini əsəri ilə isbat edəcəkdir. Əgər həman nömrəsində sair firqələrin rəyini açıq-aşkar bilmək istəməsəydi səbrlə gözlərdik. Lakin madam ki, özü sair sosialistlərin fikrini açmağı tələb edir, biz dəxi deyərdik ki, bismillah, başqaları üçün bir misal ol.

## BAKI XƏBƏRLƏRİ

**Pul tapılıbdır**

Yanvarın 31-də Tarqovı küçədən 500 manat pul tapmışam. Bu pul hər kəsindirsə üç günə qədər gəlib nişanələrini söyləyib, pulunu ala bilər. Adres Verxni-Təzəpir küçəsində, 134 nömrəli evdə, Ələsgər Əbdülbaqi oğlu.

**Fəhlələrin nəzəri-diqqətinə**

Bakı və ətraf mədənlərdə işləyən müsəlman əmələlərinə elan olunur ki, beynəlmiləl müsəlman fəhlə konfransı bu bazar günü fevralın 9-na təyin edilmişdir.

*"Müsavat" firqəsinin*
*məlumat şöbəsi.*

**Bələdiyyə İdarəsində**

Bu gün saat 1-də Bələdiyyə İdarəsi salonunda müsəlman qlasnılarının müşavirəsi dəvət edilir. Müşavirə Bələdiyyə Məclisinin baqi [öz yerində] qalmasına münhəsir [həsr] ediləcəkdir.

* Mərkəzi Ev Komitəsi, Bələdiyyə İdarəsinə bir kağız göndərib məlum etmişdir ki, alınan məlumata nəzərən şəhər elektrik işığı qiymətlərini artırmaq üçün Bələdiyyə İdarəsi cənbində [nəzdində] bir komisyon təşkil edilmişdir ki, işbu məsələ ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Mərkəzi Ev Komitəsi rica etmişdir ki, məsələ əhali və ev təşkilatlarına aid olduğu üçün bir nəfər Mərkəzi Ev Komitəsinin nümayəndəsi o komisyonda iştirak etməsi mütəmənnadır [arzu olunur].

* Bakı Dərmanxana Xidmətçiləri İttifaqı Bələdiyyə İdarəsinə məlum etmişdir ki, kanuni-saninin [yanvarın] 26-sında dərmanxana sahibləri ilə bərabər in'iqad edən [baş tutan] iclasda tətili qət etmək [kəsmək] istənilmişsə də, müvəffəq olunmamışdır. Zira dərmanxana sahibləri xidmətçilərlə razı olmaq istə[mə]mişlərdir. Şimdi bunlar bacardıqları qədər tətili qət etmək üçün tədabirdə bulunurlar [tədbirlər görürlər]. Məsələn onlar razıdırlar ki, yeni məvaciblər yanvarın 15-dən hesab olunsun. Dərmanxanaların daxili işləri ilə xidmətçilərin əzl [işdən azad edilməsi] və qəbulu məsələsində dərmanxana sahibləri ilə razı ola bilməyəcəklərdir. "Ermans" dərmanxanasında tətilin qət edilməsinə səbəb oranın bir nəfərə məxsus olmasıdır.

**Bakı şamaxılılarına**

Bakıda sakin olan cəmi Şamaxı qaçqınlarına elan olunur ki, bu çağa kimi onlara Ümuri-Xeyriyyədən [Sosial Təminat Nazirliyindən] müavinət olunurdu. Bundan sonra isə bu müavinət Şamaxı Həmtorpaqlılar Cəmiyyəti vəsatəti [vasitəçiliyi] ilə olasıdır. Bundan dolayı, ianəyə ehtiyacı olanlar gərək fevralın 3-dən, düşənbə [bazar ertəsi] günündən etibarən hər gün saat 12-dən 3-ə kimi Bələdiyyə imarətinin 3-cü mərtəbəsində Həbib bəy Mahmudbəyov cənabları dəftərxanasına müraciət etsin və məzkur [adı çəkilən] cəmiyyətdən kitabçası olsun. Bu kitabçasız heç kimə kömək olunmayacaqdır. Qabaqda verilən ərizələr də bisərəncam qalasıdır.

*Şamaxı Həmtorpaqlılar Cəmiyyəti*

* Ərzaq Nəzarəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, bu vaxtadək Ərzaq Nəzarəti müsri [yoluxucu] xəstələr xəstəxanası üçün nisyə ərzaq və mühimmat buraxırdı. Bundan sonra isə 4 milyon rublə hökumət tərəfindən xəstəxana güşadına [açılışına] təxsis olunmasını [ayrılmasını] nəzəri-etibara alaraq, nisyə mal buraxılmayacaqdır. Bələdiyyə İdarəsi Ərzaq Nəzarətinə məlum etmişdir ki, təxsis edilmiş 4 milyondan hələlik 1 milyon alınmışdır ki, fəqət [yalnız] xəstəxananın məxaricatına [xərclərinə] kifayət edə biləcəkdir.

## YENƏ BEZ MƏSƏLƏSİ

**Ərzaq Nəzarətinin təhqiqat və təqibatı**

Həmin yanvar ayının əvvəllərində Gəncə uyezdinə tabe Dəllər camaatı vəkili namı ilə Məşhədi Məhəmməd Vəli oğlu nam birisi məzkur [adı çəkilən] kənd əhalisinə paylanmaq üçün bez almaqdan ötrü Ərzaq Nəzarətinə müraciət etmiş idi. Ərzaq Nəzarəti yanvar ayının 5-də 98 nömrəli təhqiqat vərəqəsi ilə Gəncə qaimməqamına (uyezdni naçalnikinə) müraciətlə Məşhədi Məhəmmədin məzkur kənd əhalisi tərəfindən vəkil olub-olmadığı haqqında təhqiqat icra olunmasını əmr etmiş.

Nəticədə qaimməqam cənablarından 18 yanvar tarixli və 89 nömrəli alınmış olan təhqiqat vərəqəsi bundan ibarətdir. Qaimməqam yazır:

*"Bununla Ərzaq Nəzarəti idarəsinə ərz edirəm ki, məzkur Məşədi Məhəmməd Vəli oğlu adi bir tacirdir və Nəzarəti-cəlilənizdən [ulu Nazirliyinizdən] tələb eylədiyi manufakturanı öz mənfəəti üçün istəmişdir. Burada manufaktura qəhətliyi vardır. Əgər hökumət camaatın bu xüsusdakı zəruri ehtiyacatını rəf etmək [aradan qaldırmaq] istəyəcək olarsa, lazım olan manufakturanı ya kooperativlər vasitəsi ilə və yaxud Ərzaq Nəzarətinin öz məmurları təhti-nəzarətində [nəzarəti altında] əhali arasında təqsim etməlidir [paylamalıdır]."*

## İDARƏDƏN CAVABLAR

**N. S. əfəndiyə:** İmzanızı açıq yazmalısınız.

**"Demokrat olmaq asan deyil" məqaləsini göndərmiş əfəndilərə:** Məqalənizi "Al bayraq" rəfiqimizin özünə göndərməniz məsləhətdir.

**"Ufaq müəllim" əfəndiyə:** Əvvəla əsgərlik işimizdə əvvəllərdə müşahidə edilən nöqsanlara Hərbiyyə Nəzarəti tərəfindən lazımi diqqət yetirilib islah edilməkdədir və saniyən [ikincisi] məqalə yazarkən kağızın ancaq bir üzündə yazmağı unutmayasınız.


**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçərişəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крепостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Petroqraddan gəlmiş diş həkimi**
**M.B.Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi**
**İ.S.Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Doktor İ.Q.Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9-12-yədək; axşam saat 4-6-ya-dək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*


**Elan**

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti İdarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında pilləkanlardan çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda təxsis edilmişdir [ayrılmışdır]. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

*Ərzaq Nəzarəti İdarəsi*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İki konfrans***

"Versal": bu ad qəzetdə hər yerdə "Versay" kimi verilmişdir.

"Hesab günü": "Azərbaycan" qəzetinin 21 yanvar 1919-cu il tarixli 93-cü nömrəsində gedən yazı nəzərdə tutulur.

"bərzəx": dini təsəvvürə görə cənnət ilə cəhənnəm arasında, yaxud dünya ilə axirət arasında olan və ölənlərin ruhlarının gözlədiyi yer.

"…adilanə ölçə bilər…": "adilanə" sözü qəzetdə tünd və nisbətən böyük şriftlərlə verilmişdir.

"kadetlər": XX əsrin əvvəllərində Rusiyada fəaliyyət göstərən Konstitusion-Demokratik Partiyaya mənsub olanlar.

***Azərbaycan Məclisi-Məbusanında***

"…xüms, zəkat və üşr…": İslamiyyətdə nəzərdə tutulan vergilər. Xüms: qazancın beşdə biri miqdarında verilən vergi. Zəkat: sahib olunan mal və pulun qırxda birinin kasıblara paylanması şərti. Üşr: torpaqda yetişən məhsulun onda birinin vergi kimi verilməsi.

"Hökumət məmurlarının iştirakı ilə Qazax uyezdində bir neçə adam daha da betərdir.": bu cümlə qüsurludur; güman ki, cümlənin bir hissəsi düşmüşdür.

***Teleqraf xəbərləri***

"…Almaniya Hökuməti yeni qoşun təşəkkülü barəsində Almaniya Məclisi-Müəssisanına bir layihə təqdim edəcək...": qəzetdə "edəcək" yerinə "edəcəyini" getmişdir.

***Sülh Konfransında***

"general Simson": Ceffri Spayser-Simson nəzərdə tutulur.

"Pati jurnal" [Le Petit Journal]: 1863-1944-cü illərdə Parisdə nəşr edilən gündəlik qəzet.

***Qəzetələrdən***

"Paranna": Varşavada 1912-1929-cu illərdə çap edilən "Qazeta Poranna dva qroşe" nəzərdə tutulur.

***Həsb-hal***

"Millətim növ'i-bəşərdir, vətənim ruyizəmin": "Millətim bəşər (bütün insanlıq), vətənim isə bütün yer üzüdür." Misra türk şairi Tofiq Fikrətindir.

"Yuvəsvisu fi sudurinnasi minəl cinnəti vənnas": "Quran"ın "Nas" surəsinin 5-ci ayəsinin bir qismi və 6-cı ayəsi. Mənası: "İnsanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da."

"Hesabi-rəml, hesabi-cəml": nöqtə və çizgilərlə, eləcə də yazıda nöqtəli və nöqtəsiz hərflərlə baxılan fal.

"Qəməri Əqrəb bürcündə, Zöhrəni Əsəd bürcündə gördüm.": "Zöhrə" Venera planetinin, "Əsəd bürcü" Şir bürcünün ərəb dilində adı.

"Bəni-adəm əz qorqü səg bədtərənd / Həmə təşneyi-xuni-yekdigərənd...": Farsca; mənası: "İnsan qurddan və itdən betərdir / Hamısı bir-birinin qanına susamışdır. / Birinə rüzgar bir leş verir / Başqa qurdların qərarı qalmır.

"Nə xoşkam eylədi itabın bizi": "Sənin məzəmmətin bizi necə də məmnun etdi."

"İrəvanlı cavanın coşğunluğu var…" misrası ilə başlayan şeir (səh. 13) üçün lüğət

tərsa: xristian
düxtər: qız
ifritvəş: ifrit kimi olan
əməl: arzu
xilqətinin müqtəzasıdır: yaradılışının ehtiyacıdır
nigah: baxış
əmri-ilahi: ilahi əmr
qəmzə: (klassik ədəbiyyatda) sevgilinin süzgün baxışı
aşina: dost, yoldaş
röyət: görüş, baxış
biriya: riyasız, səmimi

"Ərmən millətinin 'İndira'sıdır": güman ki, hind mifologiyasında gözəllik, bəzi hallarda isə müharibə ilahəsi olan "İndira" nəzərdə tutulmuşdur.

"cəfr": hərflər, rəqəmlər və müxtəlif simvollarla gələcəkdən xəbər bilmək.

"feyzü fəlah": bolluq, bərəkət və xoşbəxtlik.

"mahbəmah": aybaay.

"Hazır ol cəngə əgər istər isən sülhü səlah": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır ol." Bu misra türk şairi Abdülhaq Mollanındır. Belə başa düşülür ki, məqalədə istifadə edilmiş misralar, müxtəlif şairlərə məxsus şeirlərin (yaxud bəzi misralarının) dəyişdirilməsi ilə əmələ gətirilmişdir.

"nücum": (ulduzlar) ulduzlara baxaraq gələcəkdən xəbər vermək.

***Mətbuat***

"Z.truda": Rusiyada sosialist-inqilabçılara məxsus "Znamya truda" qəzeti nəzərdə tutulur.

"Ayinəsi işdir kişinin…": Türk şairi Ziya paşanın məşhur misraları belədir:

Ayinəsi işdir kişinin, lafa baxılmaz,
Şəxsin görünür rütbeyi-əqli əsərində.

(Adamın aynası onun işidir, sözünə yox, işinə baxmaq lazımdır; hər kəsin ağlının ölçüsü onun öz əsərində, işində görünər.)

***Bakı xəbərləri***

"Tarqovı": Bakıda, indiki Nizami küçəsi.

"Verxni-Təzəpir": Bakıda, indiki Nabat xanım Aşurbəyova küçəsi.

"qlasnı": yerli özünüidarə orqanının səsvermə hüququna sahib üzvü.

"Dərmanxanaların daxili işləri ilə…": qəzetdə "ilə" yerinə "isə" getmişdir.

**Ziya Bünyadov – 100**



Ölkəmizdə tarix elminin inkişafına dəyərli töhfələr verən akademik Ziya Bünyadov böyük alim, bənzərsiz, nadir bir şəxsiyyət idi. Onun fundamental elmi araşdırmalarında Orta əsr müsəlman Şərqi dövlətlərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı dərin təhlillər əsasında öz əksini tapmışdır. Elmi ictimaiyyətə ilk dəfə çatdırdığı nadir mənbələr indi də davamlı şəkildə istinad olunan ən mötəbər qaynaqlar sırasındadır.

Bu il görkəmli tarixçi və şərqşünas alimin 100 illik yubileyi tamam olur. Azərbaycan Respublikası Prezidentinin sərəncamında akademik Ziya Bünyadovun fəaliyyəti yüksək səviyyədə dəyərləndirilir. Sərəncamda oxuyuruq: "Akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçmiş, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf etmişdir.

# Tarixdə qalan insan

Geniş erudisiyalı alim mənbəşünaslıq və Orta əsrlər dövrü üzrə professional hazırlığa malik mütəxəssislərdən ibarət elmi məktəb formalaşdırmışdır... Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparmış, təleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilmişdir".

Akademik Ziya Bünyadov daim axtarışlarda, öz əqidəsi, təpintıları uğrunda mübarizələrdə idi. Elə mübarizə yolu da çox erkən başlamışdı. 1923-cü ilin dekabrında Astara şəhərində dünyaya göz açmışdır. Orta məktəbi bitirəndən sonra Bakı Ümumqoşun Məktəbinə daxil olmuşdur. Seçdiyi hərbi istiqamət onu qəhrəmanlıqlarla dolu uzun bir ömür yoluna qovuşdurmuşdur. Çox keçmir ki, İkinci Dünya müharibəsi başlayır və Ziya Bünyadov cəbhəyə gedir.

Gənc zabit 1-ci Belarus cəbhəsinin tərkibində Berlinədək döyüş yolu keçir. Müharibənin gedişi boyu "Qırmızı Bayraq", "Qırmızı Ulduz", "Aleksandr Nevski" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə", "Berlinin alınmasına görə" və digər orden və medallarla təltif olunur, fəxri fərmanlar, təşəkkürlər alır. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 fevral 1945-ci il tarixli qərarı ilə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək və şərəfli ada layiq görülür. Ziya Bünyadov sinəsindəki "Qızıl Ulduz"u qəhrəmanlığın rəmzi kimi həmişə iftixarla və hörmətlə gəzdirirdi. Hətta Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk vaxtlarda bəzi qüvvələrin tarixi hadisələri düzgün qiymətləndirməyərək Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi hünərin üstünə kölgə salmağa cəhd etdiyi zamanda belə akademik sinəsindəki nişanı çıxarmamış, bundan qürur hissi keçirmişdi.

Görkəmli alim elmdə də əsl döyüş, qəhrəmanlıq dolu yarım əsrlik bir yol qət etmişdir. 1946-cı ildə ordudan tərxis edildikdən sonra Z.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna daxil olur. Sonra həmin institutun aspiranturasını da bitirir və 1954-cü ildə sovet şərqşünası Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada ilk tədqiqat işi olan "İtaliya imperializmi Afrikada" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir.

Həmin il alim Bakıya qayıdır və elmi axtarışlarını Azərbaycan Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda davam etdirir. 1964-cü ildə isə artıq "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir və bundan sonra Yaxın və Orta Şərq Xalqları İnstitutunun Orta əsrlər şöbəsinə rəhbərlik ona tapşırılır. Professor Ziya Bünyadov 1967-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1976-cı ildə isə həqiqi üzvü seçilir. 1981-ci ildən Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışır. 1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti olur və ömrünün sonunadək bu vəzifəni layiqincə daşıyır.

Bu illər ərzində böyük alimin elmi yaradıcılığı iki istiqamətdə inkişaf edirdi: Yaxın və Orta Şərq ölkələrinin feodalizm dövrü tarixinin tədqiqi və Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair Orta əsr müəlliflərinin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri.

Akademik Ziya Bünyadovun qələmindən çıxan 300-dən çox elmi əsərin hər biri onun geniş erudisiyasını, hədsiz işgüzarlığını və böyük tədqiqatçılıq qabiliyyətini nümayiş etdirirdi. Görkəmli alimin Orta əsr yaşayış məntəqələrinin müəyyənləşdirilməsinə, şəcərə cədvəllərinin dəqiqləşdirilməsinə, Azərbaycanın qonşu ölkələrlə tarixi əlaqələrinə dair mühüm faktların sistemləşdirilməsinə həsr olunmuş yazıları, habelə tibb, seysmologiya və astronomiyaya dair Orta əsr ərəb mənbələrindəki məlumatların aşkara çıxarılıb elmə gətirilməsi sahəsindəki səyi gərgin əməyin və ciddi tədqiqatçılıq məharətinin bəhrəsi idi.

Ziya Bünyadov Orta əsrlər Azərbaycan və Yaxın Şərq tarixinin ən məhsuldar tədqiqatçılarından idi. Onun "Azərbaycan VII-IX əsrlərdə", "Xarəzmşahlar dövləti", "Azərbaycan Atabəylər dövləti (1136-1225)" və digər əsərləri tarixşünaslığın klassik nümunələridir.1965-ci ildə çap olunan "Azərbaycan VII-IX əsrlərdə" kitabı Z.Bünyadova Azərbaycanın Orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti gətirmişdi. Mütəxəssislərin fikrinə görə, bu, Azərbaycan tarixinin ərəb xilafəti dövrünə dair sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi.

1978-ci ildə Ziya Bünyadov "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyasını nəşr etdirir. Bu monoqrafiya görkəmli alimin Şərq renesansı dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişaf problemlərinin öyrənilməsi sahəsindəki uzunmüddətli əməyinin məhsuludur. Əsər 1980-ci ildə elm və texnika sahəsində respublika Dövlət mükafatına layiq görülmüşdür.

Ziya Bünyadovun 1986-cı ildə Moskvada nəşr olunan "Xarəzmşahlar - Anuştəkinlər dövləti (1097-1231)" adlı monoqrafiyası Orta Asiya və qonşu dövlətlərin Xarəzmşahların dördüncü sülaləsi hökmdarlığı dövrünün 134 illik tarixinə həsr edilmişdir. Həmin kitabda mərkəzi Xarəzm olan dövlətin yaranması, inkişafı və süqutundan bəhs edilir.

Tədqiqatçı-alim türk, ərəb, fars, rus, gürcü, alban və Qərbi Avropa mənbələrindən də geniş istifadə edir, haqqında az məlumat olan yazılı abidələri öyrənirdi. Akademikin çox əhatəli elmi maraq dairəsi var idi. Tarixçi olmasına baxmayaraq, daim Şərq ədəbiyyatını araşdırırdı, bu sahədə, əslində, böyük işlər görürdü. Ziya Bünyadov eyni zamanda Orta əsr müəlliflərinin əsərlərini, Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair qədim yazıları tədqiq, tərcümə və şərh edir, onların nəşri ilə məşğul olurdu. Bu da elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilirdi. Tədqiqatları təkcə Azərbaycanda deyil, Rusiyada, İraqda, Misirdə, Fransada, Türkiyədə, Orta Asiya respublikalarında da nəşr olunurdu.

Ziya müəllimin elmi axtarışları təkcə Orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr, Xalq Cümhuriyyətinin fəaliyyəti, Bakı kommunası və digər mövzulara bir sıra məqalələr həsr etmişdir.

Nəhayət, Ziya Bünyadov bolşevizm terroru və siyasi repressiyaların qurbanları ilə bağlı bir neçə sanballı tədqiqat əsərini ortaya qoyur. Böyük alim elə tarixi həqiqətləri üzə çıxarır ki, onların həmin dövrdə - sovet rejimi illərində aşkar söylənilməsi təhlükəli hesab olunurdu. Başqa sözlə, o, bolşevizm terroru nəticəsində 1920-1930-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri aşkara çıxararkən, 1937-nin qurbanlarını xalqa tanıtdırarkən, onlara bəraət qazandırarkən, adlarını tarixdə bərpa etdirərkən və beləliklə, o dövrü doğru-düzgün işıqlandırarkən də əsl hünər, cəsarət göstərirdi.

Ümummilli Lider Heydər Əliyev akademikin fəaliyyətinin bu dövrünü də yüksək dəyərləndirirdi: "Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında - 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, əgər əvvəllər Azərbaycan tarixinin Orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə özünü buna həsr etdi. O cümlədən ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur".

Cəmiyyətdə ədalətsizliklər davam etdikcə Ziya Bünyadovun mübarizəsi də güclənirdi. O həm də Azərbaycanın bütövlüyünə, onun müstəqilliyinə qənim kəsilmiş məkrli düşmənləri, millətçi erməni ideoloqlarını həqiqi elmin gücü ilə ustalıqla ifşa edirdi. Onun şəxsiyyəti Azərbaycan xalqının düşmənlərini həmişə vahiməyə salırdı. Bir vaxtlar sovet, Ermənistan mətbuatında, onların kitablarında da və "elmi əsər"lərində Azərbaycan tarixi təhrif olunurdu. Hər tərəfdən dəstə-dəstə alimlər, yaxud alim adı daşıyan cırbacır adamlar Azərbaycan tarixinə təcavüz edirdilər. Lakin bu tərəfdə Ziya Bünyadov dayanmışdı. O, öz iradəsi, biliyi, elmi əsərləri ilə onlara tutarlı cavablar verirdi. Azərbaycan tarixini qoruyurdu, onun dünyaya doğru-düzgün çatdırılmasına xidmət edirdi. Azərbaycan milli azadlıq hərəkatı başlayanda Ziya Bünyadovun elmi, ictimai-siyasi fəaliyyəti yeni bir istiqamət və vüsət aldı. O illərdə Z.Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarlarının haqsız iddialarına etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi güclü və mötəbər insanların əməli, hərəkəti ilə Azərbaycanın on minlərlə vətəndaşı, gəncləri bu hərəkata qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, vətənimizin ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazlarını bildirir, mübarizəyə qalxırdılar.

Yeni Azərbaycan Partiyasının yaranmasında yaxından iştirak edənlərdən biri də məhz Ziya Bünyadov idi. Azərbaycanda hadisələr son dərəcə qarışıq olan zaman - bir tərəfdən Bədxah qonşularımız torpağımızda qan tökəndə, digər tərəfdən isə öz içimizdəkilər xalqın arasına çaxnaşma salıb ölkəni parçalamağa cəhd edəndə Ziya müəllimin bütün varlığı vulkan kimi püskürürdü. O, dəfələrlə bir qrup ziyalı ilə birlikdə Naxçıvana getdi, Ulu Öndər Heydər Əliyevlə görüşüb söhbətlər etdi. 1992-ci ilin bir payız günündə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ziya Bünyadovu yeni yaranan partiyanın sədr müavini seçdilər...

Akademik 1995-ci il noyabrın 12-də keçirilən müstəqil Azərbaycanın demokratik əsaslarla seçilmiş ilk parlamentinin deputatı kimi fəaliyyət göstərməyə başladı. O, ölkədə aparılan islahatların hüquqi bazasının yaradılmasında, qanun yaradıcılığının təkmilləşdirilməsində yaxından iştirak etdi. Milli Məclisin deputatı kimi seçiciləri ilə görüşlərə böyük həvəslə gedir, problemləri ilə maraqlanırdı…

Beləcə, bundan sonra da alim, Vətənini sevən ziyalı Azərbaycanın azadlığı, dövlət müstəqilliyi uğrunda fədakarcasına mübarizə apara-apara şəhid oldu. Böyük alimin faciəli ölümü bütün xalqımız üçün əvəzsiz itki idi. Akademik 1997-ci il fevralın 21-də öz evinin astanasında xaincəsinə qətlə yetirildi.

O, hərb illərində Sovet İttifaqı Qəhrəmanı adını almışdı, sonra elmdə böyük xidmətləri ilə uzun bir yol keçmişdi. Ulu Öndər Heydər Əliyev onun fitri istedada malik olduğunu həmişə yüksək qiymətləndirir, cəsurluğunu, cəsarətini, zəkasını, fədakarlığını, zəhmətsevərliyini, işgüzarlığını, əzmini layiqincə dəyərləndirirdi. Ölümündən sonra, 1998-ci ildə Ziya Bünyadov "İstiqlal" ordeni ilə təltif olundu.

Görkəmli alimin zəngin biliyi, geniş dünyagörüşü, tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərində özünü göstərir. O, keçdiyi həyat yolu ilə özünə əbədi həyat yaratdı, ölümsüzlüyə qovuşdu.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Dünyanın "yaşıl"laşmağa ehtiyacı var

## 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bundan irəli gəlir

"Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Dövlətin enerji sahəsində qarşıya qoyduğu bu məqsəd Prezident İlham Əliyevin bu il dekabrın 25-də imzaladığı 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamında bir daha vurğulanıb. Qeyd edilib ki, Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Bir neçə ay əvvəl Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyası olan bu enerji obyektinin istismara verilməsi qarşıya qoyulan məqsədə çatmaq üçün atılan mühüm addımdır. Hazırda Bakıda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə külək-eletrik stansiyasının tikintisi davam edir. Növbəti yeni layihələrin reallaşması üçün bir sıra sənədlər imzalanıb, danışıqlar gedir.

Bu sahədəki hədəflərdən danışarkən xatırlatmaq vacibdir ki, işğaldan azad edilmiş ərazilərimiz Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunub. Bununla bağlı dövlət başçısı 2021-ci il mayın 3-də sərəncam da imzalayıb.

Məlum olduğu kimi, "yaşıl enerji" konsepsiyasının əsas elementləri günəş və külək enerjisindən sistemli şəkildə istifadə edilməsidir. Coşqun Xəzərin dalğalarının gətirdiyi küləklər, yurdumuzun əksər bölgələrinin bol günəşi bu növ enerji istehsalını genişləndirmək üçün geniş perspektivlər açır. Təkcə Xəzərin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qeqavat təşkil edir. İşğaldan azad olunan ərazilərimizin də günəş və külək potensialı böyükdür. Bu, həmin ərazilərdə istehsal olunan elektrik enerjisinin hətta digər rayonlara nəql edilməsinə imkan yaradacaq.

Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində daha çox müşahidə olunur. Hər iki bölgənin ərazisi ilə axan Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas və digər kiçik çayların böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli rayonları Naxçıvan MR-dən sonra ikinci yerdədir. Azərbaycanın ən günəşli rayonlarından biri də Ağdamdır. Burada günəşli günlərin çox olması günəş enerjisindən istifadəni aktuallaşdırır. Gələcəkdə burada da günəş enerjisindən və digər bərpaolunan enerji mənbələrindən istifadə nəzərdə tutulur.



Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Xüsusilə Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 500 meqavatadək qiymətləndirilir. Təbii ki, bunlar ilkin qiymətləndirmələrdir.

Prezident İlham Əliyevin bu il dekabrın 25-də imzaladığı sərəncamda bir daha qeyd olunur ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" potensialından səmərəli şəkildə istifadə olunması üçün konkret layihələr hazırlanaraq onların həyata keçirilməsinə başlanıb. Artıq bir sıra layihələrin icrası tamamlanıb. İşğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə çoxistiqamətli tədbirlərlə ölkəmizdə bərpaolunan enerjinin inkişafı geniş vüsət alıb. Bu ərazilərdə ümumi gücü 320 MVt-dan artıq olan 50-dən çox kiçik su-elektrik stansiyasının (KSES) bərpası üçün araşdırmalar aparılır.

Azad edilmiş ərazilərdə artıq 53,6 MVt gücündə 11 KSES istismar edilir, 70,5 MVt gücündə 7 KSES hazırda inşa olunur və ümumi gücü 76,8 MVt olan 9 stansiyanın tikintisinə başlanıb. Kiçik su-elektrik stansiyalarının bərpasına özəl investisiyanın cəlb edilməsi istiqamətində işlər aparılır. Cəbrayılda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası, Araz çayı üzərində 140 MVt gücündə "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su-elektrik stansiyaları da Şərqi Zəngəzurun "yaşıl inkişaf"ına öz töhfəsini verəcək.

Sentyabr ayında Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan - Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransında qeyd edildiyi kimi, "yaşıl enerji" layihələrinin reallaşdırılması yaxın illərdə muxtar respublikanı enerji ixracatçısına çevirəcək və onun strateji əhəmiyyətini daha da artıracaq. Külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq sayəsində Naxçıvan "yaşıl enerji"nin istehsalı-ixracının da mənbəyi və marşrutu olacaq. Bu xüsusda "Total-Energies" və "Nobel Energy" şirkətləri ilə ümumi gücü 650 MVt olan günəş-elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edilir. "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 MVt olan günəş-elektrik stansiyası, "Czech Engineering" şirkəti ilə günəş-elektrik stansiyaları, eləcə də Almaniyanın "Notus" şirkəti ilə "yaşıl enerji" layihələrinin reallaşdırılması ilə bağlı planlar var.

"Yaşıl dünya naminə həmrəylik ili" olan 2024-cü il bu rayonların "yaşıl enerji" məkanına çevrilməsi üçün xüsusi təkan verəcək. Bu da həmin istiqamətdə görülən işlərin ölkəmizin daha böyük sosial-iqtisadi inkişafına səbəb olacağı deməkdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanlı alim xüsusi mükafata layiq görülüb

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Elm və texnologiya sahəsi üzrə xüsusi mükafatına bu il AMEA-nın vitse-prezidenti, Azərbaycan Respublikası Elm, Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik, biologiya elmləri doktoru, professor İradə Hüseynova layiq görülüb.

Bu barədə qərar 2023-cü il noyabrın 9-da İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən 16-cı Zirvə toplantısında qəbul edilib. Mükafatın qalibləri tədbirə evsahibliyi edən ölkənin Prezidenti Şavkat Mirziyoyev tərəfindən elan olunub.




Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatının müxtəlif sahələr üzrə təsis etdiyi mükafatlar hər nominasiya üzrə təşkilata üzv ölkələrdən təqdim edilmiş namizədlər sırasından seçilmiş bir nəfərə verilir.

Xatırladaq ki, mükafatın builki sahibi akademik İradə Hüseynova 400-dən çox, o cümlədən yüksək impakt faktorlu jurnallarda çap olunmuş 100-ə qədər elmi əsərin, 5 monoqrafiya, 2 kitab, 4 buklet, 10 kitab fəslinin müəllifidir. Azərbaycan elminə layiqli töhfələr verən akademik elmi rəhbərliyi və məsləhətçiliyi ilə 8 fəlsəfə və 3 elmlər doktoru hazırlanıb.

Ömrünü ali bitkilərin fotosintetik membranlarının piqment-zülal komplekslərinin sintezi, yığılması və formalaşması proseslərinin molekulyar-genetik aspektlərinin tədqiqinə, bitkilərin abiotik və biotik streslərə davamlılıq mexanizmlərinin aydınlaşdırılmasına həsr edən akademik İradə Hüseynovanın gəldiyi nəticələr məşğul olduğu sahənin çox qiymətli incisi hesab edilir.

*"Azərbaycan"*

# Serbiyada "rəngli inqilab" cəhdi uğursuzluğa düçar oldu

Belqradda davam edən etiraz aksiyaları Qərbin indiyədək bir çox ölkədə sınaqdan çıxardığı "rəngli inqilab"a cəhddir. Serbiya Prezidenti Aleksandar Vuçiç də birmənalı olaraq bunu təsdiqləyib. O, Belqradda baş vermiş iğtişaşları qanuni yolla seçilmiş hökuməti devirmək cəhdi hesab edir.





Vuçiç etirazçıların hakimiyyət orqanları seçkilərində saxtakarlıq ittihamlarını rədd edib və həmin ittihamların yalan olduğunu bildirib. Xaricdən göndərilən "quldurlar"ın sabitliyi pozmağa çalışdıqlarını deyən Vuçiç vurğulayıb ki, onların cəhdləri uğursuzluğa düçar olub.

Serbiya liderinin fikrincə, bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasına israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışır, lakin Serbiya müstəqil siyasət yürütməyə davam edəcək. "Onlar Serbiyanı zəif görmək istəyirlər ki, əvvəllər olduğu kimi iplə idarə olunacaq oyuncaq kimi idarə etsinlər - hökuməti və nazirləri seçə bilsinlər, hansı siyasətin həyata keçiriləcəyinə qərar versinlər, faksla və ya telefonla əmrlər versinlər ki, Rusiyaya qarşı sanksiyalar tətbiq edin. Amma biz öz siyasətimizi aparmaq istəyirik", -deyə Aleksandr Vuçiç bildirib.

Qərb Serbiyanı Kosovonun müstəqilliyini tanımağa məcbur etmək istəyir. Oktyabrda Fransa, Almaniya liderləri açıq şəkildə Belqradı Kosovonu tanımağa çağırmışdılar.

Serbiyada küçə etirazları əvvəllər istifadə olunan Qərb şablonlarından istifadə etməklə həyata keçirilir. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O qeyd edib ki, növbədənkənar parlament seçkilərindən bir həftə sonra saxtakarlıq bəhanəsi ilə Belqradda küçə etirazlarını meydanlaşdırmaq cəhdləri edilib. Qərb dərsliklərinin tanınmış şablonlarından istifadə olunur, onlar artıq bir sıra ölkələrdə dəfələrlə istifadə olunub və bu, həmişə faciəvi nəticələrə gətirib çıxarıb.

Xatırladaq ki, etirazın təşkilatçısı olan "Serbiya Zorakılığa Qarşı" koalisiyası parlament seçkilərində cəmi 23 faiz səs toplayıb. Onlar Belqrad şəhər məclisinə seçkilərdə hakim partiyanın rəhbərlik etdiyi koalisiyanın qələbəsi ilə razı olmadıqlarını bəyan edirlər.

Buna görə onlar dekabrın 24-də Belqrad administrasiyasına basqın etməyə cəhd ediblər. İğtişaşçılar bayraq dirəklərindən istifadə edərək qapını yıxıb, pəncərələri qırıb və müşahidə kameralarını məhv ediblər. Gecə yarısı paytaxt administrasiyası yaxınlığındakı meydana gələn polis əməkdaşları etirazçıları dağıdıb.

Serbiya mətbuatının məlumatına görə, iğtişaşçılar arasında ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx əlaqədə olan siyasətçi Srcan Milivojeviç də olub.

Qeyd edək ki, 2000-ci ildə Serbiyada ilk "rəngli inqilab" prezident Slobodan Miloşeviçi aradan götürmək məqsədi daşıyırdı və indi həmin texnologiyalardan Vuçiçə təzyiq göstərmək üçün istifadə olunur. Serbiya Prezidenti Aleksandar Vuçiç bildirib ki, ölkədə hakimiyyət yalnız seçki yolu ilə dəyişdiyi üçün müxalifətin etirazları və təxribat xarakterli bəyanatları heç bir nəticə verməyəcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## B İ L D İ R İ Ş

## "Lənkəran Dəmir-Beton Zavodu" Açıq Səhmdar Cəmiyyətinin *səhmdarlarının nəzərinə*

Səhmdarların ümumi yığıncağının iclası 14 fevral 2024-cü il tarixdə, saat 09:00-da "Lənkəran Dəmir-Beton Zavodu" ASC-nin yerləşdiyi Lənkəran rayonu, Lənkəran şəhəri, T.İsmayılov küçəsi, 247 ünvanında keçiriləcək.

***Səhmdarların ümumi yığıncağının gündəliyi:***

1. Cəmiyyətin fəaliyyətinin bərpa edilməsi, cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının), icra orqanının (idarə heyətinin), təftiş komissiyasının (müfəttiş) üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
2. Cəmiyyətin emissiya prospektində öz əksini tapmış daşınar və daşınmaz əmlakların üçüncü şəxslərə özgəninkiləşdirilməsi (satılması);
3. Cəmiyyətin yenidən təşkil edilməsi, "Lənkəran Dəmir-Beton Zavodu" Açıq Səhmdar Cəmiyyətinin təşkilati-hüquqi formasının dəyişdirilərək "Lənkəran Dəmir-Beton Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsi; yenidən təşkil edilmiş "Lənkəran Dəmir-Beton Zavodu" MMC-nin qanuni təmsilçilik funksiyasına malik direktorunun seçilməsi;
4. Təhvil Aktının təsdiq edilməsi;
5. Yenidən təşkil edilmiş "Lənkəran Dəmir-Beton Zavodu" MMC-nin nizamnaməsinin təsdiq edilməsi;
6. Cəmiyyətin müşahidə şurasının, idarə heyərinin, təftiş komissiyasının (müfəttiş) üzvlərinin seçilməsi;
7. Cəmiyyətin dövlət qeydiyyatı məlumatlarında baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsinə ərizə ilə müraciət edilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla cəmiyyətin yerləşdiyi ünvandakı inzibati binasında tanış ola bilərlər.

**Ünvan: Lənkəran rayonu,**
**Lənkəran şəhəri, T.İsmayılov, 247**

***"Lənkəran Dəmir-Beton Zavodu" ASC***

# Abşeron yarımadasında yağışın qısa müddətə sulu qara keçəcəyi gözlənilir

Azərbaycanda dekabrın 29-na gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, Abşeron yarımadasının şimalında yağışın qısa müddətə sulu qarla qarışıq yağması ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 8-11° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 771 millimetr civə sütunundan 774 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə havanın qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 0-5° isti, bəzi yerlərdə 8° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacağı bildirilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6° isti, gündüz 8-13° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntı tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5°, gündüz 7-12° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 3-6° isti olacaq.

# Qərb Paşinyandan yeni seçkilər keçirilməsini tələb edir

Hayastan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda üzləşdiyi çətin vəziyyətdən çıxa bilmir. Problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir.



Hər halda Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyi görünür, Rusiyanın xeyrinə olmayan bu istiqamətdə israrlı davranmağa çalışır. Bu fonda Qərb Hayastandan ən yaxın zamanda növbədənkənar parlament seçkilərini keçirməyi tələb edir.

Hayastan mediasının verdiyi məlumata görə, N.Paşinyan və "Vətəndaş müqaviləsi" partiyası növbədənkənar seçki məsələsini ən azından 2024-cü ilin yayına qədər qaldırmamağa qərar verib. "4rd.am" nəşri yazır ki, Paşinyan növbədənkənar seçkilərdə qələbəsini tam təmin edə biləcək xüsusi müvafiq ciddi strukturlara və resurslara malik olmadığını anlamağa başlayıb. Qeyd olunub ki, regional strukturlarda vəziyyət xüsusilə ağırdır və ona görə də ən azı bayramdan sonra hakimiyyət orqanları regional fəaliyyətlərini gücləndirəcəklər. Hər bir nazirə hər hansı bir vilayətin koordinasiyası tapşırılacaq və ümumi koordinasiyanı müdafiə naziri Suren Papikyan həyata keçirəcək.

Bildirilib ki, Paşinyan həm də bir neçə naziri vəzifədən azad etmək niyyətindədir. "Hakim partiyadakı mənbəmizin sözlərinə görə, hazırda səhiyyə naziri Anahit Avanesyan, ərazi idarəetmə və infrastrukturlar naziri Qnel Sanosyan, ətraf mühit naziri Hakop Simidyan, yüksək texnologiyalar sənayesi naziri Robert Xaçatryan və iqtisadiyyat naziri Vahan Kerobyan zərbə altındadır. Paşinyan həm də hazırkı baş nazirin müavini Mher Qriqoryanı Rusiyanın təsiri altında fəaliyyət göstərən fiqur hesab edərək, onun xidmətlərindən imtina etmək istəyir", - deyə nəşr yazır. O da qeyd olunur ki, Hayastan hakimiyyəti seçkiləri saxtalaşdırmaq üçün bütün mexanizmləri mənimsəyib və təkmilləşdirib. Ona görə növbədənkənar seçki İrəvan Ağsaqqallar Şurasına seçkidə olduğu kimi, parlament müxalifətinin dəyişməsinə, burada anti-Rusiya qüvvələrinin təsirinin artmasına səbəb ola bilər.

Onu da qeyd edək ki, Hayastanda anti-Rusiya əhvali-ruhiyyəsi kəskin həddə çatıb. Ancaq sıravi erməniləri daha çox siyasi proseslər deyil, getdikcə daha da çökməkdə olan sosial-iqtisadi vəziyyət düşündürür. Ruh düşkünlüyünə qərq olan bir çoxları çıxış yolunu mühacirətdə görür.

Ona görə Hayastanda əhalinin sayı sürətlə azalmaqda davam edir, xaricə köçənlərin sayı artır. Əhalinin təbii artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Real vəziyyət Hayastanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir. Erməni sosioloqu Samvel Manukyan deyib ki, bir il ərzində 150-200 min erməni mühacirət edə bilər. Köç edənlərin əksəriyyəti isə Rusiya istiqamətini seçəcək. Çünki Rusiya onlara yeni həyat qurmaq üçün daha çox imkanlar vəd edir. Asan sosiallaşma, mövcud məşğulluq imkanları Rusiyada daha böyükdür. Üstəlik, bu ölkədə dil maneəsi yoxdur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3420**

**Qiyməti 40 qəpik**